RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 29 (8345) BAZAR ERTƏSİ, 10 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan Prezidenti İlham Əliyev 6 saylı seçki məntəqəsində səs verib

















Fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçirilib. AZƏRTAC xəbər verir ki, səsvermə prosesinin başladığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində canlanma müşahidə olunurdu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri səs vermək üçün bu seçki məntəqəsinə gəldilər.

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.

Sonra birinci xanım Mehriban Əliyeva və ailə üzvləri səs verdilər.

Qeyd edək ki, Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 saylı seçki məntəqəsində 574 seçici qeydiyyata alınıb. Bu seçki dairəsi üzrə 20 namizəd mübarizə aparır.

# SEÇKİLƏR BEYNƏLXALQ STANDARTLARA TAM CAVAB VERDİ

## Rəcəb Tayyib Ərdoğan İlham Əliyevi təbrik etdi



**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan fevralın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Rəcəb Tayyib Ərdoğan Azərbaycanda keçirilən parlament seçkilərində Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının qələbə qazanması münasibətilə dövlətimizin başçısını təbrik edib, yeni parlamentə fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə edib və yaxın zamanlarda yeni təmasların davam etdirilməsi haqqında qərara gəliblər.

***Prezidentin Mətbuat Xidməti***

## Yeni Azərbaycan Partiyası: "Əminik ki, Milli Məclisin yeni tərkibi ölkəmizdə həyata keçirilən islahatlara öz dəyərli töhfəsini verəcək"

"Fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilər başa çatıb. Seçkiləri izləyən çoxsaylı beynəlxalq və yerli müşahidəçilərin rəyi seçki prosesinin azad, demokratik, şəffaf şəraitdə ölkənin qanunvericiliyinə tam uyğun olaraq keçirildiyini sübuta yetirir. Seçkilərdə 1314 namizədin iştirak etməsi deputat mandatı uğrunda mübarizənin yüksək rəqabət şəraitində aparılmasından xəbər verir".

AZƏRTAC xəbər verir ki, bu sözlər Yeni Azərbaycan Partiyasının seçkilərlə bağlı məlumatında yer alıb.

Məlumatda deyilir: "Daha güclü Azərbaycan naminə" çağırışı ilə seçkilərə qatılan Yeni Azərbaycan Partiyası 123 dairədə qeydiyyatdan keçmiş namizədi ilə geniş və əhatəli seçki kampaniyası aparmağa müvəffəq olub. Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalq arasında yüksək şəxsi nüfuzu, həyata keçirdiyi siyasətin möhtəşəm nəticələri, ölkə iqtisadiyyatının sürətli inkişafı, əhalinin rifahının yüksəlməsi, Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmlənməsi, uğurla davam edən genişmiqyaslı islahatlar Yeni Azərbaycan Partiyasının sözügedən seçkilərdə istinad etdiyi əsas məqamlar olub. Qeyd etmək yerinə düşər ki, seçkilərə şəxsi keyfiyyətləri sayəsində insanlar arasında böyük nüfuz qazanmış layiqli namizədləri ilə qatılan Yeni Azərbaycan Partiyasının seçki kampaniyasının uğurla həyata keçirilməsinə partiyanın çoxsaylı üzvləri və könüllüləri də böyük töhfə veriblər.

Seçkilərin gedişatını izləyən bir sıra mötəbər beynəlxalq sorğu mərkəzlərinin (exit-poll) verdikləri açıqlamalar Yeni Azərbaycan Partiyasının Milli Məclisə seçkilərdə əhəmiyyətli uğurlar qazandığını söyləməyə əsas verir.

Yeni Azərbaycan Partiyası bu seçkilərdə səsvermənin gedişini özünün çoxminli müşahidəçiləri ilə geniş şəkildə izləyib. Onların verdiyi məlumatlara görə, seçkilərə qatılmış bəzi namizədlər və onların tərəfdaşları səsvermə prosesini pozmağa, müxtəlif təxribatlarla demokratik və azad keçirilən seçkilərə kölgə salmağa cəhdlər göstəriblər.

Yeni Azərbaycan Partiyası bu seçkilərdə onun irəli sürdüyü namizədlərə və nəticə etibarilə Azərbaycan Respublikasının Prezidentinin siyasətinə səs vermiş vətəndaşlarımıza dərin minnətdarlığını ifadə edir və əmin olduğunu bildirir ki, Milli Məclisin yeni tərkibi ölkəmizdə həyata keçirilən islahatlara öz dəyərli töhfəsini verəcək.

## Parlament seçkiləri ölkəmizin bir daha demokratiya yolu ilə irəlilədiyini təsdiqlədi

**Dünən keçirilən parlament seçkiləri Azərbaycanın demokratiya yolu ilə inamla irəlilədiyini bir daha bütün dünyada nümayiş etdirdi. Ona görə bu mühüm siyasi hadisə əvvəlki seçkilər kimi, bütün parametrləri ilə respublikamızın tarixinə demokratik və şəffaf seçkilərdən biri kimi yazıldı.**



Ümumiyyətlə, Azərbaycanda seçkilərin demokratik keçirilməsi ilə bağlı kifayət qədər böyük təcrübə və zəngin ənənə mövcuddur. Bu ənənənin əsası isə 27 il əvvələ gedib çıxır. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra demokratik seçki mühitinin formalaşdırılması Azərbaycanda hüquqi dövlət quruculuğunun başlıca istiqamətlərindən birinə çevrildi. Heydər Əliyevin həmin ildə Prezident seçilməsi ölkədə demokratiyanın inkişaf etdirilməsinin, vətəndaş cəmiyyəti quruculuğunun, o cümlədən seçki sisteminin təkmilləşdirilməsinin əsasını qoydu.

Ötən 27 ildə Azərbaycanda 6 prezident, 6 parlament, 5 bələdiyyə seçkisi keçirilib. Ayrı-ayrı vaxtlarda parlamentə və bələdiyyələrə əlavə və təkrar seçkilər təyin olunub. Bütün bu seçkilər, həmçinin referendumlara dair beynəlxalq təşkilatların verdikləri müqayisəli rəylər onu təsdiq edir ki, Azərbaycanda seçkilərdən-seçkilərə vətəndaşların siyasi şüuru və seçki mədəniyyəti daha da yüksəlib.

Parlament seçkiləri kampaniyasına ötən ilin dekabr ayında start verilmişdi. Prezident İlham Əliyevin "Beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" 5 dekabr 2019-cu il tarixli sərəncamı ilə Milli Məclisə seçkilər bu il fevralın 9-na təyin edilmişdi. Mərkəzi Seçki Komissiyası isə dekabrın 7-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planını təsdiq etmişdi.

Dekabr, yanvar və fevral aylarında Təqvim Planında nəzərdə tutulan bütün tədbirlər qrafikə uyğun tam həyata keçirildi. Yanvarın 17-dən seçkilərin təşviqat mərhələsi başladı və 23 gün davam etdi. Bu mərhələdə namizədlərə bərabər şərait yaradıldı. Onlar öz seçiciləri ilə görüşlərini keçirərək yaradılmış təşviqat imkanlarından bərabər şəkildə yararlandılar. Beləliklə, seçki kampaniyasının həm namizədliyin qeydə alınması, həm də təşviqat mərhələsi qanunvericiliyə uyğun aparıldı və seçki kampaiyasına kölgə sala biləcək nöqsan qeydə alınmadı.

Dünən isə parlament seçkiləri kampaniyası ən mühüm fazasına qədəm qoydu. Həmin gün seçici hüququna malik Azərbaycan vətəndaşları ölkə üzrə 125 seçki dairəsinin 5573 seçki məntəqəsində səs vermək hüquqlarından istifadə etdilər. Son dəqiqləşdirmələrə əsasən ölkə üzrə 5 milyon 329 min 460 nəfər seçici qeydə alınmışdı. Seçkilərdə Milli Məclisin deputatı adı uğrunda 1314 nəfər namizəd mübarizə apardı. Onlardan 246 nəfərin namizədliyi siyasi partiyalar, 11 nəfərin namizədliyi təşəbbüs qrupları tərəfindən irəli sürülmüşdü. 1057 nəfər namizəd isə öz təşəbbüsü ilə seçkiyə qatılmışdı.

Parlament seçkiləri uğurla başa çatdı. Seçkinin demokratik, ədalətli və şəffaf keçirildiyini beynəlxalq təşkilatlar və müşahidəçilər də təsdiq etdilər. Bu baxımdan ölkəmizdə parlament seçkiləri tarixə növbəti demokratik ümumxalq səsverməsi kimi düşdü. Seçkinin nəticələri isə vətəndaşların Yeni Azərbaycan Partiyasına rəğbətini bir daha əyani şəkildə nümayiş etdirdi. YAP-ın bu qələbəsi bir daha onu göstərdi ki, Azərbaycan vətəndaşları dövlət başçısı, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin ətrafında sıx birləşərək ölkəmizdə həyata keçirilən siyasi kursu inamla dəstəkləyirlər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## MSK ilə "exit-poll"ların nəticələri üst-üstə düşdü

Dünən ölkədə 125 seçki dairəsi üzrə 5573 seçki məntəqəsində parlament seçkiləri keçirildi. Yüksək rəqabət şəraitində keçirilən seçkilərin şəffaflığını beynəlxalq və yerli müşahidəçilər də təsdiq etdilər.

Əlavə edək ki, budəfəki parlament seçkilərində 883 beynəlxalq müşahidəçi akkreditasiyadan keçmişdi. Onlar 59 beynəlxalq təşkilatı və 58 ölkəni təmsil edirdilər.

Seçki başa çatdıqdan sonra beynəlxalq təşkilatlar mətbuat konfransları keçirərək seçkinin gedişatını və ümumi seçki mühitini qiymətləndirdilər. MDB-nin Parlamentlərarası Assambleyası Şurasının müşahidə missiyası, Belarus parlamentinin müşahidə missiyası və digər xarici müşahidəçilər bəyan etdilər ki, ölkə üzrə seçkilər seçicilərin fəallığı şəraitində keçib. İnsanlar seçkilərdə həvəslə iştirak ediblər. Azərbaycanda seçki məntəqələrinin hər biri qanunvericiliyin bütün tələblərinə, məhz ümumxalq, bərabər və demokratik seçkilərin keçirilməsi standartlarına cavab verir.

Seçkilər başa çatdıqdan 2 saat sonra "exit-poll" keçirən təşkilatlar apardıqları sorğuların cavablarını elan etdilər. ABŞ-ın "Artur J.Finkelstein and Associates" təşkilatı və Fransanın "Opinion Way" Sosioloji Araşdırmalar İnstitutunun "İnsan Hüquqları XXI əsr-Azərbaycan" Fondu ilə birgə parlament seçkilərində keçirdikləri "exit-poll"un nəticələri, demək olar ki, üst-üstə düşdü.

ABŞ-ın "Artur J.Finkelstein and Associates" təşkilatı 47 dairə üzrə 2106 nəfər seçicinin fikrini öyrənib. Toplanan məlumatlar gün ərzində 3 dəfə ABŞ-a, yəni baş ofisə göndərilib.

"Opinion Way" Sosioloji Araşdırmalar İnstitutu ölkə üzrə 236 seçki məntəqəsində "exit poll" keçirib. Ümumilikdə 10 119 səs verən şəxs sorğuya cəlb edilib. Seçici fəallığı 55,06 faiz olub.

Günün sonunda isə Mərkəzi Seçki Komissiyası seçkilərin ilkin nəticəsini elan etdi. Parlament seçkilərində seçici fəallığı 47,81 faiz olub. İki beynəlxalq təşkilatın həyata keçirdiyi "exit-poll"la MSK-nın rəsmi nəticələri üst-üstə düşdü.

Bu da bir daha təsdiq etdi ki, VI çağırış Milli Məclisə seçkilər ümumilikdə beynəlxalq standartlara cavab verən şəraitdə keçirilib.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## MSK sədri TÜRKPA-nın beynəlxalq müşahidəçilər missiyasının üzvləri ilə görüşüb



Fevralın 9-da Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov TÜRKPA-nın beynəlxalq müşahidəçilər missiyasının üzvləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan MSK sədri onlara seçki prosesi ilə bağlı məlumat verib. Qeyd edib ki, seçkilərdə ölkədəki əksər siyasi partiyalar təmsil olunur. Seçkilər beynəlxalq və yerli müşahidəçilər tərəfindən izlənir. 1000 məntəqəyə veb-kamera quraşdırılıb.

Müşahidə missiyasının qazaxıstanlı rəhbəri Berik Ospanov bildirib ki, seçkilər türk dövlətlərinin parlamentlərinin üzvləri tərəfindən də müşahidə edilir. Qonaq gərgin iş rejiminin olmasına baxmayaraq, onları qəbul etdiyi üçün MSK sədrinə minnətdarlığını bildirib. O seçki prosesinin normal qaydada getdiyini deyib.

Sonra MSK sədri Məzahir Pənahov qonaqların suallarını cavablandırıb.

## *Macarıstanlı jurnalist:* "Müşahidə apardığım məntəqələrə seçici axını var idi"



Fevralın 9-da ölkəmizdə keçirilən parlament seçkilərində fərdi müşahidəçi qismində iştirak edən macarıstanlı jurnalist Peter Dunayi təəssüratlarını azərbaycanlı mətbuat nümayəndələri ilə bölüşüb.

AZƏRTAC xəbər verir ki, Peter Dunayi seçkilərlə bağlı araşdırma-məqalə hazırlamaq üçün Azərbaycana gəldiyini bildirib.

O deyib: "Təəssüratlarım yaxşıdır. Dörd məntəqədə oldum. Seçici axını var idi. Onlar seçkiyə gəlməyi özlərinə borc bildiklərini deyirdilər. Xüsusilə gənclər prosesə pozitiv yanaşırdılar".

Macarıstanlı jurnalist qeyd edib ki, regionun digər ölkələri ilə müqayisədə Azərbaycanda iqtisadi artım əhəmiyyətli dərəcədə üstündür. Azərbaycan açıq ölkədir. Burada gənc nəsil üçün üstünlüklər çoxdur. Avropa seçki sistemi ilə Azərbaycandakı seçki sistemi arasında heç bir fərq yoxdur.

Jurnalist məqaləsində Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunmasından da yazacağını diqqətə çatdırıb.

## Almaniyalı və yunanıstanlı müşahidəçilər Azərbaycanda parlament seçkilərinin demokratik və şəffaf keçdiyini bildiriblər



"Hər şey gözlədiyimiz kimi oldu. Seçkilər demokratik və şəffaf keçdi. Seçki məntəqələrində çox sayda seçici və müşahidəçi var idi. Bu, xüsusi olaraq diqqətimi cəlb etdi".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisə seçkiləri müşahidə edən Almaniyanın Bavariya bölgəsi parlamentinin deputatı Uli Henkel mətbuat konfransında deyib.

Bavariya parlamentinin digər nümayəndəsi Ulrix Singer də həmkarı ilə eyni fikri bölüşdüyünü bildirib. O qeyd edib ki, hər şey qaydalara uyğun idi: "Seçki məntəqələrində bütün suallarımıza cavab tapdıq. Heç kim bizə problem yaratmadı. Bu, bizim üçün önəmli idi".

Yunanıstan parlamentinin deputatı Lazaros Tsavdaridis isə deyib ki, onlar dörd məntəqədə müşahidə aparıblar və heç bir qayda pozuntusu aşkarlanmayıb: "Seçicilər, müşahidəçilər, siyasi partiyaların nümayəndələri və könüllülər ilə söhbətləşdik. Qənaətim budur ki, seçkilər yüksək səviyyədə və demokratik keçib".

Yunanıstan parlamentinin digər deputatı Katerina Monogiou da qeyd edib ki, parlament seçkiləri demokratik keçib.

## *Leonid KALAŞNİKOV:* "Seçki prosesi tam qanunauyğun şəkildə aparılır"

Fevralın 9-da Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov Rusiya Federasiyasının Dövlət Dumasının nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan MSK sədri seçki prosesi ilə bağlı məlumat verib.

MSK sədri qeyd edib ki, seçkilər xarici və yerli KİV tərəfindən yayımlanır. Seçkidə ölkədəki əksər siyasi partiyalar təmsil olunur. Seçki beynəlxalq və yerli müşahidəçilər tərəfindən izlənir. 1000 məntəqəyə veb-kamera quraşdırılıb.

Nümayəndə heyətinin rəhbəri Leonid Kalaşnikov bildirib ki, onlar müşahidələri zamanı seçki prosesinin tam qanunlar çərçivəsində aparıldığının şahidi olublar.

Sonra MSK sədri qonaqların suallarını cavablandırıb.

## AZƏRBAYCAN PARLAMENT SEÇKİLƏRİNİ UĞURLA BAŞA VURDU

# Mərkəzi Seçki Komissiyasının Milli Məclisə seçkilərlə bağlı növbəti mətbuat konfransı






Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov fevralın 9-da Milli Məclisə seçkilərlə bağlı "Seçkilər" İnformasiya Mərkəzində növbəti mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, Məzahir Pənahov çıxış edərək 5573 məntəqənin hamısında səsvermənin vaxtında - səhər saat 8-də başladığını və axşam saat 19-da başa çatdığını bildirib. Qeyd edib ki, ölkə üzrə ümumi seçici fəallığı hava şəraitinin pis olmasına baxmayaraq, 47,81 faiz olub. Yəni, 5 milyon 329 min 460 seçicidən 2 milyon 547 min 982-si səsvermədə iştirak edib.

MSK sədri deyib: "Parlament seçkilərində 276 qadın namizəd iştirak edib. Onların hamısı cəmiyyətdə sayılıb-seçilən qadınlar olub. Seçki marafonuna 1038 kişi namizəd qatılmışdı. Bu nisbət ötən seçkilərlə müqayisədə 5-6 faiz çoxdur. Əsas göstəricilərdən biri də namizədlərin yaş həddi ilə bağlıdır. Namizədlər arasında gənclərin mütləq əksəriyyəti xarici ölkələrdə təhsil almış şəxslərdir".

Məcburi köçkünlərin seçkilərdə konstitusion hüquqlarından istifadə etmələrinə çalışdıqlarını vurğulayan MSK sədri bildirib ki, 1314 deputatlığa namizəddən 246 nəfəri partiyaların siyahıları ilə irəli sürülüb. Seçkilər dövründə MSK-ya cəmi 47 müraciət olub. Bu müraciətlərin yalnız 25-i qeydiyyatla bağlıdır. Seçkilərdə qeydiyyat mərhələsində elə bir gərginlik hiss olunmayıb.

Məzahir Pənahov qeyd edib ki, MSK təşviqat mərhələsində sosial şəbəkələrdə namizədlərin təşviqatının nəzarətə alınmaması qərarına gəlib: "Beynəlxalq təşkilatlar da bunu xüsusi vurğulayıblar. Sosial şəbəkələrdə fəallıq seçkilərdə də xüsusi fəallığa səbəb olub. Bu praktikadan gələcəkdə də istifadə edilməlidir".

Milli Məclisə seçkilərlə bağlı sosial şəbəkələrdəki bütün görüntülərin ciddi araşdırılacağını vurğulayan M.Pənahov deyib ki, kimin əlində görüntü varsa, MSK-ya təqdim etsin: "Hətta həmin videogörüntülərin surətini çıxarıb, qaytara bilərik. Bələdiyyə seçkiləri ilə müqayisədə parlament seçkiləri ilə bağlı araşdırma daha ciddi olacaq. Heç kimdə o səlahiyyət yoxdur ki, Azərbaycan ictimaiyyətinin gözləntilərinin üzərinə kölgə salsın. MSK və aşağı seçki dairələri ictimaiyyətin tələblərinə cavab verməlidir. Ona görə də vətəndaşlar əllərində olan bütün faktları MSK-nın aidiyyəti orqanlarına çatdırmalıdır".

Pozuntulara yol verən bütün aşağı seçki komissiyaları da ciddi surətdə cəzalandırılacaq. MSK sədrinin sözlərinə görə, belə pozuntulara yol verən seçki komissiyaları buraxılacaq: "Biz bununla bağlı qəti addımlar atacağıq. Seçki komissiyalarının səhv, xüsusən bilərəkdən səhv etməyə haqqı yoxdur. Hətta lazım gəlsə, hüquq mühafizə orqanlarına müraciət edəcəyik. Biz seçki ilə bağlı müraciətləri KİV-in, ictimaiyyətin iştirakı ilə araşdıracağıq. Hər kəs imkanları daxilində proseslərə yardımçı olmalıdır".

Məzahir Pənahov qeyd edib ki, Milli Məclisə seçkilərlə əlaqədar 883 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib. Onlar 59 beynəlxalq təşkilatı və 58 ölkəni təmsil edirlər. Göründüyü kimi, beynəlxalq müşahidəçilər həm say, həm də coğrafi baxımdan kifayət qədər əhatəlidir. Qeydiyyatdan keçmiş yerli müşahidəçilərin sayı isə 77 min 790 olub. Onlardan 35 min 152-si siyasi partiyaların, 2737-si isə QHT-lərin təmsilçiləri idi.

Sədr bildirib ki, parlament seçkilərinin gedişini 47 ölkəni təmsil edən 132 beynəlxalq KİV-in 199 təmsilçisi işıqlandırıb.

MSK-nın "Qaynar xətt"inə 261 müraciətin daxil olduğunu vurğulayan M.Pənahov bildirib ki, bu müraciətlər də araşdırılacaq.

Sonra jurnalistlərin sualları cavablandırılıb.

# Mərkəzi Seçki Komissiyası Milli Məclisə seçkilərin ilkin nəticələrini açıqlayıb

Mərkəzi Seçki Komissiyasının sədri (MSK) Məzahir Pənahov Milli Məclisə seçkilərin ilkin nəticələrinə dair "Seçkilər" İnformasiya Mərkəzində mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, Məzahir Pənahov 118 dairənin 4823 məntəqəsindən, yəni məntəqələrin 87 faizindən məlumatların Mərkəzi Seçki Komissiyasına daxil olduğunu bildirib.

Sonra MSK sədri seçkilərin ilkin nəticələrinə görə liderlik edən namizədlərin siyahısını diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikasında 1 saylı Şərur-Sədərək seçki dairəsi - **Talıbov Vasif Yusif oğlu** - 27 min 712 səs (94,6 faiz).

2 saylı Şərur seçki dairəsi - **Həbibbəyli İsa Əkbər oğlu** - 26 min 583 səs (86,3 faiz).

3 saylı Babək-Kəngərli-Naxçıvan seçki dairəsi - **Möhbalıyev Səttar Suliddin oğlu** - 24 min 887 səs (83,2 faiz).

4 saylı Naxçıvan şəhər seçki dairəsi - **İbrahimov Eldar Rza oğlu** - 27 min 158 səs (84,9 faiz).

5 saylı Şahbuz-Babək seçki dairəsi - **Novruzov Siyavuş Dünyamalı oğlu** - 16 min 785 səs (81,1 faiz).

6 saylı Culfa-Babək seçki dairəsi - **Həmzəyeva Ülviyyə Tapdıq qızı** - 16 min 569 səs (69,5 faiz).

7 saylı Ordubad-Culfa seçki dairəsi - **Quliyev Cəbi Hüseyn oğlu** - 14 min 255 səs (63,5 faiz).

Bakı şəhəri üzrə 8 saylı Binəqədi birinci seçki dairəsi - **Quliyev Azay Əjdər oğlu** - 5 min 961 səs (45,6 faiz).

9 saylı Binəqədi ikinci seçki dairəsi - **Qafarov Kəmaləddin Nəsrəddin oğlu** - 11 min 145 səs (60,3 faiz).

10 saylı Binəqədi üçüncü seçki dairəsi - **Musayev Madər Əliəsgər oğlu** - 11 min 142 səs (64,6 faiz).

11 saylı Qaradağ seçki dairəsi - **Hüseynov Aydın Nəsir oğlu** - 9 min 563 səs (59,2 faiz).

12 saylı Qaradağ-Binəqədi-Yasamal seçki dairəsi - **Xasayeva Səbinə Səməd qızı** - 6 min 680 səs (48,5 faiz).

13 saylı Xəzər-Pirallahı seçki dairəsi - **Əliyev Rauf Asif oğlu** - 11 min 609 səs (47,5 faiz).

14 saylı Xəzər seçki dairəsi - **Məmmədov Soltan Teymur oğlu** - 13 min 122 səs (47,2 faiz).

15 saylı Yasamal birinci seçki dairəsi - **Quliyev Ülvi Zahid oğlu** - 1924 səs (42 faiz).

16 saylı Yasamal ikinci seçki dairəsi - **Qədirli Erkin Toğrul oğlu** - 2 min 507 səs (34,4 faiz).

18 saylı Nərimanov-Nizami seçki dairəsi - **Musabəyov Rasim Nəsrəddin oğlu** - 8 min 106 səs (38,8 faiz).

19 saylı Nərimanov birinci seçki dairəsi - **Məmmədov Hikmət Baba oğlu** - 7 min 384 səs (43,9 faiz).

20 saylı Nərimanov ikinci seçki dairəsi - **Əliyev Adil Abış oğlu** - 12 min 621 səs (60 faiz).

21 saylı Nəsimi birinci seçki dairəsi - **İbrahimqızı Məlahət İbrahim** - 3 min 919 səs (55,6 faiz).

22 saylı Nəsimi ikinci seçki dairəsi - **Mollazadə Asim Nazim oğlu** - 5 min 419 səs (47,3 faiz).

23 saylı Nəsimi-Səbail seçki dairəsi - **Səmədzadə Ziyad Əliabbas oğlu** - 3 min 979 səs (45,8 faiz).

24 saylı Nizami birinci seçki dairəsi - **Nurullayeva Könül Oruc qızı** - 8 min 984 səs (46,1 faiz).

25 saylı Nizami ikinci seçki dairəsi - **Vəliyeva Sədaqət Süleyman qızı** - 10 min 104 səs (57,1 faiz).

26 saylı Sabunçu birinci seçki dairəsi - **Mustafa Fazil Qəzənfər oğlu** - 10 min 212 səs (47,6 faiz).

27 saylı Sabunçu ikinci seçki dairəsi - **Salahzadə Əliabbas Qalib oğlu** - 12 min 842 səs (57,6 faiz).

28 saylı Sabunçu üçüncü seçki dairəsi - **Quliyev Eldar Allahyar oğlu** - 9 min 858 səs (49,2 faiz).

29 saylı Səbail seçki dairəsi - **Arpadarai Nigar Cavid qızı** - 5 min 214 səs (42,3 faiz).

30 saylı Suraxanı birinci seçki dairəsi - **Fətəliyeva Sevinc Həbib qızı** - 8 min 85 səs (62,2 faiz).

31 saylı Suraxanı ikinci seçki dairəsi - **Əliyev Etibar Qasım oğlu** - 5 min 327 səs (41,4 faiz).

32 saylı Suraxanı üçüncü seçki dairəsi - **Həsənova Afət Əbil qızı** - 9 min 263 səs (64,9 faiz).

33 saylı Xətai birinci seçki dairəsi - **Mirələmov Hüseynbala Fazil oğlu** - 3 min 876 səs (47,1 faiz).

34 saylı Xətai ikinci seçki dairəsi - **Zabelin Mixail Yuryeviç** - 6 min 340 səs (35,1 faiz).

36 saylı Xətai dördüncü seçki dairəsi - **Həsənquliyev Qüdrət Müzəffər oğlu** - 10 min 471 səs (45,4 faiz).

Gəncə şəhərinin 37 saylı Nizami birinci seçki dairəsi - **Kərimzadə Pərvin Orxan qızı** - 6 min 795 səs (42,1 faiz).

38 saylı Nizami ikinci seçki dairəsi - **Həmzəyev Naqif Ələşrəf oğlu** - 6 min 901 səs (44,9 faiz).

39 saylı Kəpəz birinci seçki dairəsi - **Cəfərov Müşfiq Cəfər oğlu** - 9 min 16 səs (45,8 faiz).

40 saylı Kəpəz ikinci seçki dairəsi - **Quliyev Musa İsa oğlu** - 7 min 52 səs (40 faiz).

41 saylı Sumqayıt birinci seçki dairəsi - **Hüseynova Hicran Kamran qızı** - 1078 səs (31,5 faiz).

43 saylı Sumqayıt üçüncü seçki dairəsi - **Hacıyev Emin Məcid oğlu** - 3 min 601 səs (63,4 faiz).

45 saylı Abşeron seçki dairəsi - **Əsədov Oqtay Sabir oğlu** - 12 min 523 səs (67,7 faiz).

46 saylı Şirvan seçki dairəsi - **Yusifov İltizam Balayusif oğlu** - 11 min 666 səs (49,5 faiz).

47 saylı Mingəçevir seçki dairəsi - **Mirzəzadə Aydın Böyükkişi oğlu** - 1169 səs (26,8 faiz).

48 saylı Yevlax seçki dairəsi - **Məmmədov İlham Kazım oğlu** - 10 min 323 səs (51,3 faiz).

49 saylı Yevlax-Mingəçevir seçki dairəsi - **Hüseynli Əli Məhəmməd oğlu** - 11 min 819 səs (59,6 faiz).

50 saylı Abşeron-Qobustan seçki dairəsi - **Seyidzadə Şahin Kamil oğlu** - 10 min 212 səs (44,6 faiz).

51 saylı Qusar seçki dairəsi - **Badamov Azər Camal oğlu** - 5 min 342 səs (56,6 faiz).

52 saylı Quba seçki dairəsi - **Əhmədov Vahid Qazıməmməd oğlu** - 10 min 784 səs (50,6 faiz).

53 saylı Quba-Qusar seçki dairəsi - **Rafailov Anatoliy Xaimoviç** - 7 min 452 səs (44,1 faiz).

54 saylı Şabran-Siyəzən seçki dairəsi - **Qurbanov Sadiq Haqverdi oğlu** - 11 min 2 səs (55,3 faiz)

55 saylı Xaçmaz şəhər seçki dairəsi - **Səlimov Eldəniz Adil oğlu** - 14 min 224 səs (57,9 faiz).

56 saylı Xaçmaz kənd seçki dairəsi - **Mikayılova Sevil Əlirazı qızı** - 11 min 123 səs (43,8 faiz).

57 saylı Kürdəmir seçki dairəsi - **Ağazadə Əminə Həmid qızı** - 10 min 470 səs (64,9 faiz).

58 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi - **Hüseynov Rafael Baba oğlu** - 13 min 444 səs (51 faiz).

59 saylı Salyan seçki dairəsi - **Əhmədova Jalə Fərhad qızı** - 13 min 962 səs (59,7 faiz).

60 saylı Salyan-Neftçala seçki dairəsi - **Ağamalı Fəzail Rəhim oğlu** - 11 min 363 səs (49,2 faiz).

61 saylı Neftçala seçki dairəsi - **Rüstəmxanlı Sabir Xudu oğlu** - 2 min 824 səs (21,4 faiz).

62 saylı Saatlı seçki dairəsi - **Ələkbərov Əziz Yusif oğlu** - 11 min 428 səs (49 faiz).

63 saylı Sabirabad birinci seçki dairəsi - **Cəfərov Kamal Xəqani oğlu** - 11 min 872 səs (52,8 faiz).

64 saylı Sabirabad ikinci seçki dairəsi - **Məmmədov Ramin Ələmşah oğlu** - 12 min 688 səs (54,6 faiz).

65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsi - **Əmiraslanov Əhliman Tapdıq oğlu** - 15 min 244 səs (63,2 faiz).

66 saylı Biləsuvar seçki dairəsi - **Məhərrəmov Bəhruz Əbdürrəhman oğlu** - 14 min 274 səs (52,9 faiz).

67 saylı Cəlilabad şəhər seçki dairəsi - **Həsənov Malik Əvəz oğlu** - 14 min 310 səs (65,2 faiz).

68 saylı Cəlilabad kənd seçki dairəsi - **Nəsirov Elman Xudam oğlu** - 11 min 319 səs (53,7 faiz).

69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsi - **İbrahimli Fəzail Fehruz oğlu** - 9 min 549 səs (51 faiz).

70 saylı Masallı şəhər seçki dairəsi - **Məmmədov Məşhur Şahbaz oğlu** - 13 min 637 səs (64,8 faiz).

71 saylı Masallı kənd seçki dairəsi - **İsgəndərov Anar Camal oğlu-** 11 min 682 səs (62,7 faiz).

72 saylı Yardımlı-Masallı seçki dairəsi - **Qasımlı Musa Cəfər oğlu** - 12 min 257 səs (53,9 faiz).

73 saylı Lənkəran şəhər seçki dairəsi - **Quliyev Rüfət Atakişi oğlu** - 9 min 375 səs (52,9 faiz).

74 saylı Lənkəran kənd seçki dairəsi - **Rəcəbli Hadi Musa oğlu** - 9 min 594 səs (53,1 faiz).

75 saylı Lənkəran-Masallı seçki dairəsi - **Paşazadə Cavanşir Hümmət oğlu** - 13 min 541 səs (61,1 faiz).

76 saylı Lənkəran-Astara seçki dairəsi - **Əsgərov Ziyafət Abbas oğlu** - 13 min 716 səs (66,1 faiz).

78 saylı Lerik seçki dairəsi - **Məmmədov İqbal Nəriman oğlu** - 6 min 592 səs (50,5 faiz).

79 saylı İmişli seçki dairəsi - **Fərzəliyev Murad Qoçu oğlu** - 2 min 411 səs (23,7 faiz).

80 saylı İmişli-Beyləqan seçki dairəsi - **Qənizadə Çingiz Aşralı oğlu** - 9 min 29 səs (44,5 faiz).

81 saylı Beyləqan seçki dairəsi - **İsmayılov Şahin Əmir oğlu** - 13 min 200 səs (62,7 faiz).

82 saylı Ağcabədi seçki dairəsi - **Rzayev Tahir Musa oğlu** - 16 min 227 səs (61,5 faiz).

83 saylı Ağcabədi-Füzuli seçki dairəsi **- Abbasov Aqil Məhəmməd oğlu** - 14 min 528 səs (61,7 faiz).

84 saylı Füzuli seçki dairəsi - **Bayramov Vüqar İbad oğlu** - 14 min 27 səs (71,2 faiz).

85 saylı Şamaxı seçki dairəsi - **Cəfərova Tamam Şaməmməd qızı** - 11 min 284 səs (48,9 faiz).

86 saylı İsmayıllı seçki dairəsi - **Aslanov Novruzəli Davud oğlu** - 10 min 310 səs (53,7 faiz).

87 saylı Ağsu-İsmayıllı seçki dairəsi - **Kərimli Tahir Zayıdağa oğlu** - 11 min 347 səs (52,4 faiz).

88 saylı Göyçay seçki dairəsi - **Hacıyev Sabir Kamal oğlu** - 12 min 153 səs (52,5 faiz).

89 saylı Göyçay-Ağdaş seçki dairəsi - **Əfəndiyev Məzahir Cavid oğlu** - 13 min 685 səs (63,9 faiz)

90 saylı Ağdaş seçki dairəsi - **Osmanov Cavid Həmid oğlu** - 14 min 538 səs (68,4 faiz).

91 saylı Ucar seçki dairəsi - **Həsən Ramil Sahib oğlu** - 9 min 643 səs (51,7 faiz).

92 saylı Zərdab-Ucar seçki dairəsi - **Əliyeva Jalə Fazil qızı** - 11 min 609 səs (51,9 faiz).

93 saylı Bərdə şəhər seçki dairəsi - **Yıldırım Fatma Vidadi qızı** - 10 min 309 səs (56,7 faiz).

94 saylı Bərdə kənd seçki dairəsi - **Oruc Zahid Məhərrəm oğlu** - 14 min 746 səs (69,6 faiz).

95 saylı Tərtər seçki dairəsi - **Alıyev Sahib Eyvaz oğlu** - 8 min 684 səs (40,3 faiz).

96 saylı Goranboy-Naftalan seçki dairəsi - **Məmmədov Anar İlyaz oğlu** - 13 min 146 səs (59 faiz).

97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsi - **Vəliyev Ağalar İsrafil oğlu** - 15 min 465 səs (68,1 faiz).

98 saylı Şəmkir şəhər seçki dairəsi - **Qafarova Sahibə Əli qızı** - 9 min 642 səs (52,1 faiz).

99 saylı Şəmkir kənd seçki dairəsi - **Həsənov Nurlan Urfan oğlu** - 13 min 688 səs (61,3 faiz).

100 saylı Şəmkir-Daşkəsən seçki dairəsi - **Bayramov Kamran Fərhad oğlu** - 13 min 906 səs (66,6 faiz).

101 saylı Göygöl-Daşkəsən seçki dairəsi - **Elşad Mirbəşir** - 6 min 733 səs (54,9 faiz).

102 saylı Samux-Şəmkir seçki dairəsi - **Səfərov Nizami Abdulla oğlu** - 15 min 854 səs (64 faiz).

103 saylı Gədəbəy seçki dairəsi - **Hüseynova Sevinc Əmirəhməd qızı** - 14 min 201 səs (61,4 faiz).

104 saylı Gədəbəy-Tovuz seçki dairəsi - **Nağıyev Arzu Nəsib oğlu** - 14 min 176 səs (56,2 faiz).

105 saylı Tovuz seçki dairəsi - **Paşayeva Qənirə Ələsgər qızı** - 6 min 751 səs (69,9 faiz).

106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi - **Ağayeva Ülviyyə Cavanşir qızı** - 5 min 360 səs (59 faiz).

107 saylı Qazax seçki dairəsi - **Seyidov Səməd İsmayıl oğlu** - 16 min 689 səs (76,1 faiz).

108 saylı Ağstafa seçki dairəsi - **Cəfərov Nizami Qulu oğlu** - 10 min 511 səs (53,4 faiz).

109 saylı Balakən seçki dairəsi - **Məhəməliyev Nəsib Məhəmməd oğlu** - 15 min 917 səs (65,3 faiz).

110 saylı Zaqatala seçki dairəsi - **Musayev Elşən Məmmədhənifə oğlu** - 8 min 528 səs (48,8 faiz).

111 saylı Zaqatala-Balakən seçki dairəsi - **Əliyeva Kamilə Əliağa qızı** - 7 min 982 səs (53,9 faiz).

112 saylı Qax seçki dairəsi - **Kərimli Azər Şəmşid oğlu** - 9 min 918 səs (52,7 faiz).

113 saylı Şəki şəhər seçki dairəsi - **İskəndərov Vüqar Yapon oğlu** - 10 min 76 səs (52,9 faiz).

114 saylı Şəki kənd birinci seçki dairəsi - **Məsimli Əli Əhməd oğlu** - 9 min 418 səs (67,6 faiz).

115 saylı Şəki kənd ikinci seçki dairəsi - **Feyziyev Cavanşir Əyyub oğlu** - 12 min 674 səs (67,6 faiz).

116 saylı Qəbələ seçki dairəsi - **Heydərov Fəttah Səməd oğlu** - 18 min 697 səs (75,5 faiz).

117 saylı Oğuz-Qəbələ seçki dairəsi - **Naxçıvanlı Aqiyə Həbib qızı** - 16 min 573 səs (65,5 faiz).

118 saylı Ağdam şəhər seçki dairəsi - **Əliyev Bəxtiyar Həmzə oğlu** - 7 min 984 səs (62,7 faiz)

119 saylı Ağdam kənd seçki dairəsi - **Sadıqov Bəxtiyar Yusif oğlu** - 14 min 641 səs (61,1 faiz).

120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsi - **Məmmədov Ceyhun Valeh oğlu** - 3 min 314 səs (62,7 faiz).

121 saylı Laçın seçki dairəsi - **Abbaszadə Mahir Tapdıq oğlu** - 10 min 885 səs (63,3 faiz)

122 saylı Xankəndi seçki dairəsi - **Gəncəliyev Tural Babaşah oğlu** - 1596 səs (56,7 faiz).

124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairəsi - **Məmmədov Elman Camal oğlu** - 6 min 384 səs (58,3 faiz).

Bu rəqəmlər 118 seçki dairəsinin 4823 məntəqəsindən daxil olub və məntəqələrin 87 faizini əhatə edir. Yaxın zamanda qalan 7 dairənin də nəticələri daxil olacaq. Sadaladığım dairələrin məntəqələrindən də kifayət qədər məlumat hələ daxil olmayıb. Hesab edirəm ki, yaxın saatlarda 125 dairənin 5573 məntəqəsindən daxil olan nəticələr əsasında lider namizədlərin adlarını ictimaiyyətə çatdıra biləcəyik.

Seçki dairələri ilə bağlı bizə ciddi məlumatlar daxil olub. 33 saylı Xətai birinci, 35 saylı Xətai üçüncü, 60 saylı Salyan-Neftçala, 74 saylı Lənkəran kənd, 79 saylı İmişli, 80 saylı İmişli-Beyləqan, 81 saylı Beyləqan seçki dairələrindən daxil olan ciddi iradlar ətraflı araşdırılacaq. Bütün müraciətlər gecikdirilmədən diqqətlə araşdırılacaq, müzakirə olunacaq və müvafiq qərarlar qəbul ediləcək.

# BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR AZƏRBAYCANIN SEÇKİ TƏCRÜBƏSİNİ YÜKSƏK DƏYƏRLƏNDİRDİLƏR

## ABŞ-ın "Artur J.Finkelstein and Associates" təşkilatı Milli Məclisə seçkilərlə əlaqədar keçirdiyi "exit-poll"un nəticələrini açıqlayıb




ABŞ-ın "Artur J.Finkelstein and Associates" təşkilatı fevralın 9-da Milli Məclisə seçkilərlə əlaqədar keçirdiyi "exit-poll"un nəticələrini açıqlayıb.

AZƏRTAC xəbər verir ki, "exit-poll"da 118 dairə üzrə seçicilərin rəyi öyrənilib.

"Exit-poll"un nəticələri ilə bağlı keçirilən mətbuat konfransında bildirilib ki, seçkilər seçicilərin fəallığı şəraitində baş tutub. Rəyi soruşulan seçicilər istədikləri namizədə sərbəst şəkildə səs verdiklərini bildiriblər.

"Exit-poll"un yekunları ilə bağlı nəticələr qəzetimizin saytında yerləşdirilib.

## *Braziliyalı müşahidəçilər:* "Şəffaf və demokratik seçkilərə görə Azərbaycan xalqını təbrik edirik"

"Azərbaycana səfərimiz müddətində namizədlərlə tanış olduq, seçicilərlə görüşdük. Seçkilər tam demokratik şəraitdə keçdi. Məntəqələrdə hər hansı qanun pozuntusu ilə rastlaşmadıq".



AZƏRTAC xəbər verir ki, bu fikirləri Braziliya nümayəndə heyəti üzvləri Azərbaycanda keçirilən parlament seçkilərindəki müşahidələrindən sonra təşkil olunan mətbuat konfransında söyləyiblər.

Nümayəndə heyətinin üzvləri - Senatda və Konqresdə Azərbaycan-Braziliya dostluq qruplarının rəhbərləri Antonio Anastasia və Klaudio Kajado ölkəmizdəki seçki prosesindən məmnunluqlarını bildiriblər.

Bakının Binəqədi və Qaradağ rayonlarındakı məntəqələrdə səsvermənin gedişini izlədiklərini bildirən braziliyalı müşahidəçilər şəffaf və demokratik seçkilərin keçirilməsinə görə Azərbaycan xalqını təbrik ediblər.

## *Almaniyadan olan müşahidəçi:* "Seçki prosesində heç bir qanun pozuntusu müşahidə etmədik"

"Əminliklə deyə bilərəm ki, Azərbaycanda parlament seçkiləri şəffaf və demokratik şəraitdə keçirildi".




AZƏRTAC xəbər verir ki, bunu parlament seçkilərinin nəticələri ilə əlaqədar keçirilən mətbuat konfransında Almaniyadan olan beynəlxalq müşahidəçi, Almaniya Xarici İşlər Nazirliyinin keçmiş dövlət katibi Volf-Ruthart Born söyləyib.

Azərbaycanda keçirilən seçkilərdə artıq ikinci dəfədir müşahidəçi kimi iştirak etdiyini bildirən Volf-Ruthart Born deyib: "Seçki prosesini Bakı və Sumqayıtdakı məntəqələrdə müşahidə etdik. Bu gün həm də Dağlıq Qarabağ bölgəsi üzrə bir seçki məntəqəsində olduq. Müşahidələrimə əsasən deyə bilərəm ki, hər şey çox gözəl təşkil olunub və seçki yüksək səviyyədə həyata keçirilib".

Bundestaqın keçmiş deputatı Steffen-Klaudio Lemme 8 məntəqədə müşahidə apardığını və seçkilərin demokratik şəraitdə keçirildiyini bildirib. "Seçki prosesində heç bir qanun pozuntusu müşahidə etmədik. Proses şəffaf və ədalətli keçirilib", - deyə o əlavə edib.

Müşahidəçi Urs Unkauf qeyd edib ki, çoxlu sayda gənc namizəd seçkilərdə mübarizə aparırdı. Bu, müsbət haldır. Seçkilərdə qadın namizədlərin iştirak etməsi də çox sevindiricidir. Yerli müşahidəçilərin seçki prosesini izləməsindən razı qaldım, səslərin düzgün qaydada və vaxtında hesablandığını müşahidə etdik.

## "Opinion Way" parlament seçkiləri ilə bağlı keçirdiyi "exit-poll"un nəticələrini elan edib



Fevralın 9-da Fransanın "Opinion Way" Sosioloji Araşdırmalar İnstitutunun "İnsan Hüquqları XXI əsr-Azərbaycan" Fondu ilə birgə parlament seçkilərində keçirdiyi "exit-poll"un nəticələri elan edilib.

"Exit-poll"un nəticələrinin elan olunması ilə bağlı keçirilən mətbuat konfransında qeyd edilib ki, sorğu 118 dairə üzrə məntəqələrdə aparılıb.

"Exit-poll"un yekunları ilə bağlı nəticələr qəzetimizin saytında yerləşdirilib.

## *İsrailli müşahidəçilər:* "Seçkilər şəffaf və demokratik şəraitdə keçdi"

İsrailli müşahidəçilər fevralın 9-da Azərbaycanda keçirilən parlament seçkilərinin nəticələrini müsbət qiymətləndiriblər.



AZƏRTAC xəbər verir ki, İsraildən olan beynəlxalq müşahidəçi Roman Gureviç seçkilərin şəffaf və demokratik şəraitdə keçdiyini bildirib.

Qeyd edib ki, bir neçə gün əvvəl Bakıya gəlib və buradakı inkişaf onu valeh edib.

Bakıda yerləşən 6 seçki məntəqəsində müşahidə apardıqlarını və daha çox gənclərin seçkilərə maraq göstərdiyini bildirən R.Qureviç deyib: "Gənclərin səsverməyə həvəsi çox müsbət haldır. Müşahidə apardığımız məntəqələrdə hər hansı qanun pozuntusu ilə rastlaşmadıq".

Seçkilərin nəticələri ilə bağlı fikirlərini bölüşən digər müşahidəçi Boris Qrosman qeyd edib ki, artıq Azərbaycanda keçirilən seçkilərdə beynəlxalq müşahidəçilərin iştirak etməsinə ehtiyac yoxdur. "Hesab edirəm ki, siz artıq özünüz başqa ölkələrdə müşahidəçi kimi iştirak edə bilərsiniz. Yaşlı nəslin nümayəndələrinin seçkilərə gələrək səs verməsi, sadəcə, valehedici idi. Belə soyuq, şaxtalı və küləkli havada seçicilərin fəal olacaqlarına ümidimiz az idi. Lakin hər şey gözlədiklərimizin əksinə oldu".

O bildirib ki, İsrail Azərbaycanı daim dəstəkləyir və Azərbaycan da İsrail üçün həmişə qardaş, dost ölkə olaraq qalacaqdır.

Müşahidəçi Aleksey Tessarskiy Azərbaycanda insanların seçkilərdə həvəslə iştirak etdiklərini qeyd edib. Deyib ki, çünki burada insanlar öz tarixlərinə biganə deyillər.

## *Belarus parlamentinin müşahidə missiyası:* "Seçkilərə yüksək səviyyədə hazırlığın şahidi olduq"

Belarus parlamentinin müşahidə missiyası fevralın 9-da Milli Məclisə seçkilərlə əlaqədar mətbuat konfransı keçirib.



AZƏRTAC xəbər verir ki, missiyanın rəhbəri Sergey Raçkov müşahidə apardıqları seçki məntəqələrində fəallığın olduğunu bildirib. O deyib ki, təşkilatlanma yaxşı səviyyədə idi. Hazırlıq səviyyəsi də yaxşı idi. Namizədlərin hər biri üçün yaxşı şərait yaradılmışdı. Bu da şəffaflığın və ədalətli seçkinin olduğunu göstərirdi.

Sergey Raçkov vurğulayıb ki, seçicilər azad şəkildə öz seçimlərini edirdilər. Onlar məntəqələrdə heç bir təsirə məruz qalmırdılar. Əksər məntəqələrdə "exit-poll" təşkil olunmuşdu.

Belarus parlamentinin üzvü Aleksandr Markeyviç isə deyib ki, Bakının müxtəlif rayonlarındakı seçki məntəqələrində müşahidələr aparıblar. "Müşahidələr zamanı yüksək səviyyədə hazırlığın şahidi olduq. Qanun pozuntuları yox idi. İnanırıq ki, yeni parlamentlə də əməkdaşlığımızı davam etdirəcəyik", - deyə o əlavə edib.

## *Rusiyalı müşahidəçilər:* "Seçki məntəqələrində çoxlu sayda seçici və müşahidəçi var idi"



"Azərbaycanda parlament seçkilərinin yaxşı təşkilini və çoxlu sayda müşahidəçi olmasını qeyd etmək istəyirəm. Bu gün biz bir neçə seçki məntəqəsində olduq, ələlxüsus məktəblərin birində yerləşən məntəqədə yaxşı təşkilatçılıq və çoxlu sayda müşahidəçi gördük. Mən hətta Rusiyadakı seçki məntəqələrində bu cür hallara nadir rast gəlmişəm. Burada müxtəlif partiyalardan müşahidəçilər var idi, hətta vətəndaşlar özləri gəlib qeydiyyatdan keçirdilər".

AZƏRTAC xəbər verir ki, bunu mətbuat konfransında Rusiya Federasiyası Dövlət Dumasının deputatı Aleksey Juravlyov bəyan edib.

Dövlət Dumasının deputatı Maksim İvanov isə vurğulayıb ki, Azərbaycanda seçkilər demokratik və şəffaf keçir. O deyib: "Bu gün biz bir neçə məntəqədə olduq və gördüklərimizə əsasən deyə bilərəm ki, yetərincə şəffaf seçki prosesi təşkil edilib, insanlar seçki məntəqələrinə gəlirlər, seçici fəallığı yüksəkdir. Düşünürəm ki, hər hansı saxtalaşdırmanın olacağına dair şübhələrə heç bir səbəb yoxdur".

Dövlət Dumasının daha bir deputatı Boris Çernışov öz həmkarlarının fikirləri ilə həmrəy olduğunu qeyd edib. O əlavə edib: "Möhtəşəm seçkidir, görünür ki, sərbəst səsvermə üçün hər cür şərait yaradılıb. Biz çoxlu sayda yerli müşahidəçi gördük, həmçinin xarici ölkələrdən gəlmiş müşahidəçilər üçün heç bir maneənin olmadığı imkanlar yaradılıb".

## *Georgi ŞARABİDZE:* "Azərbaycan MSK seçkilərin şəffaf keçirilməsi üçün bütün lazımi tədbirləri görmüşdü"

"Azərbaycanda parlament seçkiləri uğurla keçirilib".




AZƏRTAC xəbər verir ki, bunu seçkilərin nəticələri ilə bağlı keçirdiyi mətbuat konfransında Gürcüstan Mərkəzi Seçki Komissiyası (MSK) sədrinin müavini Georgi Şarabidze deyib.

Bu gün bir sıra seçki məntəqələrində müşahidə apardığını diqqətə çatdıran G.Şarabidze bildirib: "Azərbaycan Mərkəzi Seçki Komissiyası seçkilərin şəffaf keçirilməsi üçün bütün lazımi tədbirləri görmüşdü. Səsvermə prosesində bütün qaydalara əməl olunurdu. Azərbaycanlı həmkarlarımı təbrik edirəm".

Seçki məntəqələrində seçicilərin səs verməsi üçün lazımi şəraitin yaradıldığını vurğulayan Gürcüstanın MSK sədrinin müavini deyib: "Baxmayaraq ki, seçkilərə hazırlıq müddəti qısa idi, Azərbaycan MSK bütün tədbirləri seçki qanunvericiliyinə uyğun həyata keçirmişdi. Həmçinin beynəlxalq müşahidəçilər üçün lazımi şərait yaradılmışdı. Seçkiləri müşahidə zamanı hər hansı maneə ilə rastlaşmadıq".

## *Fransalı senator:* "Müşahidə apardığımız məntəqələrdə qaydalara ciddi riayət olunurdu"



"Fevralın 9-da parlament seçkilərini izləmək üçün 20 seçki məntəqəsində müşahidə apardım. Həmçinin bir məntəqədə səslərin sayılması prosesini izlədim. Burada seçkilərin necə keçirilməsi və səslərin sayılması barədə çox dəqiq məlumat əldə edə bildim, bir sıra yeniliklərlə də tanış oldum. Ən maraqlı cəhət seçki zamanı səs verən şəxslərin barmaqlarına rəngsiz mürəkkəbin vurulmasıdır ki, bu da bir seçicinin təkrar səs verməsinin qarşısını alır. Bu, digər ölkələrin praktikasında mövcud deyil".

AZƏRTAC xəbər verir ki, bu sözləri Fransa Senatının Xarici əlaqələr və müdafiə komitəsinin vitse-prezidenti Joel Qerio Bakıda keçirdiyi mətbuat konfransında deyib.

"Müşahidə apardığımız məntəqələrdə qaydalara ciddi riayət olunurdu. Bir məntəqədən digərinə getməkdə çətinlik çəkmədik. Ümumilikdə proses müsbət məcrada keçirdi. Təşkilatçılara minnətdarlığımı bildirirəm", - deyə Joel Qerio bildirib.

Fransanın Bol şəhərinin meri İv Metero isə 8 seçki məntəqəsində müşahidə apardığını qeyd edib. O deyib: "Mən hüquqşünasam. Burada Seçki Məcəlləsini nəzərdən keçirmək imkanım oldu. Seçki Məcəlləsi asan anlaşıla bilən formada hazırlanıb. Bütün namizədlər ondan asanlıqla istifadə edə bilərlər. Seçkilər normal şəraitdə keçdi".

## *Pakistanlı müşahidəçilər:* "Azərbaycanda parlament seçkiləri yüksək səviyyədə təşkil edilib"

"Azərbaycanda parlament seçkiləri yüksək səviyyədə təşkil edilib. Müşahidələrimiz göstərdi ki, seçkilər azad, demokratik və şəffaf keçib".



AZƏRTAC xəbər verir ki, bu fikirləri Pakistanın İslamabad Qlobal və Strateji Araşdırmalar Mərkəzinin baş direktoru Xalid Teymur Əkrəm Bakıda keçirdiyi mətbuat konfransında bildirib.

O deyib: "Hər hansı qanun pozuntusuna rast gəlmədik. Bu seçkilər Azərbaycanın uğurlu gələcəyi üçün atılan addımdır. Yeni formalaşmış parlamentin Azərbaycanın inkişafı üçün daha yaxşı işlər görəcəyinə əminik".

Pakistan parlamentinin sabiq vitse-spikeri Murtuza Cavid Abbasi isə deyib ki, onlar seçki ərəfəsində vəziyyəti müşahidə ediblər, Gəncədə və Naxçıvanda olublar. Bu gün səhər isə Bakıdakı bir sıra məntəqələrə baş çəkiblər.

Mərkəzi Asiya və Azərbaycan üzrə ekspert Mahmud Əsilxan da müşahidə zamanı hər hansı pozuntuya rast gəlmədiklərini bildirib. "Yeni formalaşacaq parlamentin Azərbaycanda siyasi sistemin müasirləşməsində və demokratikləşməsində vacib rol oynayacağına əminik", - deyə o əlavə edib.

## *Vyetnamlı müşahidəçi:* "Biz Azərbaycanın seçki təcrübəsini öyrənməliyik"

"Biz Azərbaycanın seçki keçirmək təcrübəsini öyrənməliyik. Burada olduğumuz dörd gün müddətində Azərbaycanda tam şəffaf seçki prosesinin şahidi olduq".



AZƏRTAC xəbər verir ki, bu fikirləri fevralın 9-da Azərbaycanda keçirilən parlament seçkilərini izləyən vyetnamlı müşahidəçilərdən ibarət nümayəndə heyətinin sədri, Vyetnam-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Nghiem Vu Khai bildirib.

O, Qəbələ, Şəki və Bakıda seçkiqabağı prosesi izlədiklərini, müşahidə apardıqları 5 seçki məntəqəsində namizədlərlə bağlı bütün məlumatların yerləşdirildiyini, şəffaflığın təmin olunduğunu və bütün namizədlərə bərabər şəraitin yaradıldığını qeyd edib. Deyib ki, proses tam şəffaf şəkildə həyata keçirilib.

Səsvermə prosesində müasir texnologiyaların istifadə olunmasını yüksək qiymətləndirən müşahidəçi bildirib. "Eyni zamanda, biz seçki prosesində texnologiyaların tətbiqinin əyani şahidi olduq. Yəni, istənilən xarici ölkədən Azərbaycanda keçirilən seçkiləri sərbəst şəkildə izləmək mümkündür. İnsanların barmaqlarına mürəkkəbin vurulması da bizim üçün yenilik idi. Bu, şəffaflığın tam təmin edilməsinin göstəricisidir. Olduğumuz məntəqədə insanların sərbəst şəkildə səs vermələrinin şahidi olduq, hər hansı pozuntu müşahidə etmədik. Seçicilərlə söhbətimdə onlar daha çox gənc namizədləri dəstəklədiklərini bildirdilər. Bu, müsbət məqamdır. İnanıram ki, yeni seçilən parlament daha güclü olacaq".

## *Mitç SİLBERMAN:* "Müşahidələrimiz zamanı seçki məntəqələrində heç bir insident qeydə alınmadı"

"Bu gün bir neçə məntəqədə səsvermə prosesini müşahidə etdik. Məntəqələrdə seçkilərin qaydalara uyğun keçirildiyinin şahidi olduq. Müşahidələrim zamanı heç bir insident qeydə alınmadı".



AZƏRTAC xəbər verir ki, bu sözləri ABŞ-dan olan müşahidə missiyasının üzvü, Yəhudi Respublikaçılar Alyansının təsisçisi Mitç Silberman Bakıda keçirilən mətbuat konfransında deyib.

Müşahidə missiyasının digər üzvü, San-Dieqo Universitetinin professoru Martin Kruminq isə bildirib ki, onlar bu gün Azərbaycanda azad seçkilər və demokratiya uğrunda mübarizəyə şahidlik ediblər. Bu, digər ölkələrə nümunə göstərilə bilər.

Daha bir amerikalı müşahidəçi, Buxara yəhudilərinin ABŞ və Kanada üzrə koordinatoru Rafael Nektal da müşahidələr zamanı heç bir qayda pozuntusunun aşkarlanmadığını bildirib. O, Qubadakı məntəqələrdə müşahidələr apardığını, havanın çox soyuq olmasına baxmayaraq, insanların səsverməyə gəldiklərini qeyd edib. Rafael Nektal səsvermə zamanı görünməyən mürəkkəblərdən istifadənin onun xüsusi marağına səbəb olduğunu söyləyib.

# BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR SEÇKİLƏRİN GEDİŞİNDƏN RAZI QALDILAR

## *ATƏT PA-nın müşahidəçiləri:* "Milli Məclisə seçkilər yaxşı təşkil olunub"



"Milli Məclisə seçkilər yaxşı təşkil olunub, seçicilərin sərbəst səs verməsi üçün lazımi şərait yaradılıb".

AZƏRTAC xəbər verir ki, bu sözləri ATƏT Parlament Assambleyasının beynəlxalq müşahidəçiləri Qubada seçki prosesini izləyərkən deyiblər.

Beynəlxalq müşahidəçilər bir neçə seçki məntəqəsində olublar. ATƏT Parlament Assambleyasının Macarıstandan olan müşahidəçisi Aleksandra Dobolin bildirib ki, hər şey yaxşı təşkil olunub: "Bu, bizim müşahidə apardığımız birinci seçki məntəqəsidir. Hələ azı 10 məntəqədə də müşahidə aparacağıq". ATƏT Parlament Assambleyasının nümayəndəsi Valeri Şaqiyev bu vaxta qədər heç bir qayda pozuntusuna rast gəlmədiklərini deyib: "Seçici aktivliyi bir az aşağıdır və amma günün birinci yarısıdır. Düşünürəm ki, nahara kimi seçki aktivliyi artacaq".

## *Mixail FİNKEL:* "Azərbaycanın seçki sistemi İsraildəkindən daha mütərəqqi və etibarlıdır"



"Azərbaycanda parlament seçkiləri məndə xoş təəssürat oyatdı. Bu seçkilər bütün beynəlxalq standartlara uyğundur. Seçkilər demokratik, çoxpartiyalı sistem transparantdır. Təkrar səsvermələrin qarşısını almaq üçün seçicilərin barmaq izlərinin götürülməsi məni əməlli-başlı təəccübləndirdi. Deyə bilərəm ki, sizdə səsvermə sistemi İsraildəkindən daha mütərəqqi və etibarlıdır".

Bu sözləri Azərbaycanda parlament seçkilərini müstəqil müşahidə edən tanınmış politoloq, hüquqşünas alim, beynəlxalq münasibətlər sahəsində ekspert Mixail Finkel AZƏRTAC-a müsahibəsində də söyləyib.

O deyib: "Sizdəki bülletenlər eynən İsraildə olduğu kimidir, səsvermə sistemi də eynən bu cürdür. İstirahət günü olmasına, soyuq və küləkli hava şəraitinə baxmayaraq vətəndaşların yüksək fəallıq nümayiş etdirməsi, müxtəlif yaşda insanların seçki məntəqələrinə axışması məndə böyük təəssürat oyatdı. Diqqətəlayiq məqamlardan biri də budur ki, gənclər səs verərkən ölkənin gələcəyinin qurulmasında da iştirak etdiklərini dərindən hiss edirlər".

## *ATƏT PA-nın müşahidə missiyasının üzvü:* "İndiyədək hər şey qaydalara uyğun şəkildə həyata keçirilib"



ATƏT PA-nın beynəlxalq müşahidə missiyasının polşalı üzvü Rozalt Darlus Kajetan jurnalistlərə açıqlamasında bildirib ki, Milli Məclisə seçkilərlə əlaqədar indiyədək hər şey qaydalara uyğun şəkildə həyata keçirilib.

AZƏRTAC xəbər verir ki, missiyanın üzvü səsvermə məntəqələrinin yaxşı təchiz edildiyini, məntəqə sədrlərinin və digər nümayəndələrin hamısının yerində olduğunu bildirib. "Hər hansı qanunauyğunsuzluq, insident qeydə almamışıq. İndiyədək üç səsvermə məntəqəsində olmuşuq və hər şey qaydasındadır", - deyə o bildirib.

## *Sergey POLYAKOV:* "Seçkilərin demokratik, azad və şəffaf keçirilməsi üçün hər cür şərait yaradılıb"



"Seçki ilə bağlı müşahidələr apardığımız bütün məntəqələrdə hər şey qaydasındadır. Əminliklə deyə bilərəm ki, Naxçıvanda seçkilər Seçki Məcəlləsinə uyğun təşkil olunub".

Bu sözləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində beynəlxalq müşahidəçi Sergey Polyakov bildirib.

Naxçıvanda seçkilərin müəyyən olunmuş saatda başladığını vurğulayan Sergey Polyakov deyib: "Rusiyadan gəlmiş beynəlxalq müşahidəçi kimi deyə bilərəm ki, müşahidə apardığım hər məntəqədə qayda pozuntusuna yol verilməyib. Hər şey qanunauyğun qaydada gedir. Seçicilər sərbəst şəkildə səs verirlər. Naxçıvanda seçkilərin demokratik, azad və şəffaf keçirilməsi üçün hər cür şərait mövcuddur. Arzu edirəm ki, seçicilər ən layiqli namizədi seçərlər".

## *Maale-Adumimin vitse-meri:* "Azərbaycanda parlament seçkiləri çox yüksək səviyyədə təşkil edilib"



"Azərbaycanda parlament seçkiləri çox yüksək səviyyədə keçirilir. Seçkilərin təşkili məni heyran etdi. İsraildən çox müşahidəçi gəlib. Burada gördüyümüz hər şey mükəmməldir. Məncə, hamı çox razı qalıb. Təkcə sizdə deyil, bütün dünyada da belə olmalıdır".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Maale-Adumim şəhərinin vitse-meri Boris Qrossman söyləyib.

Onun sözlərinə görə, parlament seçkiləri ilin əsas hadisəsidir və bu hadisə dövlətin və cəmiyyətin sonrakı inkişafına şəksiz təsir göstərəcək. B.Qrossman deyib: "Xarici müşahidəçilərin dəvət edilməsi göstərir ki, Azərbaycanda parlament seçkiləri açıq, azad və aşkar keçirilir. Səsvermə prosesi beynəlxalq normalara uyğundur. Məni təəccübləndirən məqamlardan biri də bu oldu ki, hava şəraitinin əlverişsiz olmasına baxmayaraq, seçki məntəqələrində vətəndaşların fəallığı yüksəkdir. Bayırda bir dərəcə şaxtadır, amma insanlar, xüsusən də gənclər seçki məntəqələrinə axışırlar. Bu, çox yaxşı haldır".

## *Rafael NEKTAL:* "Sevindirici haldır ki, soyuq hava şəraitinə baxmayaraq, seçicilər məntəqələrə gəlib səs verirlər"



"İlk dəfədir Azərbaycanda beynəlxalq müşahidəçi kimi seçkiləri izləyirəm. Mən Buxara Yəhudiləri Konqresini təmsil edirəm. Biz Bakıda məntəqələrdə olub, seçkiyə hazırlıq prosesi ilə maraqlanmışıq. Qeyd edim ki, olduğumuz məntəqələr seçkilərin qanunvericiliyə uyğun keçirilməsi üçün tam hazır vəziyyətdə idi. Bu gün isə Qubaya gəldik ki, tək paytaxtda yox, həm də bölgələrdə seçkinin təşkili ilə yerində tanış olaq".

AZƏRTAC xəbər verir ki, bu sözləri Qubada seçki prosesini izləyən beynəlxalq müşahidəçi, Buxara Yəhudiləri Konqresinin ABŞ-Kanada üzrə koordinatoru Rafael Nektal söyləyib.

O, Azərbaycanda güclü vətəndaş cəmiyyəti formalaşdığını qeyd edib: "Mənim, çox xoşuma gəldi ki, belə soyuq hava şəraitinə baxmayaraq, seçicilər məntəqələrə gəlib səs verirlər. Seçkiyə gələn sadə vətəndaşlarla söhbət etdim. Burada insanlar öz vətəndaşlıq məsuliyyətlərini anlayırlar. Bilirlər ki, ölkənin gələcəyi onların səsverməsindən asılıdır. Söhbət etdiyim vətəndaşlar Prezident İlham Əliyevə və onun yürütdüyü siyasətə çox inamla yanaşırlar. Azərbaycanda güclü vətəndaş cəmiyyəti formalaşıb".

## *Tatarıstanlı müşahidəçi:* "Seçicilərin iradələrini sərbəst ifadə etmələri üçün bütün imkanlar yaradılıb"



"Artıq bir neçə məntəqədə səsvermənin gedişini müşahidə etmişik. Məntəqələr müasir avadanlıqla təchiz edilib. Ən əsası budur ki, seçicilərin iradələrini sərbəst ifadə etmələri üçün bütün imkanlar yaradılıb. Bu, onu göstərir ki, deputat seçkilərinə ciddi hazırlıq görülüb".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Milli Məclisə keçirilən seçkiləri izləyən tatarıstanlı müşahidəçi Artiyon Elizarov söyləyib.

O deyib: "Azərbaycanda deputat seçkiləri yüksək əhval-ruhiyyədə keçir. Deyərdim ki, bu seçkilər ölkədə demokratiyanın dərinləşməsində növbəti mühüm addımdır. Müşahidə apardığım məntəqələrdə növbələrin şahidi oldum. İnsanlar məntəqələrə gələrək fəallıqla seçici hüququndan istifadə edirlər. Dairə və məntəqələrdə həm də çoxsaylı müşahidəçilər gördüm. Seçkilər azad, demokratik və şəffaf keçir".

## *Amerikalı müşahidəçi:* "Azərbaycanda seçicilər ruh yüksəkliyi nümayiş etdirirlər"



"Azərbaycanda keçirilən parlament seçkilərində seçicilər ruh yüksəkliyi nümayiş etdirirlər".

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə ABŞ-ın Los-Anceles şəhərindən olan müşahidəçi Mitç Silberman deyib. Müşahidəçi bildirib ki, Azərbaycanın modernləşdirilməsinə kömək edəcək yeni və enerjili parlament üzvlərinin seçilməsi prosesində böyük ruh yüksəkliyi müşahidə olunur: "Biz vətəndaşların öz ölkələrinin işıqlı gələcəyinə səs vermələrini müşahidə etməkdən məmnunuq".

## *Peter MARÇEK:* "Azərbaycanda parlament seçkiləri şəffaf şəraitdə keçirilir"



"Azərbaycanda parlament seçkiləri şəffaf şəraitdə keçirilir. İndiyədək heç bir qayda pozuntusu ilə rastlaşmamışam".

Bu sözləri AZƏRTAC-a 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 22 saylı seçki məntəqəsində səsvermənin gedişini izləyən slovakiyalı deputat Peter Marçek deyib.

Deputat bildirib ki, saat 13:00-dək 7 seçki məntəqəsində səsvermənin gedişini izləyib. Seçkilər demokratik şəraitdə keçirilib. Vətəndaşlar çox sakit, heç bir maneə olmadan istədikləri namizədlərə səs veriblər. Müşahidəçi heç bir narazı seçici ilə rastlaşmadığını vurğulayıb.

Peter Marçek artıq səkkizinci dəfədir Azərbaycanda olduğunu, ölkəmizin çox müasirləşdiyini, Prezidentin ciddi islahatlar apardığını deyib. O, parlament seçkilərinin Azərbaycan dövləti və vətəndaşları üçün uğurlu olacağına inamını ifadə edib.

## *Viktor QUMİNSKİ:* "Azərbaycanda MSK seçkilərin şəffaf, azad və demokratik formada keçməsi sahəsində böyük işlər görüb"

"Azərbaycanın Mərkəzi Seçki Komissiyası (MSK) seçkilərin şəffaf, azad və demokratik formada keçməsi sahəsində böyük işlər görüb".

AZƏRTAC xəbər verir ki, bu sözləri MDB müşahidəçilər missiyasının başçısı Viktor Quminski söyləyib.

O deyib: "Bizim uzunmüddətli missiyamız fəaliyyətə başlayıb. Missiyanın tərkibində 8 ölkədən bütövlükdə 252 müşahidəçi, habelə MDB Parlamentlərarası Assambleyasının, Belarus-Rusiya İttifaqı Parlament Məclisinin, MDB İcraiyyə Komitəsinin nümayəndələri təmsil olunub. Seçkilərdə xeyli sayda deputatlığa namizəd iştirak edir ki, bu da əvvəlki seçkilərlə müqayisədə qat-qat çoxdur. Parlament seçkiləri ilə bağlı namizədlərə hər cür şərait yaradılıb. Yerli və beynəlxalq müşahidəçilərlə yanaşı, yerli və xarici kütləvi informasiya vasitələrinin və digər aşkarlıq təsisatlarının azad fəaliyyəti üçün bütün imkanlar var. Biz regionlara səfər edərkən, bu gün məntəqənin açılışında və səsvermədə iştirak edərkən buna əmin olduq".

MDB müşahidəçilər missiyasının başçısı onu da əlavə edib ki, aşağı komissiyaların, sahə komissiyalarının üzvlərinin hazırlığı istiqamətində böyük işlər görülüb.

## *Sodik SAFOYEV:* "Milli Məclisə seçkilər şəffaf keçir"

"Fevralın 9-da Azərbaycan Respublikası parlamentinə seçkilər şəffaf və yüksək səviyyədə keçir, seçicilərin maneəsiz səs verməsi üçün seçki məntəqələrində hər cür şərait yaradılıb.

Səsvermənin gedişini izləmək üçün müşahidə qrupumuzun üzvləri bu gün ərzində seçki məntəqələrində olacaqlar. Hazırda yüksək səviyyədə seçici fəallığı müşahidə edilir ki, bu da Azərbaycan əhalisinin öz taleyini özü həll etdiyinə dəlalət edir. Milli Məclisə seçkilər ölkənin həyatında mühüm hadisədir, əminəm ki, onun nəticələri tezliklə öz bəhrəsini verəcək".

AZƏRTAC xəbər verir ki, bu fikri 29 saylı Səbail seçki dairəsi dairə seçki komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerləşən 2 saylı seçki məntəqəsində səsvermə prosesini müşahidə edən MDB müşahidə missiyasının üzvü, Özbəkistan Senatı Ali Məclisi sədrinin birinci müavini Sodik Safoyev jurnalistlərə müsahibəsində deyib.

## *İordaniyalı müşahidəçi:* "Məntəqələrdə seçicilər üçün hər şeyin yüksək səviyyədə təşkil edildiyinin şahidi oldum"



"Bu gün Azərbaycanda keçirilən seçkilər zamanı apardığım müşahidələr göstərir ki, hər şey normal vəziyyətdədir. Müxtəlif ölkələrdən müşahidəçilərin, jurnalistlərin prosesi izləməsi və işıqlandırması seçkilərin şəffaf keçməsinin əyani sübutudur".

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Milli Məclisə keçirilən seçkilərin gedişini izləyən iordaniyalı tarixçi Ömər Armuti bildirib.

Ömər Armuti deyib: "Səhər tezdən seçki məntəqələrində olduq. Məntəqələrdə seçicilər üçün hər şeyin yüksək səviyyədə təşkil edildiyinin şahidi oldum. Veb-kameraların quraşdırılması, siyasi partiyaların nümayəndələrinin prosesi izləməsi şəffaflığı daha da artırır. Seçkilər azad və sərbəst şəraitdə keçir. Parlament seçkilərinin belə uğurlu keçməsi bizi sevindirir. Bu seçkilər Azərbaycanın gələcək inkişafı baxımından önəm kəsb edir. Düşünürük ki, seçicilər layiqli namizədləri seçəcəklər və Azərbaycanın gələcəyi daha parlaq olacaq. Azərbaycan xalqına, dövlətinə, hökumətinə nailiyyətlər arzulayıram".

## *İsrailli ekspert:* "Azərbaycanda keçirilən parlament seçkiləri köklü islahatların məntiqi davamıdır"



"Biz saat 09:00-dan İsraildən olan nümayəndə heyəti ilə məntəqələri gəzirik. Nümayəndə heyətinin tərkibində dörd KİV nümayəndəsi və üç beynəlxalq müşahidəçi var. Onların hamısı səsvermənin gedişi barədə müsbət fikirdədir".

Bu sözləri seçkiləri müşahidə edən, beynəlxalq münasibətlər sahəsində tanınmış ekspert Arye Qut AZƏRTAC-a müsahibəsində deyib.

İsrailli politoloq qeyd edib ki, səsvermə prosesi şəffaf və demokratik şəraitdə keçdi. İnsanlar məntəqələrə gələrək sərbəst şəkildə seçim etdilər. Azərbaycanda keçirilən bu seçkilər demokratiyanın daha bir parlaq təzahürüdür.

"Havanın soyuq olmasına, güclü külək əsməsinə baxmayaraq, insanlar məntəqələrə gəlir, gələcəkdə Azərbaycan parlamentində görmək istədikləri namizədlərə səs verirlər.

Azərbaycan hazırda böyük dəyişikliklər yolundadır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə bütün sahələrdə islahatlar həyata keçirilir. Bu parlament seçkilərini də bu köklü islahatların məntiqi davamı kimi qiymətləndirmək olar. Azərbaycanda aparılan islahatlar gənclərin öz potensiallarını göstərə bilmələri üçün yaxşı imkan yaradıb və onların parlamentdə yeni ideyalarla iştirakına stimul verəcək", - deyə Arye Qut vurğulayıb.

## *İnqo BÜTTNER:* "Seçki məntəqələrində yaradılan şərait Seçki Məcəlləsinə uyğundur"



"Bəzi seçki məntəqələrində müşahidələr aparmışıq, yaradılan şərait Seçki Məcəlləsinə uyğundur. Seçkiqabağı, eləcə də seçki günü görülən işlər barədə məlumatları Bakıdakı missiya mərkəzinə ötürəcəyik və yekun nəticə orada müəyyənləşəcək".

Bu fikirləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində ATƏT-in uzunmüddətli müşahidəçisi İnqo Büttner deyib.

Bildirdi ki, bu il yanvarın 14-dən başlayaraq Naxçıvanda Mərkəzi Seçki Komissiyasının, medianın və digər təşkilatların nümayəndələri ilə görüşüb, seçkilərin ədalətli, şəffaf keçirilməsi üçün yaradılan şəraitlə yaxından tanış olub.

## *ATƏT müşahidəçisi:* "Seçkidə neqativ hal qeydə alınmayıb"





ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) nümayəndələri 81 saylı Beyləqan seçki dairəsinin 4 saylı seçki məntəqəsində seçkiləri müşahidə ediblər.

ATƏT DTİHB müşahidəçisi Halogh Nora Beyləqanda AZƏRTAC-a müsahibəsində seçki prosesində neqativ halın qeydə alınmadığını bildirib: "Hər şey yaxşıdır, neqativ hal qeydə alınmayıb. Hər şey qaydasındadır".

Qurumun digər müşahidəçisi Pavel Kuznatsov da seçicilərin aktivliyinin normal olduğunu deyib.

Qeyd edək ki, 81 saylı Beyləqan DSK-nın əhatə etdiyi 39 seçki məntəqəsində 37 min 137 seçicinin səs verməsi nəzərdə tutulur. Səsvermənin gedişini 541 müşahidəçi izləyir. Dairə üzrə 10 nəfər namizəd deputatlıq uğrunda mübarizə apardı.

## *İrina RODNENKO:* "Seçkilərin gedişinə fəal nəzarət edən müşahidəçilərin sayı bizi heyrətləndirir"



"Biz İsmayıllıda artıq üç seçki komissiyasında olmuşuq. Seçkilər həqiqətən də seçki qanununa uyğun təşkil edilib".

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisə keçirilən seçkilərdə səsvermə prosesini izləyən MDB-dən olan müşahidəçi, Həştərxan Vilayət Duması sədrinin birinci müavini İrina Rodnenko söyləyib.

"Seçkilərin gedişinə fəal nəzarət edən müşahidəçilərin sayı bizi heyrətləndirir. Bizi məyus edən yeganə məsələ havanın soyuq olmasıdır. Buna görə də seçkilərin ilk saatlarında məntəqəyə gələn seçicilərin sayı hələlik azdır".

## *Lidiya BRADARA:* "Seçki prosesində qadınların sayının çoxluğu olduqca müsbət haldır"



"Bu gün Azərbaycanda səsvermə hüququ olanların əksəriyyəti parlament seçkilərində iştirak edir. Azərbaycan xalqı öz namizədlərinə səs verir. İnanıram ki, seçkilər uğurla başa çatacaq və 2020-ci il fevralın 9-u Azərbaycan xalqının tarixinə ən uğurlu günlərdən biri kimi yazılacaq".

Bu sözləri AZƏRTAC-a müsahibəsində 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 21 saylı seçki məntəqəsində səsvermənin gedişini izləyən Bosniya və Herseqovina parlamentinin üzvü Lidiya Bradara deyib.

Deputat bildirib ki, saat 13:30-dək 6 seçki məntəqəsində səsvermənin gedişini izləyib və heç bir qayda pozuntusu ilə rastlaşmayıb. Seçkilərin demokratik şəraitdə keçirildiyini diqqətə çatdıran beynəlxalq müşahidəçi seçki prosesində təşkilatçı və müşahidəçi qismində iştirak edən qadınların sayının çoxluğunu xüsusi vurğulayıb. Müşahidəçi qismində bir çox Avropa ölkələrində olduğunu deyən deputat Azərbaycanda seçki prosesində qadınların sayının çoxluğunu olduqca müsbət hal kimi dəyərləndirib.

Ölkəmizdə olmasından məmnunluğunu ifadə edən Bosniya və Herseqovina parlamentinin üzvü deyib: "Azərbaycana ilk dəfədir gəlirəm. Ölkəniz haqqında oxusam da, onu görməmişdim. Bakı çox müasir şəhərdir və Şərqlə Qərbin, keçmişlə müasirliyin əlamətlərini özündə birləşdirir. Ölkəniz haqqında təəssüratlarım zəngindir".

## *Misirli jurnalist:* "Azərbaycanda parlament seçkiləri yüksək səviyyədə təşkil olunub"

Azərbaycanda keçirilən parlament seçkilərini müşahidə edən misirli jurnalist Məhəmməd Salama AZƏRTAC-a müsahibəsində 4-5 seçki məntəqəsində olduğunu və bütün prosesə fikir verdiyini bildirib. O, seçkilərin yüksək səviyyədə təşkil olunduğunu bildirib.

Məhəmməd Salama bildirib ki, məntəqələrdə seçicilər rahat gəlib səs verə biliblər. Onlar məntəqələrdə yoxlanılır ki, əvvəl səs verib-vermədikləri məlum olsun. Bundan başqa, məntəqələrdə veb-kameralar quraşdırılıb. Bütün bunlar onu göstərir ki, seçkilər tam şəffaf keçirilib: "Seçkilərdə bundan əvvəlki və hazırkı müşahidələrim əsasında deyə bilərəm ki, Azərbaycan xalqı tam demokratik yolla öz namizədlərini seçmək hüququna malikdir".

Misirli jurnalist deyib: "Seçki məntəqələrində apardığım müşahidələrdə diqqətimi daha çox iki məqam cəlb edib. Birincisi, gənclərin daha çox seçki məntəqələrinə gəlib səs vermələri. İkincisi də seçki məntəqələrinin sədrləri və üzvləri arasında qadınların üstünlük təşkil etməsi və onların fəallığı".

Məhəmməd Salama məntəqələrdə heç bir qanun pozuntusu müşahidə etmədiyini, seçicilərə hər cür şərait yaradıldığını vurğulayıb.

## PARLAMENT SEÇKİLƏRİ AZƏRBAYCANDA DEMOKRATİYANIN SÜRƏTLİ İNKİŞAFINDAN XƏBƏR VERİR

# Şəffaf nəzarət

### MSK Katibliyinin İnformasiya Mərkəzi seçkilərin gedişi barədə ictimaiyyəti operativ məlumatlandırdı




Dünən ölkəmizdə VI çağırış Milli Məclisə seçkilər keçirildi. 1314 nəfər namizədin mübarizə apardığı parlament seçkiləri azad, demokratik və şəffaf şəraitdə baş tutdu.





Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzi 125 dairə üzrə fəaliyyət göstərən 5573 daimi seçki məntəqəsindən aldığı məlumata əsasən seçkilərin gedişi barədə ictimaiyyəti operativ məlumatlandırdı. Bütün bu prosesə mərkəzdə apardığımız müşahidələr zamanı şahidlik etdik.

Öncə qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin 3 sentyabr 2000-ci il tarixli "Azərbaycan Respublikasında Dövlət Avtomatlaşdırılmış "Seçkilər" İnformasiya Sisteminin yaradılması haqqında" sərəncamına əsasən, Azərbaycan Respublikasında seçki sisteminin təkmilləşdirilməsi, onun informasiya təminatının müasir tələblər səviyyəsində qurulması və seçki prosesində aşkarlığın, şəffaflığın təmin olunması məqsədilə Azərbaycanda Dövlət Avtomatlaşdırılmış "Seçkilər" İnformasiya Sistemi yaradılıb. Sərəncamın 2-ci bəndində isə Mərkəzi Seçki Komissiyasına təklif edilib ki, sistemin fəaliyyətini təşkil etmək üçün öz nəzdində İnformasiya Mərkəzi yaratsın.

2000-ci il noyabrın 2-də sözügedən İnformasiya Mərkəzinin rəsmi açılışı olub. Açılışdan bir neçə gün sonra keçirilən parlament seçkiləri belə bir mərkəzin fəaliyyətinin ölkəmizin seçki sisteminin təkmilləşdirilməsi istiqamətində olduqca mühüm əhəmiyyət kəsb etdiyini ortaya çıxardı.

Bütün seçkilərdə olduğu kimi, VI çağırış Milli Məclisə seçkilər günü də mərkəzdə seçki prosesini izləmək üçün jurnalistlərə hər cür şərait yaradılmışdı. Belə ki, eyni anda 60-dan çox jurnalist seçkilərin nəticələrini, eləcə də dairə, məntəqə seçki komissiyalarının işi, seçici sayı və s. barədə istənilən məlumatı onlayn şəkildə izləmək imkanı əldə edə bilirdilər. Bunun üçün informasiya zalında internetə çıxışı olan xüsusi kompüterlər və böyük ölçülü monitor quraşdırılmışdı. Seçkilərin nəticələri və digər zəruri məlumatlar anbaan həmin monitorda onlayn şəkildə əks etdirilirdi.

Digər seçkilərdə olduğu kimi, ilk olaraq mərkəzdə MSK sədri Məzahir Pənahov seçkilərlə əlaqədar mətbuat konfransı keçirərək bütün seçki məntəqələrinin səsvermə üçün tam hazır vəziyyətə gətirildiyini bildirdi. Qeyd etdi ki, bütün lazımi tədbirlər görülüb və MSK ilə dairə seçki komissiyaları bütün addımları Seçki Məcəlləsinin tələblərinə uyğun atıb.

Parlament seçkilərinin gedişini 47 ölkəni təmsil edən 132 beynəlxalq KİV-in 199 təmsilçisi işıqlandırırdı. Buraya ABŞ, Meksika, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Türkiyə, Rusiya və digər ölkələrin media təmsilçiləri də daxil idi. Beynəlxalq jurnalistlər parlament seçkilərində yerli mətbuat nümayəndələri ilə eyni hüquqa malik idilər. Onlar da yerli jurnalistlər kimi heç kimdən icazə almadan sərbəst şəkildə seçki məntəqələrinə daxil ola bilərdilər.

Qeydiyyatdan keçmiş yerli müşahidəçilərin sayı isə 77 min 790-dır. Onlardan 35 min 152-si siyasi partiyaların, 2737-si isə QHT-lərin təmsilçiləridir.

Səsvermənin gedişatı, seçici fəallığı ilə bağlı məlumatı mətbuata və ictimaiyyətə Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzinin müdiri Fərid Orucov çatdırırdı. Saat 10:00-da, 12:00-da, 15:00-da, 17:00-da və 19:00-da İnformasiya Mərkəzinin informasiya zalından seçkilərin gedişinə dair məlumatlar yayımlandı.

Saat 10:00-a olan məlumata görə, seçici fəallığı 12,57 faiz təşkil etdi. Bəlli oldu ki, bu saata qədər seçicilərin 670086 nəfəri səs verib. Saat 12:00-a olan məlumata görə, respublika üzrə seçicilərin 1 milyon 457 min 776 nəfəri səs verdi. Bu da parlament seçkilərində qeydə alınmış seçicilərin 27,35 faizinə bərabər idi.

Onu da diqqətə çatdıraq ki, mərkəzdə ilk olaraq seçici fəallığı barədə məlumatlar seçki dairələri tərəfindən onlayn rejimdə sistemə daxil edilirdi. Hesabat saatı başa çatdığı andan saniyələr ərzində məlumatlar tərtib olunaraq hesabat saatına uyğun olaraq ictimaiyyətə ötürülürdü.

Bundan başqa, ölkə üzrə 1000 seçki məntəqəsində quraşdırılmış veb-kameralar vasitəsilə hər kəs MSK-nın, İnformasiya Mərkəzinin və "Elektron-hökumət" portalının internet saytlarına daxil olmaqla istədikləri seçki məntəqəsində seçkiləri canlı şəkildə izləyə bilirdi. Hər üç sayta elektron xəritələr də əlavə olunmuşdu. Səs verənlər elektron xəritə vasitəsilə seçki dairə və məntəqələrinin yerini, ünvanını müəyyənləşdirə, hətta oraya necə getmək marşrutunu, məsafəni öyrənə bilirdilər.

Bir sözlə, Azərbaycanda növbəti parlament seçkiləri də azad, demokratik və şəffaf şəraitdə keçirildi. MSK Katibliyinin İnformasiya Mərkəzində apardığımız müşahidələr, yerli və əcnəbi jurnalistlərlə söhbətimiz əsnasında gəldiyimiz ümumi rəy də deyilənləri bir daha təsdiqlədi.

***Rəşad BAXŞƏLİYEV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

# Seçkini internetdən birbaşa izləmək mümkün oldu

























Azərbaycanda seçki sisteminin daha da təkmilləşdirilməsi, seçkilərin demokratik, şəffaf, azad və ədalətli keçirilməsini təmin etmək üçün vacib addımlar atılır. O cümlədən bu istiqamətdə müasir informasiya kommunikasiya texnologiyaları sahəsindəki yeniliklərdən istifadə edilir.



Bunlardan biri də seçki məntəqələrinə veb-kameraların quraşdırılması və seçki günü səsvermənin gedişinin internetdən birbaşa izlənilməsidir.

Bu, dünyanın istənilən yerində internet istifadəçisinə müşahidəçi statusuna yiyələnmədən Mərkəzi Seçki Komissiyasının internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb olunmadan onlayn rejimdə səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsi proseslərini əvvəldən axıradək fasiləsiz izləməyə, geniş və hərtərəfli müşahidə etməyə imkan verir. Veb-kameraların tətbiqi ilə bağlı ilk dəfə olaraq 2008-ci ildə Azərbaycanda siyasi iradə ortalığa qoyulmuş və müvafiq qərar qəbul edilmişdir. Səsvermənin gedişini birbaşa internetdən izləmək üçün tətbiq olunan bu metod - məntəqələrdə veb-kameraların quraşdırılması xarici ekspertlər tərəfindən çox yüksək qiymətləndirilmişdir. Artıq bəzi ölkələr Azərbaycanın bu təcrübəsindən istifadə edirlər.

Respublikamızın ictimai-siyasi həyatında mühüm hadisə olan parlament seçkilərində müxtəlif metod və vasitələrdən istifadə etməklə şəffaflığın təmin olunmasına xüsusi diqqət yetirildi. O cümlədən 12-ci ildir ki, uğurla tətbiq olunan və seçki məntəqələrinə getmədən, internet vasitəsilə səsvermə prosesini birbaşa izləməyə imkan verən veb-kameralardan istifadə təcrübəsi bu seçkidə də uğurla davam etdirildi. Qeyd edək ki, bütün ölkə coğrafiyasını əhatə etməklə 119 seçki dairəsinin 1000 seçki məntəqəsində veb-kamera quraşdırılıb.

Beləliklə, seçki günü internet istifadəçiləri həm ölkə daxilindən, həm də ölkə xaricindən MSK-nın rəsmi internet səhifəsinə daxil olmaqla səsvermə prosesini, səslərin sayılmasını və nəticələrin müəyyənləşdirilməsini arasıkəsilmədən birbaşa müşahidə etmək imkanına malik oldular.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Anonim seçici rəyi

### Vətəndaşlar "exit-poll" sorğularında da fəallıq nümayiş etdirdilər



Dünən ölkəmizdə daha bir tarixi hadisə yaşandı - VI çağırış Milli Məclisə seçkilər başa çatdı. Beynəlxalq müşahidəçilərin, əcnəbi KİV nümayəndələrinin də iştirak etdiyi seçkilər şəffaf və ədalətli şəkildə keçirildi. Yerli və xarici müşahidəçilərin fikirləri, MSK-nın mütəmadi olaraq verdiyi məlumatlar seçkidə "exit-poll" keçirən təşkilatların rəyləri ilə üst-üstə düşdü.

Dünyada demokratik idarəetmə sisteminin əsas atributlarından sayılan seçkilərin şəffaflığını təmin etmək, ictimai rəyin sözügedən prosesə münasibətini öyrənmək üçün "exit-poll" tədqiqat növündən istifadə edilir. Azərbaycanda da 2003-cü ildən başlayaraq prezident, parlament və bələdiyyə seçkilərində, o cümlədən referendumda "exit-poll" keçirilir. "Exit-poll" Mərkəzi Seçki Komissiyasının nəticələri rəsmən elan etməsindən əvvəl ilkin nəticələri əldə etmək imkanını yaradır, səsvermənin nəticələrinə ictimai nəzarəti həyata keçirir.

Dünən ölkədə soyuq-şaxtalı hava şəraiti hökm sürsə də, seçkidə "exit-poll" keçirən təşkilatların gənc nümayəndələri öz vəzifələrini layiqincə yerinə yetirdilər. Bunu paytaxtın müxtəlif seçki məntəqələrində apardığımız müşahidələrə əsasən söyləyirik.

Əvvəlcə qeyd edək ki, parlament seçkilərində Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqası "AJF&Associates İnc." təşkilatı (ABŞ) ilə birgə, "Rəy Monitorinq Mərkəzi", "İnsan Hüquqları XXI Əsr - Azərbaycan" Fondu və Fransanın "Opinion Way" Sosioloji Tədqiqatlar İnstitutu (birgə) "exit poll" keçirəcək qurum kimi qeydə alınmışdı. Yəni 3 təşkilat seçkilərdə "exit-poll" keçirdi. Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqasının "AJF&Associates İnc." təşkilatı (Amerika Birləşmiş Ştatları) ilə birgə keçirdiyi "exit-poll" 118 dairə üzrə 1053 seçki məntəqəsini əhatə edib.

Paytaxtın Yasamal rayonu 16 saylı ikinci seçki dairəsinin 8 saylı seçki məntəqəsində Rəy Monitorinq Mərkəzi tərəfindən "exit-poll" tədqiqatı həyata keçirildi. Mərkəzin nümayəndəsi Nərmin Babayeva qeyri-sabit hava şəraiti olmasına baxmayaraq, öz işi ilə məşğul idi. Bəlli oldu ki, Nərmin ilk dəfədir "exit-poll" keçirir. Amma bu heç də onu həyəcanlandırmır. Sözlərinə görə, seçicilər də sərbəst şəkildə sorğuda iştirak edirlər: "İlk dəfədir ki, sosioloji sorğuda iştirak edirəm. Bu, həm də mənim ixtisasıma uyğundur. Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin 2-ci kurs tələbəsiyəm. "Exit-poll" keçirmək, vətəndaşlarla ünsiyyətdə olmaq, fikirlərini öyrənmək çox maraqlıdır. Vətəndaşlar səsvermə prosesində iştirak etdikdən sonra mənə yaxınlaşaraq anonim sorğu vərəqlərini doldururlar. Artıq hər kəs bilir ki, "exit-poll"da iştirak etməklə ölkənin seçki üzrə beynəlxalq standartlara cavab verməsinə yardım etmiş olur". Nərmin deyir ki, keçirdiyi tədqiqatın gedişatı ilə bağlı hər iki saatdan bir təşkilatın "supervayzerinə" məlumat verir.

16 saylı Yasamal ikinci seçki dairəsinin 14 saylı seçki məntəqəsində "exit-poll" tədqiqatı həyata keçirən Rəy Monitorinq Mərkəzinin əməkdaşı Fəridə Sadıqova isə daha təcrübəlidir. Bakı Dövlət Universitetinin magistri bir neçə seçki prosesində bu tədqiqatı həyata keçirib. Onun sözlərinə görə, "exit-poll" tədqiqatında seçicilərin fəallığı artır. 2003-cü ildən həyata keçirilən "exit-poll"un metodikası dünya standartlarına uyğun seçilir və təşkilati işlərdə sistem təkmilləşdirilir. Tədqiqata daha çox gənclər cəlb edilir: "Gün ərzində səsvermədən çıxan 7 nəfərdən birinə yaxınlaşıb sorğumuza cavab istəyirik. İnsanlar çox sərbəst şəkildə bizim sorğularımıza cavab verirlər. Sorğularımızı cavablandıran seçicilərin hamısı səslərini heç bir müdaxilə olmadan azad, sərbəst olaraq ifadə etdiklərini, istədikləri namizədə səs verdiklərini bildirirlər".




Nizami rayonu 24 saylı birinci seçki dairəsinin 14 saylı seçki məntəqəsində isə Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqası və "AJF&Associates İnc." təşkilatı (ABŞ) ilə birgə "exit-poll" tədqiqatı həyata keçirirdi. Təşkilatın nümayəndəsi ilə söhbət zamanı bəlli oldu ki, azad, şəffaf keçirilən seçkilərdə vətəndaşlar "exit-poll"a da tam səmimi münasibət göstərirlər. Onun fikrincə, daha çox gənc nəslin nümayəndələri sosioloji sorğularda aktivlik nümayiş etdirirlər:

"Exit-poll" bu gün bütün dünyada seçki günü geniş tətbiq olunan seçki məntəqələrinin çıxışında səs vermiş seçicilərin rəy sorğusudur. İctimai rəyin öyrənilməsi bütün dövrlərdə mövcud olan dövlətlərin, eləcə də cəmiyyətlərin hər zaman maraq dairəsindədir. Təcrübə göstərir ki, real seçicilərin rəyini öyrənmək yalnız seçki günü seçki məntəqələrində mümkündür. Azərbaycanda isə artıq uzun müddətdir bu təcrübə tətbiq olunur və uğurlu nəticəsi göz önündədir", - deyə təşkilatın nümayəndəsi vurğuladı.

Göründüyü kimi, digər seçkilərdə olduğu kimi, ölkə vətəndaşları parlament seçkilərində də "exit-poll" sorğularında aktivlik nümayiş etdiriblər.

***R.BAXŞƏLİYEV,***
***A.MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# PAYTAXT SAKİNLƏRİ YÜKSƏK FƏALLIQ GÖSTƏRDİLƏR











## SƏBAİL

Mərkəzi Seçki Komissiyasının 29 saylı Səbail seçki dairəsinin 16 saylı seçki məntəqəsində səhər saatlarından başlayaraq vətəndaşlar öz iradələrini sərbəst şəkildə ifadə edirlər.

Məntəqə seçki komissiyasının sədri Fərhad İsmayılov bildirdi ki, dairə üzrə səsvermə 30 məntəqədə keçirilir. Dairə üzrə qeydə alınan seçicilərin sayı 38 min 858 nəfərdir. 16 saylı seçki məntəqəsi üzrə isə 1474 seçici qeydə alınıb.

Səsvermənin yüksək səviyyədə keçməsi üçün bütün təşkilati işlər görülüb, məntəqə lazimi ləvazimat və inventarla, bütün zəruri avadanlıqlarla təmin edilib. Komissiya üzvlərinin və müşahidəçilərin normal fəaliyyəti, səsvermə prosesinin obyektiv və demokratik keçirilməsi üçün hər cür şərait yaradılıb.

Fərhad İsmayılovun sözlərinə görə, seçici siyahısında ilk dəfə səs verəcək 8 gənc var. Ən yaşlı seçicinin isə 82 yaşı var. Daşınan qutu üçün müraciət edən olmayıb. Səsvermənin gedişini 40-dan çox yerli və beynəlxalq müşahidəçi izləyib. Onların sırasında ATƏT-in, ABŞ və Böyük Britaniya səfirliklərinin, Yeni Azərbaycan Partiyası və digər siyasi partiyaların nümayəndələri, namizədlərin müşahidəçiləri və öz təşəbbüsü ilə gələnlər var.

Məntəqədə apardığımız müşahidələr zamanı da səsvermə prosesinin şəffaf keçirildiyinə şahidlik etdik. Burada olduğumuz müddətdə heç bir qanun pozuntusu baş vermədi. Səsvermə prosesi demokratik şəraitdə davam etdi.

Mərkəzi Seçki Komissiyasının 29 saylı Səbail seçki dairəsinin 20 saylı seçki məntəqəsində səsvermə prosesi qanunvericiliyə uyğun təşkil olunmuşdu.

Məntəqə seçki komissiyasının sədri Gülxar Quliyeva ilə söhbətimiz zamanı məlum oldu ki, məntəqə üzrə qeydə alınan seçicilərin sayı 1226 nəfərdir. Onlardan 3 nəfəri seçki hüququndan ilk dəfə istifadə edəcək gənclərdir. Bu məntəqə üzrə ən yaşlı seçicinin 72 yaşı var. Daşınan qutu üçün müraciət edən isə olmayıb: “Seçkiyə 24 saat qalmışa qədər gözlədik ki, elektron müraciət edən, ərizə verən və yaxud zəng edən ola bilərdi. Lakin müraciət daxil olmadığı üçün ünvana getməyəcəyik”.

Bəlli oldu ki, məntəqədə səsvermənin gedişini izləmək üçün 35 yerli və beynəlxalq müşahidəçi qeydiyyatdan keçib. Müşahidəçilərlə söhbətimiz zamanı da aydın oldu ki, onlar heç bir qanun pozuntusuna rast gəlməyiblər.

Gülxar Quliyeva digər seçkilərdə olduğu kimi, altıncı çağırış parlament seçkilərinin də Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə keçirildiyini vurğuladı: “Seçki normal qaydada gedir, heç bir qanun pozuntusu qeydə alınmayıb. Əlverişsiz hava şəraitinə baxmayaraq, seçicilər fəallıq nümayiş etdirir, azad və sərbəst surətdə istədikləri namizədə səs verirlər”, - deyə məntəqə seçki komissiyasının sədri qeyd etdi.

Qeyd edək ki, 29 saylı Səbail seçki dairəsində 20 namizəd mübarizə apardı.

## YASAMAL

Hava şəraitinin sərt olmasına baxmayaraq fevralın 9-da Yasamal rayonunun seçiciləri də fəallıq göstərərək öz vətəndaşlıq borclarını yerinə yetirdilər. Bunu 17 saylı Yasamal 3-cü seçki dairəsi 26 saylı məntəqəsində də aydın görmək mümkün idi.

Məntəqə seçki komissiyasının sədri Sevda Heydərova dedi ki, bu məntəqə üzrə 1313 seçici səs verməlidir. Seçki Məcəlləsinə uyğun olaraq bütün hazırlıq işləri tam həyata keçirilib və məntəqə səhər tezdən ilk seçicilərini qəbul edib.

Seçkinin gedişini 28 yerli və beynəlxalq müşahidəçi izləyirdi. Seçicilər məntəqəyə daxil olub bülletenlərini götürür və heç bir maneə, kənar təsir olmadan seçki kabinələrinə keçirdilər.

Seçici Fərhad Tağızadə bildirdi ki, məntəqə üzvləri onu mehribanlıqla qarşılayıb bir daha qaydaları xatırladıblar və o, çox sərbəst şəkildə özünün istədiyi namizədə səs verib.

Seçkinin gedişindən tam razı qalan seçici Əlizadə Babayev məntəqəyə balaca oğlu Əli ilə gəlmişdi. “Bu da bir vətəndaşdır, sabahın seçicisidir,” - deyə zarafat etdi.

17 saylı Yasamal 3-cü seçki dairəsi 27 saylı məntəqəsində də tədbir işgüzar şəraitdə, heç bir narazılıq və insident baş vermədən davam edirdi. Məntəqə seçki komissiyasının sədri Rövşən Şirinov 1294 nəfər seçicinin olduğunu bildirdi. Səsvermə başlayandan seçicilərin getdikcə artdığını qeyd etdi.

Burada da seçkinin gedişini beynəlxalq və yerli müşahidəçilər izləyirdi. 26 müşahidəçidən 3-ü beynəlxalq müşahidəçi idi. Müşahidəçi Asif Hüseynli məntəqə üzrə heç bir qanun pozuntusunun olmadığını və seçkilərin tam demokratik keçdiyini söylədi.

Seçicilər də eyni fikri bildirdilər. Seçici Sahib Qasımov və həyat yoldaşı Xədicə Qasımova məntəqəyə birlikdə gəlmişdilər. Onlar seçkinin yaxşı təşkil olunduğundan və səsvermə üçün rahat şərait yaradıldığından razılıq etdilər. Hər biri öz istədiyi namizədə səs verdiyini dedi.

## NƏRİMANOV

Nərimanov rayonunda seçicilər müxtəlif ünvanlarda təşkil edilmiş 38 məntəqədə səsvermə hüququnu reallaşdıra bilib. Məntəqələrdə beynəlxalq standartlara uyğun yaradılan münbit şərait səsvermənin ədalətli keçirilməsinə səbəb olub. 19 saylı Nərimanov birinci seçki dairəsinin 14 saylı, 15 saylı, eləcə də 16 saylı seçki məntəqələrində gördüklərimizə və müşahidəçilərlə söhbətlərimizə istinadən deyə bilərik ki, səsvermə qanun pozuntusu olmadan davam edib.

19 saylı Nərimanov birinci seçki dairəsinin 15 saylı məntəqəsinin çıxışında Aşıq Molla Cüma küçəsinin sakini, 85 yaşlı seçici İsrafil Heydərovla rastlaşdıq. Neçə belə səsvermənin və seçkilərin iştirakçısı olmuş ağsaqqalla həmsöhbət olduq. O dedi:

- Yaxınlıqda yaşayıram, sovet dövrünün də seçkilərini görmüşəm, indinin də. İnsafən, istədiyin namizədə səs vermək üçün çox əlverişli və maneəsiz şərait yaradılıb. Dairədən 16 nəfər Milli Məclisə üzv olmaq üçün namizədliyini irəli sürüb. Kimsənin təkidi olmadan istədiyim bir nəfərə səs verdim. Onların hər birinə uğurlu rəqabət arzulayıram.

Söhbətimizə qoşulan 18 yaşlı Zaur Məmmədli isə bildirdi ki, o, ilk dəfədir səsvermədə iştirak edir. İstədiyi namizədi millət vəkili görmək üçün heç bir müdaxilə olmadan səs verdiyinə görə özünü məmnun hesab edir.

Günortaya yaxın 15 saylı seçki məntəqəsində 1427 nəfər səsvermə hüququna malik seçicidən 450-si artıq qeydiyyatdan keçmişdi. Yerli müşahidəçilərdən bitərəf Faiq İsmayılov, Elman Yusifov və Müsavat Partiyasının nümayəndəsi Rəşad Zəfərov bildirdilər ki, onlar üçün normal şərait yaradılıb. Bildirdilər ki, hal-hazıradək səsvermədə qanun pozuntusu müşahidə etməyiblər.

16 saylı seçki məntəqəsi 193 saylı orta məktəbdə yerləşdiyindən bu ünvana seçicilər çox rahatlıqla gələ bilirdilər. Bu məntəqənin seçiciləri yaradılan demokratik şəraitə uyğun olaraq öz istədikləri, arzusunda olduqları namizədə sərbəst səs verirdilər. Məntəqədə səsvermə prosesində obyektivliyin və şəffaflığın təmini üçün müxtəlif ictimai-siyasi təşkilatları təmsil edən 15 müşahidəçi iştirak edirdi. Onların hər biri səsvermənin obyektiv keçirildiyini bildirdi. Məntəqənin həyətində seçici Həsən Həsənli ilə görüşdük. O dedi:

- Qonşu binada yaşayıram, hərbi xidmətdən bir neçə gündür gəlmişəm. İkinci dəfədir Milli Məclisə deputat seçkilərində iştirak edirəm. Özüm də Bakı Dövlət Universitetinin məzunuyam. Yaradılan şəraitdən çox razı qaldım və istədiyim namizədə səs verdim.

19 saylı Nərimanov birinci seçki dairəsinin 14 saylı seçki məntəqəsi Ağa Nemətulla küçəsində, Bakı şəhər Vergilər Departamenti Kiçik Sahibkarlar İdarəsinin binasında yaradılmışdı. Məntəqə seçki komissiyasının sədri Elnur Verdiyev bildirdi ki, seçicilər arasında elə bir qanun pozuntusu nəzərə çarpmayıb. Məntəqə “Nərimanov” metro stansiyasına yaxın olduğundan bəzən bilməməzlikdən digər məntəqəyə getməli olanlar bura gəlirlər. Bu qəbildən üç nəfər seçicinin qeydiyyatda olduğu qonşu məntəqəyə getməli olduğunu onlara izah etdik.

Məntəqədə əyləşən 20 nəfər müşahidəçi də səsvermə prosesində ciddi qanun pozuntusu ilə rastlaşmadıqlarını bildirdilər.

## NƏSİMİ

21 saylı Nəsimi Birinci seçki dairəsində 34 min 395 nəfər seçicinin səs verməsi üçün lazımi şərait yaradılıb. Məntəqələrin hamısı zəruri avadanlıqlarla təchiz edilib. Dairənin 10 seçki məntəqəsində veb-kamera quraşdırılıb. Bununla yanaşı, dairənin 2, 25 və 28 nömrəli seçki məntəqələrində sağlamlıq imkanları məhdud şəxslərin rahat səs vermələri üçün panduslar quraşdırılıb. Dairə üzrə 700-ə yaxın müxtəlif siyasi partiya və qurumlardan müşahidəçi qeydiyyatdan keçib.

Həmin dairənin 6 saylı seçki məntəqəsinin müşahidəçisi Esmira Qasımova dedi ki, seçki prosesində heç bir qanun pozuntusu qeydə alınmayıb, seçicilərin istədikləri namizədə səs vermələri üçün hər cür şərait yaradılıb. Qeyd edək ki, həmin məntəqədə Qazaxıstandan olan müşahidəçi Akbola Musalayev səsvermənin gedişini izləyib, qanun pozuntusu ilə bağlı heç bir iradı olmayıb.

Dairənin 7 saylı seçki məntəqəsində səsvermə prosesini ATƏT və MDB-dən olan müşahidəçilər izləyiblər. ATƏT müşahidəçiləri Heqen Mari və Aleksandr Prusov məntəqədə yaradılan şəraitdən razılıq edərək səsvermə prosesinin şəffaf keçdiyini bildiriblər. Həmçinin MDB-dən olan müşahidəçilər Lidia Ernoshina və Seviratlana Kafsula da məntəqədə gedən səsvermə prosesinin şəffaf keçdiyini bildiriblər. Müşahidəçi Elmira Hacıyeva da bildirdi ki, məntəqədə seçki prosesinin şəffaf keçməsi üçün bütün texniki tədbirlər görülüb. Müşahidə apardığı müddətdə heç bir qanun pozuntusu qeydə almayıb.

“Bu dairənin 22 saylı məntəqəsində seçkilər şəffaf şəraitdə keçir. Səsverməyə gələn seçicilərə istədikləri namizədə səs vermək üçün hər cür şərait yaradılıb”, - deyə müşahidəçi Solmaz Osmanova qeyd etdi. Seçici Məmməd Əliyev də məntəqədə hər cür şəraitin yaradıldığını və səsvermə prosesində heç bir qanun pozuntusuna rast gəlmədiklərini vurğuladı.

## NİZAMİ

Bakının Nizami rayonu 3 seçki dairəsini əhatə edir. Bunlar 18 saylı Nərimanov - Nizami, 24 saylı Nizami birinci və 25 saylı Nizami ikinci seçki dairələridir. Dünən keçirilən parlament seçkisi sözügedən dairələrdə də yüksək səviyyədə baş tutdu.

Qeyd edək ki, hələ ötən seçkilər zamanı rayon ərazisindəki dairə və məntəqə seçki komissiyalarının yerləşdiyi binalar əsaslı təmir olunub, maddi-texniki bazası yenilənib. Bu proses sonrakı dövrdə də davam etdirilib. Dünən isə VI çağırış Azərbaycan Milli Məclisinə seçkilər keçirildi. Bununla əlaqədar olaraq Mərkəzi Seçki Komissiyasının Təqvim Planına uyğun olaraq Nizami rayonunda həyata keçirilən hazırlıq işləri vaxtında yekunlaşmışdı. Bütün seçki məntəqələri seçkiyə aid olan zəruri əşyalarla, texniki vasitələrlə təchiz olunmuş, seçki günü onların fasiləsiz elektrik enerjisi ilə təmin olunmaları üçün müvafiq tədbirlər görülmüşdü. Bu barədə məlumat verən 24 saylı Nizami birinci seçki dairəsinin komissiya sədri Niyazi Nəcəfov onu da bildirdi ki, bütün seçki hazırlıqları, o cümlədən seçicilərə bildirişlərin paylanılması, seçki bülletenlərinin məntəqə seçki komissiyalarına çatdırılması nəzərdə tutulmuş vaxtda təmin olunub.

Qeyd edək ki, bu seçki dairəsində 10 namizəd Milli Məclisin deputatı adı uğrunda mübarizə aparırdı. Onlardan ikisinin namizədliyi siyasi partiyalar tərəfindən irəli sürülmüşdü. 8 nəfər isə öz təşəbbüsü ilə seçkiyə qatılmışdı. Seçki kampaniyasının təşviqat mərhələsində namizədlərin hər biri üçün bərabər şərait yaradılmış və hər hansı qanun pozuntusu qeydə alınmamışdır.

24 saylı Nizami birinci seçki dairəsində 43523 nəfər seçici qeydə alınıb. Seçki məntəqələrinin sayı isə 35-dir. Öyrəndik ki, dairə üzrə bütün seçki məntəqələri nəzərdə tutulmuş vaxtda açıq elan edilib. Dairə üzrə qeydə alınan 427 nəfər müşahidəçi səsvermə prosesini izləyib. Bu seçki dairəsinin 3, 7, 9, 11, 14, 20, 22, 23, 24 və 25 saylı seçki məntəqələrində səsvermənin gedişini internetdən izləmək mümkün idi. Müşahidə apardığımız 14 saylı seçki məntəqəsində də səsvermə öz axarı ilə davam edirdi. Seçki məntəqəsinin çıxışında isə “exit-poll” keçirilirdi.

24 saylı Nizami birinci seçki dairəsindəki müşahidələrimiz seçkilərin demokratik və şəffaf keçirildiyini təsdiq etdi. Müşahidəçilər də səsvermə prosesinin gedişatından razılıqlarını ifadə etdilər. Nizami rayonunu əhatə edən digər seçki dairələrində də səsvermə günü bütün seçki prosedurları heç bir nöqsan və qanun pozuntusu qeydə alınmadan, seçki qanunvericiliyinin tələblərinə uyğun davam etdi.

## BİNƏQƏDİ

Bakının Binəqədi rayonundakı 8 saylı birinci, 9 saylı ikinci və 10 saylı üçüncü seçki dairələrinin seçki məntəqələrində də səsvermə prosesinə seçki qanunvericiliyinə uyğun olaraq vaxtında başlandı. Gün ərzində 9 saylı ikinci və 10 saylı üçüncü seçki dairələrinin bir neçə məntəqəsində apardığımız müşahidələrə əsasən deyə bilərik ki, vətəndaşlar səsvermə prosesində aktiv iştirak edirdilər.

Öncə 9 saylı Binəqədi ikinci seçki dairəsinin 1 və 8 saylı məntəqələrində səsvermə prosesini müşahidə etdik. Veb-kamera ilə təchiz edilmiş məntəqələrdə seçicilər sərbəst şəkildə məntəqəyə daxil olub qeydiyyatdan keçirir və bülletenləri götürüb istədikləri namizədə səs verirdilər.

8 saylı məntəqə seçki komissiyasının sədri Vətən Məmmədov dedi ki, məntəqə üzrə 1303 nəfər seçici qeydiyyatdadır. Ancaq bəzən elə olur ki, vətəndaş məntəqəni səhv salır. Belə olan halda vənəndaşın qeydiyyat ünvanı yoxlanılr və səs verməli olduğu məntəqəyə istiqamətləndirilir.

Havanın şaxtalı-qarlı olmasına baxmayaraq, səs vermək üçün məntəqəyə təşrif buyuran 83 yaşlı Mənsurə nənə ilə söhbətləşirik. Deyir ki, 40 il Binəqədi rayonunda tibb bacısı kimi çalışıb. Bütün seçkilərdə fəal iştirak edib: “83 yaşım var, amma hələ də özümü gümrah hiss edirəm. Noyabr ayında bələdiyyə seçkilərində səs vermişdim. İndi də gəlmişəm ki, deputat seçkilərində iştirak edim”. Mənsurə nənə qeydiyyatdan keçib istədiyi namizədə səs verdi və gülə-gülə hamı ilə sağollaşıb məntəqəni tərk etdi.

Səsvermədə iştirak edən seçicilər prosesdən razılıqlarını bildirirdilər. Seçki məntəqələrində bütün proseslər veb-kameralar vasitəsilə izlənilirdi.

10 saylı Binəqədi üçüncü seçki dairəsində 11 nəfər namizəd mübarizə aparırdı. Namizədliyini irəli sürən şəxslərin əksəriyyəti partiya üzvləri idilər. Onların arasında YAP, AVP, DİP, AMİP, ASDP, Ümid Partiyasının təmsilçiləri və namizədliyini öz təşəbbüsü ilə irəli sürən bitərəflər var idi. Dairə üzrə seçicilərin ümumi sayı 49 min 590 nəfərdir. Dairənin əhatə etdiyi 35 daimi seçki məntəqəsindən 10-da veb-kamera mövcuddur. Bundan başqa, əlil arabası ilə hərəkət edən seçicilər üçün bütün məntəqələrdə panduslar quraşdırılıb.

Dairənin 1421 nəfər seçicisi olan 5 və 1465 nəfər seçicisi olan 8 saylı seçki məntəqələrində olduq. Müşahidələrimiz zamanı heç bir qanun pozuntusu, narazılıqla qarşılaşmadıq. Seçicilərin qeydiyyatı, barmaq izləri yoxlanıldıqdan sonra bülletenlər təqdim edilir və təlimatlandırılırdılar. 5 saylı seçki məntəqəsində səsvermə prosesini veb-kamera ilə canlı da izləmək mümkün idi.

5 saylı məntəqə seçki komissiyasının sədri Şahin Səmədovdan aldığımız məlumata görə, məntəqələrə Rusiya və Qazaxıstandan olan xarici müşahidəçilər də baş çəkiblər. Məşahidəçilər məntəqədə yaradılan şəraitdən və səsvermə prosesindən razılıqlarını bildiriblər.

Məntəqədə olan deputatlığa namizədlərin nümayəndələri və müşahidəçilər də səsvermə prosesinin qanunauyğun şəkildə həyata keçirildiyini təsdiqləyirdilər.







# PAYTAXT SAKİNLƏRİ YÜKSƏK FƏALLIQ GÖSTƏRDİLƏR

## XƏTAİ

Respublikamızın bütün rayonlarında, kənd və qəsəbələrində olduğu kimi, Bakının Xətai rayonunda da əhali yüksək fəallıqla Azərbaycanın ali qanunverici orqanı olan Milli Məclisə növbədənkənar seçkilərin keçirildiyi məntəqələrə doğru axışırdı. Azərbaycanda yeni tərkibli parlamentin formalaşdığı hazırkı dövrdə hamının qəlbi yalnız bir arzu ilə döyünürdü: ölkənin idarə edilməsində mühüm rol oynayan, qanunvericilik hakimiyyəti səlahiyyətlərini uğurla həyata keçirən, ölkədə aparılan demokratik, dünyəvi dövlət quruculuğunun möhkəm hüquqi bazasını yaradan belə bir ali quruma doğma Azərbaycanımıza, qədirbilən xalqımıza ürəkdən bağlı olan, öz seçicilərinin hər birinin problemini öz şəxsi problemi sayan, rayonun iqtisadi qüdrətinin artmasında, ekoloji tarazlığının qorunmasında, iqtisadi, sosial müdafiə və digər sahələrdə rayon sakinlərinin etimadını doğrultmaq gücünə malik olan ən yaxşı oğul və qızlarımıza səs vermək arzusilə.

33 saylı Xətai birinci seçki dairəsində olduq. Dairədə 39 məntəqə fəaliyyət göstərir. Əsaslı təmir olunmuş təhsil və mədəniyyət ocaqlarının binalarında yerləşən səsvermə məntəqələri müasir üslubda hazırlanmış daşınan və daşınmaz səsvermə qutuları, məlumat lövhələri, gözəgörünməyən mürəkkəblə dolu qablar, ultrabənövşəyi lampalar, yazı ləvazimatları, gizli səsvermə üçün lazım olan digər zəruri əşyalar, həmçinin rabitə ilə, generatorlarla tam təmin olunub. Məntəqələrdə seçkilərin ədalətli və şəffaf keçirilməsinin təminatı, yerli və beynəlxalq müşahidəçilərin, KİV nümayəndələrinin seçki prosesi boyunca azad və sərbəst fəaliyyəti üçün hər cür şərait yaradılıb. Səsvermənin gedişində bütün prosesləri əvvəldən axıradək fasiləsiz izləmək, arası kəsilmədən müşahidə aparmaq, şəffaflığın və aşkarlığın daha geniş miqyasda təminatına imkan yaratmaq üçün 10 məntəqədə veb-kamera quraşdırılıb.

Söhbət zamanı 33 saylı Xətai birinci dairə seçki komissiyasının sədri Əlibaba Bayramov bildirdi ki, deputat mandatı uğrunda mübarizəyə 12 nəfər qoşulub. Onlardan 8-i namizədliyini müstəqil yolla özü verib. Qalanların namizədliyi isə YAP, Yeni Müsavat və digər partiyalar tərəfindən irəli sürülüb. DSK-nın əhatə etdiyi məntəqələrdə 47 min 614 nəfər seçici var. Onlardan 520 nəfəri səsvermədə ilk dəfə iştirak edir. Seçkilərin gedişatını izləmək üçün min nəfərə yaxın müşahidəçi qeydə alınıb. Onların arasında iqtidar və müxalifət nümayəndələri də var, könüllülər də, beynəlxalq müşühidəçilər də. Seçki günü məntəqəyə gəlmək imkanına malik olmayan xəstələr və əlillər də diqqətdən kənarda qalmayıb. Bu məqsədlə xüsusi maşın da ayrılıb. Məntəqə üzvü olan bir şəxsin və bir müşahidəçinin köməyi ilə daşınan səsvermə qutusu birbaş onların evlərinə aparılır və orada səs verirlər.

Bir nəfər seçiciyə yaxınlaşırıq. Özünü təqdim edir. İldırım Qəhrəmanov:

- Mən təqaüddə olan qocaman mühəndisəm. Ömrümün 45 ildən çoxunu neft mədənlərində keçirmişəm. Açıq deyim ki, seçkilərin demokratik prinsiplər əsasında, mütəşəkkil keçirilməsi bir ziyalı kimi məni də ürəkdən sevindirir. Budəfəki parlament seçkilərini ölkəmizdə aparılan çoxşaxəli islahatların davamı kimi qiymətləndirmək gərəkdir. İldən-ilə inkişaf edən, həyatın bütün sahələrində tərəqqi zirvələrinə doğru inamla addımlayan müstəqil Azərbaycanımız dünyanın ən nümunəvi ölkələrindən biridir. Burada insanlar dinclik və əmin-amanlıq şəraitində yaşayıb-yaradırlar. Məmləkətimizdə söz və fikir azadlığı mövcuddur. Şəxsiyyətinə, iş təcrübəsinə, vətənə və xalqa sədaqətinə dərindən bələd olduğumuz hər bir namizəd sərbəst surətdə səs vermək hüququna malikik. Bu sərbəstliyi yaradan da dövlət başçımızdır. Söz yox ki, budəfəki parlament seçkilərindən sonra Azərbaycan daha da güclənəcək, onun beynəlxalq aləmdə mövqeyi daha da möhkəmlənəcək.

Seçki məntəqələrinin birində beynəlxalq müşahidəçi Dmitri Trafimovla görüşüb, seçkilərin gedişi ilə əlaqədar öz təəssüratını bildirməsini xahiş edirik:

- Azərbaycanda çox gözəl seçki mühiti formalaşıb, - deyir. Bu, Azərbaycanın demokratik dəyərlərin möhkəmləndirilməsi sahəsində əldə etdiyi ciddi uğurlardan, ölkənin iqtisadi, sosial və mədəni sahədə əldə etdiyi misilsiz nailiyyətlərdən, xalqın həyat səviyyəsinin ilbəil yaxşılaşmasından xəbər verir. Xalqın seçkilərdə yüksək fəallıqla iştirakı, seçkilərin demokratik, ədalətli və şəffaf keçirilməsi məni ürəkdən sevindirir. Müxtəlif məslək və əqidə sahibləri olan insanlar arasındakı xoş ünsiyyət, mehribanlıq və səmimiyyət göstərir ki, Azərbaycan əsl tərəqqi, səadət və xoşbəxtlik yolundadır.

## SURAXANI

Suraxanı rayonunda 115 min 535 seçicinin səs verməsi üçün üç seçki dairəsində (30, 31 və 32) 89 seçki məntəqəsi fəaliyyət göstərirdi.

Bütün seçki məntəqələrində olduğu kimi, 31 saylı seçki dairəsinin Qaraçuxur qəsəbəsindəki Səttar Bəhlulzadə adına Xarici dillər təmayüllü gimnaziyasında yerləşən 7 saylı məntəqəsində də seçicilərin normal səs verməsi üçün hər cür şərait yaradılmışdı.

Bitərəf müşahidəçi Xəyalə Əhmədovanın dediyinə görə, səsvermə prosesində heç bir qanun pozuntusuna rast gəlməmişdir. Hər bir seçici heç bir təzyiq olmadan Milli Məclisə deputatlığa layiq bildiyi namizədə səs verir.













Digər müstəqil müşahidəçilər Durna Tağıyeva, Aytac İsgəndərova və Aygün Abdullayeva da seçkilərin yüksək səviyyədə təşkil olunduğunu, məntəqənin veb-kameralarla təchiz edildiyini və hər kəsin rahat şəkildə səs verdiyini bildirdilər.

32 saylı seçki dairəsinin 1 saylı məntəqəsi də bütün lazımi avadanlıqla təchiz olunmuşdu. Burada səsvermə hüququ olan 1208 seçicidən 3-ü ilk dəfə səs vermişdir.

ADMP-ni təmsil edən Rumiyyə Yunanova səsvermə prosesinin demokratik və şəffaf keçirildiyini, heç bir qanun pozuntusunun qeydə alınmadığını bildirdi.

"Vəhdət" Partiyasından müşahidəçi Müşfiq İsmayılov da seçicilər tərəfindən heç bir etiraz, narazılıq olmadığını və qanun pozuntusunun qeydə alınmadığını dedi.

Öz təşəbbüsü ilə səsvermə prosesini müşahidə edən Zəminə Şərifova heç bir problemlə üzləşmədiyini, sənədləşmə ilə bağlı ortaya çıxan məsələlərin dərhal yerindəcə həllini tapdığını qeyd etdi.

Müstəqil müşahidəçi Arzu Göyçayeva da hər bir seçicinin rahat şəkildə səs verdiyini bildirdi.

## SABUNÇU

Sabunçu rayonunun da seçmək hüququ olan sakinləri inandıqları, etimad göstərdikləri namizədlərə səs vermək üçün seçki məntəqələrinə getdilər. Vəziyyəti öyrənmək üçün Sabunçu rayonu 27 saylı ikinci seçki dairəsinin 4, 29, 38, 9 saylı seçki məntəqələrində olduq.

İlk baş çəkdiyimiz 27 saylı Sabunçu ikinci seçki dairəsinin 4 saylı seçki məntəqəsinin komissiya sədri Fuad Mirzəyev seçicilərin rahat və sərbəst səs vermələri üçün lazımi şəraitin yaradıldığını vurğuladı: "Seçicilər gəlirlər və bütün seçki qaydalarına riayət edərək səs verirlər. Hər bir seçici öz hüququnu və vəzifəsini bilir. Seçki başlayandan heç bir problem yaranmayıb".

Daha sonra 27 saylı Sabunçu ikinci seçki dairəsinin 29 saylı seçki məntəqəsində olduq. Məntəqə seçki komissiyasının sədri İradə Bayramova da burada qabaqcadan vacib olan bütün işlərin görüldüyünü diqqətə çatdırdı: "Öz namizədinə səs vermək hər bir seçicinin hüququ və vətəndaşlıq borcudur. Biz də məntəqəyə gələn seçicilərin heç bir problemlə qarşılaşmamaları üçün üzərimizə düşən vəzifələrin öhdəsindən gəlməyə çalışırıq".

Başqa bir seçki məntəqəsində - 27 saylı Sabunçu ikinci seçki dairəsinin 38-ci seçki məntəqəsinə gələn seçicilər də sərbəst şəkildə hüquqlarından istifadə edirlər. Məntəqə seçki komissiyasının sədri Samiyyə Abdulkərimova seçkiyə ciddi hazırlıq görüldüyünü dedi: "Məntəqəmizdə seçkinin yüksək səviyyədə keçirilməsi, beynəlxalq və yerli müşahidəçilərin, namizədlərin nümayəndələrinin prosesi izləmələri üçün hər cür şərait yaradılıb".

27 saylı Sabunçu ikinci seçki dairəsinin 9 saylı seçki məntəqəsinə yollandıq. Məntəqə seçki komissiyasının sədri Səyyar Abdullayev də seçkiyə hazırlıqların, təbliğat işlərinin lazımi qaydada aparıldığından razılıqla danışdı: "Seçki prosesi çox yaxşı səviyyədə təşkil olunub. Seçicilərimiz məntəqəyə gələrək öz hüquqlarından yararlanırlar".

Qeyd edək ki, səsvermə otaqları qanunvericiliyin tələblərinə uyğun təşkil edilmiş, yeni informasiya texnologiyasının üstünlüklərinə geniş yer verilmişdi.

Baş çəkdiyimiz seçki məntəqələrində yerli müşahidəçilərin fikirlərini də öyrəndik. Müşahidəçilər Səidə Sadıqzadə, Tamilə Cəlalzadə, Nərgiz Cəfərova, Vüsalə Qasımova, Aytən Eldarova, Səadət Qasımova, Pərvanə Əsədova, Elnarə Əkbərova, Bəsti Abbasova seçkinin azad formada davam etdiyini söylədilər. Xalq Cəbhəsi Partiyasının nümayəndəsi olan müşahidəçi Pərvanə Əsədova bildirdi: "Müşahidə etdiyimiz seçki məntəqəsində heç bir qayda pozuntusu qeydə alınmayıb. Seçici hüququna malik olan hər kəs sərbəst şəkildə öz namizədinə səs verir".

Səsvermədə iştirak edən seçicilərin fikir və rəyləri ilə də maraqlandıq. Ahıl yaşlı seçici Qızqayıt Məmmədova bütün seçkilərdə fəal iştirak etdiyini, bunun vətəndaşlıq borcu olduğunu xüsusi vurğuladı. Əhməd Məmmədov seçkiyə oğlu Ayaz Məmmədovla gəlib. Hər iki seçici onlara heç bir müdaxilənin olmadığını, istədikləri namizədə rahat şəkildə səs verdiklərini söylədilər. Seçki məntəqələrində söhbət etdiyimiz digər seçicilər - Amira Ramazanova, Nailə Hacıyeva, Ayaz Məmmədov, Lalə Şirinova və başqaları da öz vətəndaş mövqelərini bildirmək, ölkəmizin uğurları naminə səs vermək üçün gəldiklərini diqqətə çatdırdılar. Fikirlərini öyrəndiyimiz seçicilər səsvermənin gedişatından razı qaldıqlarını bildirdilər.

## XƏZƏR

14 saylı Xəzər seçki dairəsinin 16 saylı seçki məntəqəsində də seçici fəallığı müşahidə olunurdu. Məntəqə seçki komissiyasının sədri Həzərxan Əbilov məlumat verdi ki, komissiya üzvlərinin və müşahidəçilərin normal fəaliyyəti, seçicilərin səslərini sərbəst şəkildə vermələri üçün hər cür şərait yaradılıb. Səsvermənin yüksək səviyyədə keçməsi üçün bütün təşkilati işlər görülüb, məntəqə lazımi ləvazimat və inventarla, bütün zəruri avadanlıqlarla, seçki bülletenləri, gözlə görünməyən mürəkkəb və bu mürəkkəbi oxumaq üçün xüsusi cihazlarla təmin edilib.

Məntəqə üzrə ümumilikdə 1474 seçici olduğunu söyləyən komissiya sədri qeyd etdi ki, ən yaşlı seçici qadındır və 92 yaşı var.

16 saylı seçki məntəqəsində veb-kamera quraşdırılıb, 26 nəfər yerli müşahidəçi qeydiyyatdan keçib. Müşahidəçi Güloğlan Əzimov söylədi ki, məntəqədə seçki tam nəzarət altında və aktiv formada keçir: "Hətta elə saatlar oldu ki, sıx seçici fəallığı müşahidə olundu. Heç bir qanun pozuntusu müşahidə etməmişəm. Amma akt da götürmüşəm və nöqsan gördüyüm halda yazıb məntəqə sədrinə təqdim edəcəm".

Bu seçki dairəsinin 17 saylı seçki məntəqəsində də seçki öz axarında davam edirdi. Məntəqə seçki komissiyasının sədri Lütfiyyə Qasımova bildirdi ki, bu məntəqə üzrə seçicilərin ümumi sayı 1279 nəfərdir.

Seçki prosesini 17 nəfər yerli müşahidəçi izləyirdi. Həmsöhbət olduğumuz seçici Əmrulla Yusifov söylədi ki, heç kimin təsiri altında olmadan layiq bildiyi namizədə sərbəst səs verib.

14 saylı Xəzər seçki dairəsinin 20 saylı seçki məntəqəsinin komissiya sədri Rəhilə Baxşıyeva məlumat verdi ki, bu məntəqə üzrə 1453 seçici var. Həmçinin 11 gənc seçici ilk dəfə səsvermə hüququndan istifadə edib. Məlumat üçün bildirək ki, məntəqədə veb-kamera quraşdırılıb. Burada 31 müşahidəçi seçki prosesini izləyirdi ki, onlardan da 5-i xarici idi. Müşahidəçi Xanım Muradova dedi ki, 20 saylı seçki məntəqəsində seçici fəallığı kifayət qədər yüksəkdir.

18 saylı seçki məntəqəsində də seçicilər öz hüquqlarından istifadə edirdilər. Məntəqə seçki komissiyasının sədri Əlmusa Salayev məlumat verdi ki, bu məntəqədə 1136 seçici var.

Müşahidəçi Rövşən Şəliyev söylədi ki, seçici aktivliyi qənaətbəxşdir. Hansısa qanun pozuntusuna yol verilməyib. Səsvermə prosesi şəffaf və demokratik şəraitdə davam edib.

28 yaşlı seçici Hikmət Əkbərov isə parlament seçkilərində ilk dəfədir ki, səs verirdi. Hikmət söylədi ki, heç bir kənar müdaxilə olmadan öz istədiyi namizədə səs verib.

Qeyd edək ki, Xəzər rayon 14 saylı seçki dairəsində 37 seçki məntəqəsi üzrə 49192 seçici var.

## QARADAĞ

Dünən ölkə əhalisinin seçmək və seçilmək hüququ olan vətəndaşları seçki məntəqələrinə üz tutmuşdu. Siyasi, ictimai, sosial mövqeyindən asılı olmayaraq, seçkilərdə iştirak edənlərin məqsədi onlara yaradılan, azad, demokratik şəraitdən bəhrələnib, öz seçimini etmək, vətəndaşlıq hüququnu təsdiqləmək idi.

Qaradağ rayonunun 11 saylı seçki dairəsinin 27, 28, 29, 30 saylı seçki məntəqələrində diqqəti çəkən məqamlardan ən əsası seçicilərin sərbəst şəkildə öz seçimini etmək üçün yaradılan şərait və namizədlərin müşahidəçilərinin fəallığı idi.

Müşfiqabad qəsəbəsindəki şəhid E.Şirəliyev adına 274 nömrəli tam orta məktəbdə fəaliyyət göstərən 27 saylı seçki məntəqəsinin komissiya sədri Səfa Xəlilov bildirdi ki, burada 1554 seçici səs verməlidir. Məntəqədə ictimai təşkilatların, eləcə də siyasi partiyaların müşahidəçiləri seçicilərin sərbəst şəkildə səs vermələrini, özlərinin isə heç bir problem yaşamadan müşahidə etmələrindən razılıq ifadə etdilər.

Qəsəbə mədəniyyət evindəki 28, 6 saylı körpələr evi-uşaq bağçasındakı 29 və 13 saylı poliklinikadakı 30 saylı seçki məntəqələrində də səs verənlər sərbəst şəkildə öz seçimlərini edirdilər. Təbii ki, bu, ilk növbədə Milli Məclisə üzv seçilmək üçün namizədliyini irəli sürənlərin rəqabət mübarizəsinin son mərhələsinin göstəricisi idi: hər müşahidəçi və nümayəndə öz namizədini müdafiə etmək üçün fəallıq göstərirdi.

İstər müşahidəçilər, istərsə də seçicilər bildirirdilər ki, seçki gününədək təbliğat kampaniyası ciddi rəqabət şəraitində, qanunauyğun aparılıb. Seçicilər namizədini seçmək üçün məntəqəyə gəlməyi özlərinin vətəndaşlıq borcu hesab edirdilər.

274 nömrəli tam orta məktəbdə yerləşən məntəqədə veb-kamera var idi. Bu məntəqə digərlərindən seçicilərinin sayının çox olması baxımından da fərqlənirdi.

28 saylı məntəqənin komissiya sədri Namiq Cəfərov bildirdi ki, Müşfiqabad qəsəbəsi üzrə 5779 seçici səs verəcək.

Məntəqələrdə müşahidəçi qismində iştirak edən müxtəlif siyasi partiya və ictimai təşkilatların, o cümlədən Yeni Azərbaycan, Müsavat, Ana Vətən partiyalarının, həmçinin bitərəf müşahidəçilərin fikirləri də seçici və məntəqə komissiya üzvlərininki ilə, demək olar, eynilik təşkil edirdi. Hər kəs üçün maraqlı bir məqam vardı: namizədlər bu kampaniyadan necə çıxacaq?!

Qaradağlı seçicilərdən seçki məntəqəsinə gələnlər arasında 1943-cü il təvəllüdlü İslam Eyvazov da var idi, on səkkiz yaşlı, Sumqayıt Dövlət Universitetinin I kurs tələbəsi Səbinə Nəcəfova da.

Məntəqələrdəki müşahidəçi və seçicilərlə qısa söhbətlərdən bilmək olurdu ki, daha seçkilər əvvəlkilərinə bənzəmir. Tərəflər onların üzərinə düşən vəzifə borclarını yerinə yetirmək üçün yaradılmış şəraitdən istifadə etməyə çalışır. Bu isə, əlbəttə, siyasi-ictimai mahiyyətindən asılı olmayaraq, seçkilərin qanunauyğun keçirilməsi, vətəndaş cəmiyyətinin isə bu kampaniyalarda daha ciddi şəkildə iştirakı deməkdir.







# SEÇKİLƏR AZAD, DEMOKRATİK VƏ ŞƏFFAF KEÇDİ



### NAXÇIVAN

2020-ci il fevralın 9-u ölkəmizdə Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər günüdür.

Muxtar respublikada seçkilərin qanunvericiliyin tələblərinə uyğun keçirilməsi üçün zəruri tədbirlər görülüb, məntəqələrdə veb-kameralar quraşdırılıb, müşahidəçilər üçün yerlər ayrılıb. Azərbaycan Respublikasının Milli Məclisinə muxtar respublikada fəaliyyət göstərən 7 seçki dairəsi üzrə yaradılmış 316 seçki məntəqəsindən 25 namizəd, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər üzrə isə 45 seçki dairəsindən 140 namizəd qeydə alınıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, fevralın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ailə üzvləri ilə birlikdə 4 saylı Naxçıvan şəhər seçki dairəsinin Heydər Əliyev adına tam orta məktəbdə yerləşən 4-15 saylı seçki məntəqəsində səs verib.

Sonra Ali Məclisin Sədri seçki prosesinin gedişi ilə maraqlanıb.

Məlumat verilib ki, Naxçıvan şəhərindəki 4-15 saylı seçki məntəqəsində 1481 seçici qeydiyyatdadır. Saat 11:00-a məntəqədə seçicilərin 33 faizi səs verib.







### GƏNCƏ

Demokratik seçkilərin keçirilməsi sahəsində respublikamızın qazandığı uğurlar, şəffaflığın təmin olunması istiqamətində atılan addımlar artıq öz bəhrəsini verməkdədir. Fevralın 9-da Milli Məclisə keçirilən seçkilər bir daha sübut etdi ki, artıq Azərbaycanda seçki keçirmək mədəniyyəti formalaşmışdır və bütün seçkilər qanunvericilik normalarına tam cavab verir.

Milli Məclisə seçkilər Gəncədə də mütəşəkkilliklə başladı. Səhər saat 8-də seçki məntəqələrinin qarşısında izdiham yaşanırdı. Hamı ölkəmizin həyatında böyük əhəmiyyət daşıyan bu seçkilərdə vətəndaşlıq borcunu yerinə yetirmək üçün yaşadığı ərazidə yerləşən seçki məntəqəsinə gəlir, heç bir təzyiq olmadan istədiyi namizədə səs verirdi.

Səsverməyə gələn şəhər sakinlərində böyük ruh yüksəkliyi müşahidə olunur. Hamı çalışır ki, Milli Məclisə daha layiqli namizədlərə səs versin. Seçicilər növbə ilə, sərbəst şəkildə müəyyənləşdirilmiş prosedurdan keçərək istədikləri namizədə səs verirdilər.

37 saylı Nizami birinci (Gəncə) seçki dairəsinin komissiya sədri Seymur Hüseynov söhbət zamanı dedi ki, əvvəlki seçkilərdə olduğu kimi, növbəti parlament seçkilərində də mütəşəkkillik hiss olunur. Dairəni əhatə edən 24 məntəqənin hamısında seçici fəallığı var. Günortaya yaxın artıq 32 min 899 seçicinin yarısı namizədlərə öz münasibətlərini bildirmişdir. 10 məntəqədə veb-kamera quraşdırılmışdı ki, bu da istənilən şəxsə seçkilərin gedişini izləmək imkanı verirdi.

Sallah Bağırovanın 91 yaşı var. O, Yeni Gəncə yaşayış massivində yerləşən 15 saylı seçki məntəqəsində səs vermişdir. Yaşının çox olmasına baxmayaraq, Sallah nənə hələ gümrahdır. Məntəqəyə daxil olarkən ona lazımi kömək göstərildi. Sonra şəxsiyyət vəsiqəsini təqdim etməklə qeydiyyatdan keçdi və səsvermə bülleteni alaraq kabinəyə daxil oldu. Məntəqədə hamı onun hərəkətlərini izləyirdi. Bülleteni qutuya atdıqdan sonra məntəqədən çıxdı. Hamı 91 yaşlı ağbirçəyin hərəkətlərinə heyran qalmışdı.

38 saylı Nizami ikinci (Gəncə), 39 saylı Kəpəz birinci (Gəncə) və 40 saylı Kəpəz ikinci (Gəncə) seçki dairələrinin məntəqələrində də seçici fəallığı müşahidə olunurdu. 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsinin 10 saylı məntəqəsində olduq. Məntəqə seçki komissiyasının sədri Telman Musayev dedi ki, son dəqiqləşdirmədən sonra 1306 nəfər seçici qeydiyyatdan keçmişdir. Ciddi hazırlığın nəticəsidir ki, heç bir narazılıq qeydə alınmamışdır. Seçkilərin azad və demokratik keçməsinə əmin olan insanlar böyük həvəslə məntəqəyə gələrək istədiyi namizədə səs verirdilər. Qeyd edək ki, məntəqədə müşahidəçilərə də lazımi şərait yaradılmışdı. Onlar ayrılmış yerdə sərbəst şəkildə seçkinin gedişini izləyirdilər. Müşahidəçilərdən aldığımız məlumata görə, səsvermə prosesində heç bir qanun pozuntusuna rast gəlinməmişdi.

### SUMQAYIT

41 saylı Sumqayıt 1-ci seçki dairəsi üzrə 43149 seçici qeydə alınmışdır. Dairənin 10 məntəqəsində veb-kamera quraşdırılıb. Ümumiyyətlə, dairənin 33 məntəqəsi bütün texniki avadanlıqlarla təmin edilmişdir.

Dairənin 18 saylı məntəqəsində 1355 seçici qeydə alınmışdır. Elnur Tağıyev, Mələk Həşimova, Aygün Mədəqova, Lamiyyə Dadaşova və Kəmalə Əhmədçələbiyeva səs verməyə bir yerdə gəlmişdilər. Onlar ali məktəb tələbələridir.

Şəhər 3 saylı tam orta məktəbdə 42 saylı Sumqayıt ikinci seçki dairəsinin 8 saylı seçki məntəqəsi fəaliyyət göstərir. Məntəqənin komissiya sədri Ülkər Çəndirli səsvermənin normal keçdiyini və nəticələrə təsir göstərə biləcək qanun pozuntularına rast gəlinmədiyini söylədi. 1273 seçicisi olan məntəqədə hər kəsə sərbəst səs verməsi üçün tam şərait yaradılmışdı. Arzu Hümbətova, Elçin Quliyev və başqaları seçkinin gedişindən razı qaldıqlarını söylədilər. Seçici Benyamin Məmmədov bildirdi ki, 1935-ci ildə anadan olub. O dedi: "Pensiyaların artımı dövlətimizin bizə göstərdiyi qayğıdır. Biz də gərək seçkilərdə yaxından iştirak edək ki, ali kürsülərdə dövlətimizin apardığı siyasətlə ayaqlaşa bilən insanlar əyləşsin".

42 saylı Sumqayıt ikinci seçki dairəsi 42825 seçicini 38 məntəqədə birləşdirir. Dairənin şəhər 3 saylı orta məktəbin binasında yerləşən 7 saylı məntəqəsinin komissiya sədri Qulu Əbdürrəhmanov seçkinin kifayət qədər şəffaf keçdiyini və səsverməyə gələnlərin fəallığının normal olduğunu söylədi. 970 nəfər seçicisi olan bu məntəqədə səsvermə üçün bütün şərait yaradılıb. Sədrin sözlərinə görə, məntəqədə heç bir ciddi qanun pozuntusu qeydə alınmamışdır.

Valentina Rəhimova ikinci mikrorayon sakinidir. Alman əsilli bu xanım Sumqayıtın yaşıdıdır. Sumqayıtı öz doğma balası kimi sevən Valentina xanım bizimlə söhbətində bildirdi ki, səhər ilk səsverənlərdən olub. Yeni salınan bulvar, istirahət mərkəzləri, gənclərin düzgün tərbiyəsi istiqamətində görülən işlər əhali tərəfindən dəstəklənir.

10 müşahidəçinin izlədiyi seçkinin gedişində heç bir qanun pozuntusuna yol verilməyib. Müxtəlif partiya və bitərəflərdən ibarət müşahidəçilər seçkilərin şəffaf və demokratik keçirildiyini vurğuladılar.

Sumqayıt Dövlət Dram Teatrında yerləşən 44 saylı Sumqayıt-Xızı seçki dairəsinin 1 saylı məntəqəsində də seçki fəallığı var idi. 1174 seçicinin qeydə alındığı məntəqədə səs verən Yaqub Cəfərov, Faiq Hacıyev, Şəhla Qasımova və başqaları şəffaf və demokratik prinsiplərə söykənən seçkidə iştirak etdiklərini, layiqli namizədə səs verdiklərini bildirdilər.

Hazırda Sumqayıt şəhərində minlərlə qaçqın və məcburi köçkün ailəsi də məskunlaşıb. Onlar da bu seçkidə fəal iştirak etdilər. Şəhərin Nizami kinoteatrında təşkil edilən 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsinin 48 saylı məntəqəsində seçici Sərvan Səfərovla görüşdük. Bildirdi ki, demokratik keçirilən seçkilər ölkəmizin inkişafına xidmət edir.

### ABŞERON

Abşeron sakinləri indiyədək keçirilən bütün seçkilərdə fəal iştirak etmiş və böyük əksəriyyət səsini ən layiqli namizədə vermişdir.

45 saylı Abşeron seçki dairəsi 36 məntəqəni özündə birləşdirir. Dairə üzrə seçicilərin sayı 47844 nəfərdir. Bu dairə üzrə səsvermədə Abşeronun Xırdalan, Digah, Fatmayı, Goradil, Masazır, Mehdiabad və Məmmədli kəndlərinin sakinləri iştirak edirdilər. Dairə üzrə 12 məntəqədə veb-kamera quraşdırılmışdı.

23 saylı seçki məntəqəsi Masazır qəsəbəsindəki Milli Qəhrəman Ə.Əliyev adına Qubadlı rayon tam orta məktəbində təşkil olunmuşdu. Məntəqə üzrə seçicilərin sayı 1484 nəfər idi. Sədr Sərvər Azadəliyev bildirdi ki, məntəqə Masazır qəsəbəsini əhatə edir və seçkini müxtəlif partiyalardan olan müşahidəçilər izləyir.

Məntəqənin katibləri Yusif Nəcəfov, Tural Orduxanov, üzvləri Cəvahir Məlik-zadə, İradə Hacıyeva, Məhbubə Tahirova seçicilərə səs verməkdə texniki kömək edirdilər. Seçicilər Maşallah Abışov, Sədaət Qurbanov, Şəki Paşayev, Aslan Azadəliyev və digərləri seçkinin gedişindən razı qaldıqlarını və istədikləri namizədə səs verdiklərini bildirdilər.

### ŞƏMKİR

Rayonda 3 dairə - 98 saylı Şəmkir şəhər, 99 saylı Şəmkir kənd və 100 saylı Şəmkir-Daşkəsən dairə seçki komissiyaları fəaliyyət göstərir. Seçki dairələrinin və məntəqələrinin böyük əksəriyyəti parlament seçkilərini hər cür şəraiti olan müasir binalarda keçirmişdir. Yüksək səviyyədə hazırlıq işlərinin nəticəsidir ki, burada Milli Məclisə seçkilər də mütəşəkkilliyi ilə yadda qaldı.



99 saylı dairə seçki komissiyasının sədri Rafiq Məmmədov dedi ki, rayonun ən ucqar kəndlərində də əhali arasında fəallıq hiss olunurdu. Məsələn, Tatarlı kəndində yerləşən 18 saylı seçki məntəqəsində insanlar səs vermək üçün növbəyə dayanırdılar. Onlar müəyyən olunmuş qaydada qeydiyyatdan keçir, səsvermə bülleteni alaraq onu səsvermə qutusuna salırdılar. Əlbəttə, bütün bunlar insanların azad və şəffaf keçən seçkilərə inamından irəli gəlir.

98 saylı Şəmkir şəhər seçki dairəsinin 6 saylı məntəqəsində səs verməyə gələn 103 yaşlı Zeynəb Məmmədovanın fikrini öyrənmək maraqlı oldu. Zeynəb nənə dedi ki, həyatı boyu çox seçkilərdə iştirak edib. Ancaq müstəqil ölkəmizin keçirdiyi seçkilərdə bir daha iştirak etmək onun üçün şərəfdir. Məntəqə seçki komissiyasının üzvləri onun yaşını nəzərə alaraq daşınan seçki qutusu ilə evinə getmək istəyəndə Zeynəb nənə razı olmayıb, demişdi ki, mənə nə olub ki, məntəqəyə gələ bilməyim. Qoy cavanlar görsünlər ki, seçkilərdə iştirak etmək hamının vətəndaşlıq borcudur. Məndən nümunə götürsünlər.

### GORANBOY

97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsinin ərazisində 23 min 977 nəfər seçici var. Dairənin məntəqələrində seçici siyahıları dəqiqləşdirilərək məntəqələrin qarşısına vurulmuşdu. Həmin gün seçki məntəqələrinə gələ bilməyən xəstələrin parlament seçkilərində iştirakı da təmin edilmişdir. Belə ki, əvvəlcədən tərtib edilmiş siyahı əsasında xəstələrin evlərinə getməklə səsvermə təmin edilmişdir.

Seçkilərdə iştirak edəcək ahıl insanlar da diqqət mərkəzində saxlanılmışdır. Dairədən bildirmişlər ki, 785 nəfər ahıl insanın siyahısı tərtib edilmişdir.

Samara Əsgərovanın 82 yaşı var. Bu ahıl qadın səhər tezdən 3 saylı seçki məntəqəsinə gələrək istədiyi namizədə öz münasibətini bildirdi. Səs verdikdən sonra bir qədər dincəlməsi üçün ona lazımi şərait yaradıldı. Oturan kimi də ilk sözü bu oldu:

- Var olsun dövlətimiz, gözəl günlər yaşayırıq. Son vaxtlar güzəranımız da yaxşılaşıb. Cavanlarımız üçün yeni iş yerləri açılır. Ən əsası isə ölkəmizdə sabitliyin olmasıdır. Bütün bunlar isə düzgün siyasətin nəticəsidir.

Öyrəndik ki, məntəqələrdə seçkini izləmək üçün qeydiyyatdan keçmiş Yeni Azərbaycan Partiyası ilə yanaşı, Müasir Müsavat, "Ümid", Bütöv Azərbaycan, Ana Vətən, Azərbaycan Xalq Cəbhəsi partiyalarından olan müşahidəçilər üçün hər cür şərait yaradılmışdır. Onların dediklərinə görə, seçki prosesinda qanun pozuntusuna yol verilməmişdir.

### GƏDƏBƏY

Havaların soyuq keçməsinə baxmayaraq, Milli Məclisə seçkilər Gədəbəydə də mütəşəkkil keçmişdir. Rayon sakinləri səhər tezdən seçki məntəqələrinə gələrək istədikləri namizədə səs vermişlər.

Gədəbəydə iki dairə - 103 saylı Gədəbəy və 104 saylı Gədəbəy-Tovuz seçki dairəsini əhatə edən 43 seçki məntəqəsi fəaliyyət göstərir. Aparılan hazırlıq işlərinin nəticəsidir ki, həmin gün rayonda yüksək fəallıq hökm sürürdü. Seçicilər azad, şəffaf və demokratik şəraitdə öz iradələrini ifadə etməklə yaşadıqları ölkənin sabahına səs vermişlər.

103 saylı Gədəbəy seçki dairəsini əhatə edən məntəqələrdə son dəqiqləşdirmədən sonra 41 min 850 nəfər seçici qeydiyyata alınmışdı. Bütün məntəqələrdə yüksək səviyyədə hazırlıq işləri aparılmışdı. Məntəqələr elektrik generatoru ilə təchiz edilmiş, rabitə xətləri çəkilmişdi. Şəffaflığın və obyektivliyin təmin edilməsi üçün 6 məntəqədə veb-kamera quraşdırılmışdı. Səhər tezdən məntəqələrə gələn seçicilər növbə ilə qeydiyyatdan keçir, bülleten götürərək səs verirdilər. Dairənin məntəqələrində qeydiyyata alınmış 571 nəfər ilk dəfə səs verən gənclərə, eləcə də yaşı 100-dən çox olan 4 ahıl seçiciyə xüsusi qayğı ilə yanaşılmışdır. İlk dəfə səs verən Teymur Abdullayev fikrini belə ifadə etdi:



- Çox həyəcanlı idim. Mənə o qədər isti münasibət göstərildi ki, az bir vaxtda həyəcanım getdi. Gördüm ki, seçicilərə tam sərbəstlik verilib. Kim hansı namizədə istəyirdisə, ona da səs verirdi.

Kubra Əsgərovanın isə 105 yaşı var. Yerişi bir qədər çətinləşsə də, yaşadığı ərazidə yerləşən məntəqəyə gələrək səs verməyi özünün vətəndaşlıq borcu hesab edirdi. Dedi ki, ömrü boyu çox seçkidə iştirak edib. Lakin müstəqil respublikamızda keçirilən seçkilərdə iştirak etmək onun üçün şərəfdir. Çünki bilir ki, parlament seçkiləri Azərbaycanın həyatında ən vacib seçkilərdən biridir. Odur ki, Milli Məclisə təsadüfi adamları seçmək olmaz. Gərək yüz ölçüb, bir biçəsən.

Dairənin 2 saylı seçki məntəqəsində də əsl izdiham yaşanırdı. Məntəqə seçki komissiyasının sədri Esmira Şirinova ilə söhbət zamanı məlum oldu ki, səsvermə prosesi çox mütəşəkkil gedir. Məntəqədə 1349 seçici qeydiyyata alınmışdır. Artıq günortaya kimi onların yarıdan çoxu öz namizədinə münasibətini bildirmişdi. İnsanlar böyük maraqla seçki məntəqəsinə gəlir, istədiyi namizədə səs verirdilər.

### SAMUX

29 illik müstəqillik həyatını yaşayan Azərbaycanda növbəti parlament seçkiləri də seçici fəallığı ilə müşayiət olundu. Samuxlular özlərinin vətəndaşlıq borclarını nümayiş etdirmək üçün səhər tezdən seçki məntəqələrinə gəlir, parlament üzvlüyünə layiq bildikləri namizədlərə səs verirdilər.

102 saylı Samux-Şəmkir seçki dairəsinin Alıuşağı kəndində yerləşən 18 saylı məntəqəsində olduq. Məntəqəyə səs verməyə gələn seçicilərin əhvali-ruhiyyəsinin yüksək olduğu diqqətimizi çəkdi. Məntəqə seçki komissiyasının sədri Musa Əsədov dedi ki, seçici fəallığı yüksəkdir. Günorta olmasına baxmayaraq, qeydiyyatda olan seçicilərin 60 faizdən çoxu səs verib.

Məntəqədə yenicə səs vermiş 101 yaşlı Yamən Mehdiyeva ilə söhbət etdik. Dedi ki, sağ olsunlar, heç bir çətinliklə üzləşmədik. Hər kəs kimə istədisə, ona da səs verdi. Bax, əsl demokratiya budur.

Samuxlular həmişə olduğu kimi, növbəti parlament seçkilərində də mütəşəkkillik nümayiş etdirdilər. Bunun 102 saylı Samux-Şəmkir seçki dairəsinin şəhər 1 nömrəli orta məktəbdə yerləşən 1 saylı seçki məntəqəsində bir daha şahidi olduq. Seçicilərin bu siyasi kampaniyada fəallıqla iştirak etməsi onu göstərirdi ki, samuxlular ölkədə seçki sisteminin daha da təkmilləşdirilməsi ilə bağlı aparılan islahatları bəyənir və dəstəkləyirlər.

### GÖYGÖL

Fevralın 9-da Milli Məclisə keçirilən seçkilərdə göygöllülər də fəal iştirak etmişlər. Seçkilərin gedişi ilə yaxından tanış olmaq üçün 101 saylı Göygöl-Daşkəsən seçki dairəsində olduq. Dairə seçki komissiyasının sədri Abbas Zalovun verdiyi məlumata görə, məntəqələrdə əsl seçici fəallığı müşahidə olunurdu. Dairəni əhatə edən 74 seçki məntəqəsinin 46-sı Göygöldə, 28-i isə Daşkəsən rayonundadır. Seçkilərin gedişini izlədikcə məlum olurdu ki, insanlar parlament seçkilərində böyük fəallıq nümayiş etdirirlər. Ən ucqar kəndlərdə də insanlar seçkilərə biganə deyildilər. Məsələn, Sarısu kəndi rayonun ən ucqar kəndlərindəndir. Burada 460 sakin yaşayır ki, onun da 331-i seçki hüququna malikdir. Kənddə fəaliyyət göstərən 19 saylı seçki məntəqəsi də seçicilərin izdihamı ilə müşayiət olunmuşdu. Məntəqə seçki komissiyasının sədri Şamo Pənahov dedi ki, bu kəndin sakinləri bütün seçkilərdə fəallıq nümayiş etdiriblər. İndi də belədir. Səhər tezdən məntəqəyə üz tutan kənd sakinləri istədikləri namizədə səs vermişlər.

### QAZAX

Respublikamızın qərb bölgəsində yerləşən Qazax rayonunda da parlament seçkiləri mütəşəkkil keçmişdir. Demək olar ki, bütün kənd və qəsəbələrdə böyük mütəşəkkillik hökm sürmüşdür. Sakinlər bu siyasi kampaniyada fəallıq göstərmiş, seçki məntəqələrinə gələrək istədikləri namizədə səs vermişlər. Səhər tezdən seçki məntəqələrinə üz tutan seçicilər yaradılan şəraitdən istifadə edərək parlamentə layiq bildikləri namizədə səs vermişlər.



107 saylı seçki dairəsində 36 məntəqə fəaliyyət göstərir. Seçici siyahısı dəqiqləşdirildikdən sonra burada 44 min 663 seçicinin olduğu müəyyənləşdirilmişdir. Dairə seçki komissiyasından aldığımız məlumata görə, 10 məntəqədə veb-kamera quraşdırılmışdır. Ümumilikdə 45 min 306 seçici qeydiyyata alınmışdır. Dairəni əhatə edən ərazidə 373 nəfər ilk dəfə səs verən, 5 nəfər isə yaşı 100-ü ötmüş seçici vardı.

Kəmərli sakini, 112 yaşlı Sayalı Nəbiyeva 32 saylı seçki məntəqəsində səs verərkən demişdir ki, bugünkü seçki ölkəmizin həyatında böyük əhəmiyyət daşıyır. Odur ki, elə məntəqənin özündə səs verməyi qərara aldım. Heç bir çətinliklə üzləşmədən istədiyim namizədə səs verdim. Ümumiyyətlə, belə seçkilər xalqımızın həyatında olduqca əhəmiyyətlidir. Odur ki, diqqətli olmalıyıq ki, sonradan peşimançılıq çəkməyək.

### KƏLBƏCƏR

Kəlbəcərli məcburi köçkünlər parlament seçkilərində əsl fəallıq nümayiş etdirmişlər. 123 saylı dairə seçki komissiyasının sədri Adil Murtuzayev söhbət zamanı dedi ki, dairəni əhatə edən 65 məntəqə üzrə 51 min 755 nəfər seçici qeydə alınmışdır.

12 saylı məntəqə Gəncədə yeni salınmış qəsəbədəki mədəniyyət evində yerləşir. Biz məntəqəyə daxil olanda çoxlu seçici növbə gözləyirdi. Onlar bir-bir məntəqə seçki komissiyasının üzvlərinə yaxınlaşaraq adlarının qarşısında imza atıb səsvermə bülleteni götürür, kabinəyə daxil olaraq istədiyi namizədin qarşısında işarə edərək səsvermə qutusuna salırdılar.

Məntəqə seçki komissiyasının sədri Nizami Ələkbərov səsvermənin gedişi ilə bağlı məlumat verərək dedi ki, 1480 nəfər seçicimiz var. Günorta olmasına baxmayaraq, seçicilərin yarıdan çoxu artıq səsvermədə iştirak edib. Yenə də yaşlı insanlar daha çox fəallıq göstəriblər. 19 nəfər yaşı 100-ü keçmiş seçici qeydiyyatdan keçib. İlk dəfə səs verənlərin sayı isə 793-dür.

Ağsaqqal Musa Əzizli ilə qarşılaşdıq. Söhbət zamanı dedi ki, səhər tezdən səs verib. Hamı ruh yüksəkliyi ilə gəlib istədiyi namizədə səs verdi. Onların fəallığını görəndə ürəyim dağa dönür. Heç kimə təzyiq göstərilmir. Bir sözlə, seçki çox şəffaf və demokratik keçir.

### LƏNKƏRAN

Rayonda fəaliyyət göstərən 4 dairə üzrə 116 seçki məntəqəsinin yerləşdiyi binalarda seçki komissiyalarının normal fəaliyyəti üçün hər cür şərait yaradılmış, Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edilmiş təqvim planında nəzərdə tutulmuş müvafiq tədbirlər həyata keçirilmişdir.

73 saylı Lənkəran şəhər seçki dairəsinin 18 saylı məntəqəsində seçicilərin fəallığı açıq-aydın hiss olunurdu. Məntəqəyə daxil olmaq üçün növbə gözləyən Teymur Babazadədən seçkinin gedişi haqqında fikrini soruşduq. Dedi ki, hər şey normaldır: "Mən ölkəmizdə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahatları ürəkdən dəstəkləyirəm və builki parlament seçkilərini də uğurlu siyasi islahatların tərkib hissəsi hesab edirəm. İnanıram ki, yeni seçiləcək parlament bizim xoş gələcəyimiz üçün gözəl qanunlar qəbul edəcək, hüquq və azadlıqlarımızdan daha dolğun bəhrələnməkdə, daha firavan gələcəyə qovuşmaqda bizə yol göstərəcək".

75 saylı Lənkəran-Masallı seçki dairəsinin Liman şəhərindəki 1 saylı seçki məntəqəsində də səsvermə normal keçdi. Liman şəhər Neft Məhsulları Müəssisəsinin inzibati binasında yerləşən məntəqədə seçki komissiyasının normal fəaliyyəti üçün bütün lazımi şərait yaradılmışdı. Veb-kamera qoyulmuş məntəqədə yaradılan şəraitdən razılıq edən Liman sakini, şəhər Ağsaqqallar Şurasının sədri Siyaviş Süleymanlı dedi ki, seçki sivil qaydada gedir: "Burada heç kimə təsir göstərən yoxdur. Ailə üzvlərim də sərbəst şəkildə öz seçimlərini edib istədikləri namizədə səs verdilər. Dediyim odur ki, ölkəmizdə demokratiya inkişaf edir, insan hüquq və azadlıqları Konstitusiya normaları səviyyəsində qorunur. Təsadüfi deyil ki, bizim səs verməyimizi veb-kamera vasitəsilə dünyada izləyirlər. Bu böyük nailiyyətdir, Prezidentin həyata keçirdiyi islahatların bəhrəsidir. Bu islahatlar xalqımıza əmin-amanlıq, dinc və firavan həyat bəxş edir. Mən bu siyasəti ürəkdən bəyənir, səs verdiyim namizədə qələbə arzulayıram".

76 saylı Lənkəran-Astara seçki dairəsinin Şürük kənd mədəniyyət evində yerləşən 16 saylı məntəqəsində də seçicilər tam sərbəst şəkildə səs verirdilər. Məntəqə sədri Şükür Günəşova dedi ki, seçici fəallığı yüksəkdir, hamı qaydalara riayət edir.

# SEÇKİLƏR AZAD, DEMOKRATİK VƏ ŞƏFFAF KEÇDİ

**MİNGƏÇEVİR**

Vaxtında görülmüş nümunəvi hazırlıq, seçki qanunvericiliyi əsasında aparılmış təbliğat-təşviqat kampaniyası sayəsində energetiklər şəhəri Mingəçevirdə də Milli Məclisə seçkilər şəffaf, demokratik, aşkarlıq şəraitində keçdi. Fevralın 9-da səhər saat 8-dən başlayaraq nur şəhərinin sakinləri dəstə-dəstə seçki məntəqələrinə gəlib səs verdilər.

47 saylı Mingəçevir dairə seçki komissiyasının tərkibində olan 22 saylı seçki məntəqəsində səs verib çıxan təqaüdçü Telman Qəmbərov seçki təəssüratını bizimlə belə bölüşdü:

- Milli Məclisə seçki prosesinin bütün mərhələlərini maraqla izləmişəm. Nəticədən çox məmnunam. Demokratiya yolunda uğurlarımız göz qabağındadır. Deputatlığa namizədlər arasında sivil qaydada aparılan mübarizə, ayrı-seçkilik qoyulmadan hər bir namizəd üçün bərabər əsasda yaradılan şərait təbliğat-təşviqat kampaniyasının formallıqdan çıxaraq ciddi rəqabətlə müşayiət olunması demokratik ab-hava kimi razılıq doğurur.

47 saylı Mingəçevir dairə seçki komissiyasının sədri Oqtay Məmmədovdan öyrəndik ki, mövcud 30 məntəqənin hamısında səsvermə qanunauyğun qaydada keçib. Dairəyə qanun pozuntusu ilə bağlı heç bir ciddi şikayət daxil olmayıb. Seçki siyahılarına 37.745 nəfər şəhər sakinin adı daxil edilmişdir. Seçki prosesində aşkarlığı təmin etmək üçün 12 məntəqədə veb-kameralar quraşdırılmışdır.

**ASTARA**

Rayon ərazisində 77 saylı Astara seçki dairəsi üzrə 44, 76 saylı Lənkəran-Astara seçki dairəsi üzrə 25 seçki məntəqəsi fəaliyyət göstərir.

Parlament seçkilərinə hazırlıqla əlaqədar hər iki dairə üzrə məntəqələr səsverməyə tam hazırlanmış, seçki məcəlləsinin tələblərinə əməl edilməklə, seçkilərin demokratik, şəffaf keçirilməsinə nail olmaq üçün qanunla müəyyən olunmuş bütün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Astara şəhər 3 saylı seçki məntəqəsində səs verən şəhər sakini Gülnarə Məcidova dedi ki seçki məntəqələrinə gələnlər səslərini dövlətin yürütdüyü siyasətə uyğun olaraq inkişafa, tərəqqiyə yönələn qanunların qəbul edilməsində aktivlik göstərən, ictimaiyyətdə nüfuzu olan şəxslərə verirlər. Seçicilərin fəallığını həm də ölkədə və rayonumuzda son illər baş verən əsaslı dəyişikliklər, aparılan tikinti və quruculuq işləri, sosial problemlərin həlli məqsədilə həyata keçirilən proqramlar və əhalinin həyat şəraitinin ilbəil yaxşılaşması istiqamətində görülən dövlət tədbirləri ilə izah etmək olar.

Digər şəhər sakini Əli İskəndərov da səsvermənin gedişindən razı qaldığını ifadə etdi: "Milli Məclis qanunverici orqan olduğu üçün qanunların qəbul edilməsində aktiv olan, savadlı, bacarıqlı namizədlərə səs vermək əsasdır. Səs verəcəyimiz namizədin kimliyini bilməli, seçimimizi düzgün etməliyik. İnanıram ki, Milli Məclisin rayonumuzdan seçiləcək üzvü ən fəal deputatlardan olacaq".

Kijəbə qəsəbə 8 saylı seçki məntəqəsində səs verən Ələkbər İsayev qeyd etdi ki, hər birimiz üçün önəmli olan qanunların qəbul edilməsində, ölkəmizin, o cümlədən rayonumuzun inkişafı ilə bağlı mühüm əhəmiyyətli məsələlərin həllində fəallıq göstərə biləcək şəxsə səs verdim: "Səs verdiyim 8 saylı seçki məntəqəsində bütün səsvermə prosesi seçki qanunlarına uyğun qurulmuşdur. Hər bir seçici üçün öz seçimini etməyə yüksək şərait yaradılmışdır. Belə azad, demokratik bir ölkədə yaşamağımdan böyük məmnunluq hissi keçirirəm".

Astara şəhər 2 saylı seçki məntəqəsində səs verən şəhər sakini Rövşən Mirzəyevdən də səsvermənin gedişini öyrəndik. O, məntəqədə seçkilərin azad, demokratik keçirildiyini bildirərək qeyd etdi ki, parlament seçkilərində namizədliyi qeydə alınmış 15 nəfərdən bu günkü iqtidarın siyasətinə dəstək verən ən layiqli namizədə səs verdim.

Ümumiyyətlə, rayonun hər iki dairəsinə daxil olan seçki məntəqələrində Milli Məclisə seçkilərin şəffaf, ədalətli və obyektiv keçirilməsi üçün yüksək şərait yaradılmışdır. Bunu məntəqələrdə seçkinin müşahidə edən həm müxalifət, həm də qeyri-hökumət təşkilatlarının nümayəndələri də etiraf etdilər. Ana Vətən Partiyasının nümayəndəsi Rafiq Əliyev rayonda seçkilərin demokratikliyinə qətiyyən şübhə etmədiyini bildirərək dedi ki, 1 saylı seçki məntəqəsində də seçki qanunvericiliyinin tələblərinə ciddi əməl olunur.

**ŞAMAXI**

85 saylı Şamaxı Seçki Dairəsində Milli Məclisə seçkilər seçicilərin yüksək fəallığı şəraitində keçib.

Dairənin sədri Hüseyn Rəcəbov bildirdi ki, dairənin əhatə etdiyi 63 məntəqədə 41 min 648 nəfər seçici var. Onlar 9 nəfər arasında istədikləri namizədə səs verənlərdir. Müraciət edən xəstə və ahıl seçicilər üçün səyyar qutu vasitəsilə səsvermə həyata keçirilib.

Məntəqələrdə səsvermə Seçki Məcəlləsinə uyğun olaraq tam aşkarlıq və demokratik şəraitdə keçib. Seçkinin gedişini ayrı-ayrı siyasi partiyalardan olan və öz təşəbbüsü ilə qeydə alınan 830 nəfər müşahidəçi, həmçinin ATƏT-dən olan 4 nəfər, AŞ PA-dan 2 nəfər, MDB-dən də 2 nəfər izləyib.

**XAÇMAZ**

Xaçmaz rayonunda 2 seçki dairəsi fəaliyyət göstərirdi. 55 saylı Xaçmaz şəhər seçki dairəsi rayon mərkəzində yerləşir. DSK-nın sədri Bəhram Ömərov bildirdi ki, parlament seçkilərində qeydə alınan namizədlər üçün hər cür şərait yaradılıb. Dairə üzrə 594 yerli müşahidəçinin izlədiyi səsvermə yüksək fəallıqla keçir.

Seçki dairəsində seçicilərin sayı 44382 nəfərdir. Rayon üzrə formalaşan 42 məntəqənin 12-də veb-kamera quraşdırılıb. Dairə üzrə ilk dəfə səs verənlər 365 nəfərdir.

Seçkidə ilk dəfə iştirak edən Xaçmaz rayonunun Qaradağ Buduq kənd sakini Bahadır Müslümov seçki məntəqəsində xoş sürprizlə qarşılaşıb. Fevralın 9-da doğum gününü qeyd edən B.Müslümovu ilk təbrik edən 55 saylı Xaçmaz şəhər seçki dairəsinin 21 saylı məntəqəsinin komissiya üzvləri olub. 18 yaşı tamam olan gəncə Mərkəzi Seçki Komissiyası tərəfindən göndərilmiş "İlk dəfə səs verən seçici" vəsiqəsi təqdim olunub.

8 saylı seçki məntəqəsində seçici fəallığı hiss edilirdi. Məntəqə seçki komissiyasının sədri Cəlil Mərdanov dedi ki, 1357 seçicinin qeydə alındığı məntəqədə seçkini 14 yerli müşahidəçi izləyir. İlk dəfə səs verənlərdən Aytac Məmmədnəbiyeva, Rəvan Teymurov, Qumru Tahirova və başqaları müstəqil dövlətimizlə fəxr etdiklərini bildirdilər.

MDB-dən gələn müşahidə qrupunun üzvləri 8 saylı məntəqədə olublar. Müşahidəçilər Osman Abdulkərimov, Alahuddin Mirzəbalayev, Baqaquddin Qusayev seçkinin gedişindən razı qaldıqlarını bildiriblər.

**BİLƏSUVAR**

66 saylı Biləsuvar seçki dairəsində görülmüş ciddi hazırlıq işləri seçkinin yüksək səviyyədə keçirilməsinə imkan yaradıb. Dairə üzrə parlamentə mandat uğrunda 9 namizəd mübarizə aparır. Namizədlərin 7 nəfəri bitərəf, 1 nəfəri Müsavat Partiyasından, 1 nəfəri isə Yeni Azərbaycan Partiyasından irəli sürülüb. Prosesi beynəlxalq müşahidəçilər izləyir, bütün məntəqələrdə namizədlərin, qeyri-hökumət təşkilatlarının təmsilçiləri müşahidə aparırlar.

Qeyd edək ki, DSK üzrə 44 seçki məntəqəsinin 49 min 460 seçicisi var. Seçkilərin gedişatını izləmək üçün 740 yerli müşahidəçi qeydiyyatdan keçib. 2 nəfər ATƏT-in uzunmüddətli beynəlxalq müşahidəçisi də seçki məntəqələrində müşahidə aparırdı. 10 məntəqədə veb-kamera quraşdırılıb. Adı siyahıya daxil edilənlərdən 115 nəfəri bu il ilk dəfə səsvermə hüququ qazanan gənclərdir.

Dairənin Rayon Uşaq Xəstəxanasında yerləşən 1 saylı seçki məntəqəsində də səsvermənin gedişini izlədik. Aram-aram qar yağırdı. Çoxdan bəri bu ilk qarın arzusunda olan insanların üzü gülürdü. Məntəqə seçki komissiyasının sədri İbadət Babayev bildirdi ki, bugünkü seçicilər daha 15-20 il əvvəlki seçicilər deyil: "Hamı öz hüquq və vəzifələrini yaxşı bilir. Heç kəs seçicilərə təzyiq edə, istiqamət verə bilməz. Buna görə də səsvermə normal və qanunauyğun şəraitdə gedir".

75 yaşlı şəhər sakini Qəhrəman Şahbazovdan seçki haqqında fikrini soruşduq. Dedi ki, məntəqədə seçicilər üçün çox yaxşı şərait yaradılıb. İnanmaq istəyirəm ki, bu səsvermədən sonra qalib gələn namizəd etimadı doğrultmağa, insanların sosial-rifah halının daha da yaxşılaşdırılmasında yüksək fəallıq göstərməyə çalışacaq".

Rayon mərkəzindəki seçki məntəqələrində olduğu kimi, kənd seçki məntəqələrində də fəallıq var idi. Arazbarı kəndi rayon mərkəzindən 30 km uzaqda yerləşir. Kəndin 26 saylı seçki məntəqəsində 378 seçici qeydiyyata alınıb. Onlardan 11 nəfəri ilk dəfə səs verən gənclər, 4 nəfəri yaşı 80-dən yuxarı olan ahıllardır. Müşahidəçi Dayandur Quliyev bildirdi ki, heç bir pozuntu hallarına yol verilməyib.

**CƏLİLABAD**

Rayonda 3 seçki dairəsi - 67 saylı Cəlilabad şəhər, 68 saylı Cəlilabad kənd və 69 saylı Cəlilabad-Masallı-Biləsuvar dairə seçki komissiyaları fəaliyyət göstərir.

3 dairənin hər birində 10 namizəd deputat mandatı uğrunda mübarizə aparırdı. Seçkilərin gedişini izləmək üçün dairələrin hamısında müxtəlif partiyalardan, habelə öz təşəbbüsü ilə irəli sürülən müşahidəçilər qeydə alınmışdır. Dairələrin bir neçə məntəqəsində veb-kamera quraşdırılmışdır.

67 saylı DSK-nın 3 saylı məntəqəsinin həyətində xeyli adam var idi. Onlardan bir çoxu artıq səs vermişdir. Xanlar Mirzəyevdən səsvermənin necə keçdiyini soruşduq. Dedi ki, səs verdiyim namizəd gəncdir, təşəbbüskardır, camaat arasında nüfuzu, hörməti var: "Əminəm ki, seçilsə, Milli Məclisdə qəbul olunacaq qanunlar zamanı fəallıq göstərəcək. Mən əkinçiliklə məşğul oluram. Cəlilabad əhalisinin çoxu da mənim kimi. Sahibkarlara, torpaq mülkiyyətçilərinə son illər göstərilən diqqət və qayğı bizi çox ruhlandırmışdır. Yeni tətbiq edilən elektron sistem işimizi xeyli asanlaşdırıb. İnanıram ki, təzə parlament daha səmərəli işləyəcək".

Müşahidəçi Ziya Aslanov da seçkilərin azad, sərbəst, demokratik keçdiyini bildirərək dedi ki, vətəndaşlara qarşı heç bir təzyiq göstərilmir.

68 və 69 saylı dairə seçki komissiyalarının məntəqələrində də seçkilərin qanun pozuntusuna yol verilmədən keçdiyinin şahidi olduq.

**AĞDAM**

Respublikanın digər bölgələrində olduğu kimi, Ağdam rayonunda da seçkilərin təşkili yüksək səviyyədə idi. 119 saylı Ağdam kənd seçki dairəsində səsvermə başlanan ilk saatlardan seçicilərin fəallığı diqqət çəkirdi, hər kəs öz namizədinə səs vermək üçün məntəqələrə üz tutmuşdu.

Ümumilikdə seçki dairəsi 42 seçki məntəqəsini əhatə edir və seçicilərin ümumi sayı 42 min 447 nəfər idi. Məntəqələrdə Milli Məclisə seçkilərin demokratik və şəffaf keçirilməsi üçün bütün şərait yaradılmışdı.

Müşahidə apardığımız 1 saylı seçki məntəqəsində seçicilərin fəallığı xüsusilə gözə çarpırdı. Quzanlı qəsəbəsində Dövlət İqtisad Kollecinin binasında yerləşən məntəqədə qeydiyyata alınan seçicilərin sayı 1448 nəfər idi. Məntəqə seçki komissiyasının sədri Rima Verdiyeva səsvermənin qanunun tələblərinə uyğun qaydada, şəffaf, ədalətli həyata keçirildiyini bildirdi. O, eyni zamanda demokratiyaya ciddi əməl olunduğunu vurğuladı. Burada olduğumuz zaman diqqət çəkən önəmli məqamlardan biri də gənc seçicilərin fəallığı idi. Kərim Həsənov, Ayşən Fətəliyeva, Malik Əmrahov və digər gənclər sevincli görünür, seçkilərə böyük maraq göstərirdilər.

Bənövşələr kənd orta məktəbin binasında yerləşən 21 saylı seçki məntəqəsinin önündə də qələbəlik hökm sürürdü. Məntəqə seçki komissiyasının sədri Tünzalə Vəliməmmədova dedi ki, veb-kamera quraşdırılmış bu məntəqədə 1390 seçici qeydə alınıb. Sərbəst səsvermə üçün hər cür şərait yaradılıb. Müşahidəçilər, KİV və ictimaiyyət nümayəndələrinə seçkini izləmək üçün müvafiq yerlər ayrılıb.

Məntəqədə səs verən Elcan Mehdiyevə müraciət edərək seçki ilə bağlı təəssüratlarını öyrəndik. Bildirdi ki, həmişə olduğu kimi, budəfəki seçkilərdə də mütəşəkkillik hiss olunur: "Şəxsən mən Ağdamı sevən, onun inkişafına töhfə verməyə hazır olan namizədi dəstəklədim".

Seçicilərdən Zeynəb Kərimli və Rövşən Hüseynov da sübh tezdən məntəqəyə gələrək səs verənlərdən idilər. Onlar da layiq bildikləri namizədə səs verdiklərini və seçicilərə hərtərəfli şəraitin yaradıldığını dedilər.

**LERİK**

Lerikə güclü qar yağmasına baxmayaraq, seçicilər bazar günü şəhər yuxudan erkən oyanmışdılar. Ahıllar, cavanlar Milli Məclisə seçkilərdə səsverməyə gedirdilər. Heydər Əliyev adına meydandan azca aralıda kənd təsərrüfatı işçiləri üçün üçmərtəbəli inzibati bina, uşaq bağçası, Bayraq Muzeyi tikilib. Prezident İlham Əliyev Lerikə dördüncü səfərində bu tikililərin, eləcə də su kəmərinin, modul elektrik stansiyasının açılışında iştirak edib, ictimaiyyət nümayəndələri ilə görüşüb. Dövlət başçısı şəhərdə aztəminatlı 48 ailə üçün yaşayış evinin tikintisinə sərəncam imzalayıb. Seçkilər ərəfəsində mənzillər qapılarını sakinlərin üzünə açıb, dağlardan şəhərə alternativ su kəmərinin çəkilməsi başa çatdırılıb. Lerik şəhər internat məktəbi əsaslı təmir olunub, üçmərtəbəli yataqxananın, idman zalının tikintisi davam etdirilir.

Saat 8-də Mədəniyyət sarayındakı 1 saylı seçki məntəqəsində 1289 nəfər seçici qeydə alınıb, səsverməni izləmək üçün veb-kamera quraşdırılıb.

92 yaşlı Baba Malıyev vəsiqəsini təqdim edib, səsvermə bülletenini alır və kabinəyə keçir. Bülleteni qutuya salanda "Səsimi Azərbaycanda əmin-amanlığa verirəm", - deyir. Növbə ilk dəfə səs verən Lalə Şahıyevaya çatır. Ona bülletenlə bərabər gül dəstəsi də təqdim olunur. Müşahidəçilər səsvermənin gedişini diqqətlə izləyir, qanunvericiliyə uyğun, ədalətli və şəffaf keçdiyini söyləyirlər.

78 saylı Lerik seçki dairəsinin sədri İdris Şıxəliyev bildirdi ki, rayonun 108 məntəqəsində səsvermə seçicilərin fəallığı ilə keçib.

**QUBADLI**

Parlament seçkiləri günü qubadlılı məcburi köçkünlər seçki məntəqələrinə gələrək istədikləri namizədə səs verdilər. Hazırda 39 minə yaxın Qubadlı sakini (işğaldan əvvəl 29903 nəfər) respublikanın 42 rayon və şəhərində müvəqqəti məskunlaşıb.

Qubadlı sakinlərinin əksər hissəsi Sumqayıt şəhərindədir. Rayonun icra strukturları, idarə və təşkilatları əsasən burada fəaliyyət göstərir.

125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin 36 saylı məntəqəsi Sumqayıt şəhər İnşaatçılar qəsəbəsində, İşıqlı kənd tam orta məktəbinin binasında təşkil edilib. Məntəqə seçki komissiyasının sədri Fərhad Yusifov bildirdi ki, məntəqə üzrə seçicilərin sayı 1136 nəfərdir. Məntəqə Qubadlı rayonunun Yuxarı Mollu, Xanlıq, Muradxanlı və digər kəndlərinin sakinlərini əhatə edir.

Məntəqədə 3 nəfər gənc ilk dəfə səs verib. Onlardan biri Fidan Abbaslı gələcək seçkilərdə namizədliyini irəli sürəcəyini bildirib.

Məntəqə üzrə yaşı 80-100 arası seçicilərin sayı 21 nəfərdir. Onların seçkiyə gəlməsi və səsverməsi üçün bütün məsələlər həll edilmişdi. Yaşlı nəslin nümayəndələri Surxay Aslanov, Güldanə Yusifova və Məstan Əsədova kimi uzunömürlülər Qubadlının azad olunacağı və torpaqlara dönəcəkləri günə səs verdiklərini bildirdilər.

Seçki məntəqəsində 11 müşahidəçi səsvermənin gedişini izləyirdi. Onların əksəriyyəti müxtəlif partiyaları təmsil edirdi.

53 saylı seçki məntəqəsində də səsvermə üçün bütün şərait yaradılmışdı. 10 seçici məntəqəyə gələ bilməyəcəyini bildirmişdi. Onların evinə daşınan qutu aparıb səsvermələri təmin edilmişdir.

**SALYAN**

Səhər saat 8 radələridir. Adamlar aramla yağan qarın "müşayiət"i ilə dəstə-dəstə məntəqələrə gedirlər. Hiss olunur ki, onlar ali qanunvericilik qurumuna - Milli Məclisə keçirilən növbədənkənar seçkilərdə iştirak etməyin, seçdikləri namizədə səs verməyin vətəndaşlıq borcu olduğunu yaxşı bilirlər. Onu da yaxşı bilirlər ki, hakimiyyətin bütün pillələrində həyata keçirilən yeniliklər onların firavan, xoşbəxt yaşamalarına hesablanmışdır.

59 saylı Salyan DSK-nın 9 saylı səsvermə məntəqəsindəyik. Qələbəlikdir. Seçicilərin bir neçəsi ilə söhbət edib təəssüratlarını bildirmələrini xahiş edirik. Esmira Məmmədova sərbəst, azad şəkildə istədiyi namizədə səs verdiyini, həmin namizədin seçiləcəyi halda etimadı doğruldacağına əmin olduğunu söylədi. Digər seçicilər - Yolçu Məmmədov və Gülşən Cəfərova da sabitliyə, gələcək inkişafa tərəfdar olduqlarına, səs verdikləri namizədin də bu sahədə çalışacağına inandıqlarını bildirdilər.

"Vəhdət" Partiyasından olan müşahidəçi Mahirə Sultanova məntəqənin qapıları açılandan, yəni saat 8-də səsvermə prosesi başlandığı andan burada olduğunu, ötən saatlarda heç bir təzyiq, qanun pozuntusu, xoşagəlməz hal ilə rastlaşmadığını söylədi.

Rayonun Qarabağlı kəndi ərazisində yerləşən 60 saylı Salyan-Neftçala DSK üzrə 39 seçki məntəqəsi mövcuddur. Seçicilərin ümumi sayı 39 min 112 nəfərdir. Dairə üzrə 9 nəfər namizəd Milli Məclisə keçirilən seçki marafonuna qoşulmuşdur. Seçkilərin gedişini izləmək üçün 746 müşahidəçi qeydiyyatdan keçmişdir.

DSK-nın 11 saylı məntəqəsində də seçkinin gedişi ilə tanış olduq. Digər yerlərdə olduğu kimi, burada da seçici fəallığı hiss olunurdu. İnsanlar məntəqəyə gələrək öz seçimlərini edirdilər. Seçici Günel Muradova "Azad, sərbəst, şəffaf şəkildə öz seçimimi etdim. Mənə elə gəlir ki, başqa seçicilər də dediyim bu sözlərlə razılaşarlar", - dedi.

**ŞİRVAN**

Fevralın 9-da sübh tezdən Şirvanda gediş-gəliş adi saatlardan tez başlamışdı. Seçki hüququna malik şəhər sakinləri seçki məntəqələrinə gedirdilər. Onu da qeyd edək ki, Şirvanda Milli Məclisə keçirilən seçkilərə ciddi hazırlıq işləri aparılmışdır. Parlament seçkilərində 46 saylı Şirvan DSK üzrə 34 məntəqədə 43 min 417 seçici qeydə alınmışdır.

Şəhid Bəhruz Aslanov adına Şirvan şəhər 16 nömrəli tam orta məktəbdə yerləşən 27 saylı məntəqə seçki komissiyasının sədri Çingiz Şirəliyev seçiciləri salamlayandan sonra Əlibala Quliyev, Famil Vəliyev, Əkbər Ələkbərov ilk olaraq bülleten götürdülər.

Şirvan şəhər Ağsaqqallar Şurasının sədri Fəxrəddin Rəhimov dedi ki, sovetlər dönəmində də, müstəqillik illərində də seçkilərdə iştirak edib. Keçən ilin 23 dekabrında bələdiyyə seçkilərində də vətəndaşlıq borcunu ailəlikcə birlikdə yerinə yetirib: "Bu seçki əvvəlkilərdən xeyli fərqlidir. Əvvəla deputatlığa namizədlər çoxdur. İkincisi, onların təbliğat-təşviqat aparmaları üçün hər cür şərait yaradılmışdır. Namizədlər yaradılmış şəraitdən lazımınca bəhrələndilər".

Məntəqədə 15-dək müşahidəçi üçün də əlverişli şərait yaradılmışdı. Onlardan biri müşahidəçi T.Quliyev dedi ki, seçkiləri sərbəst, maneəsiz izləmək üçün məntəqədə hər cür şərait var.

Müşahidə etdiyimiz 7,8,21 nömrəli məntəqələrdə də analoji vəziyyətlə rastlaşdıq.

**BƏRDƏ**

Bərdə rayonu ərazisində 93 və 94 saylı iki dairə seçki komissiyası fəaliyyət göstərir. 93 saylı Bərdə şəhər seçki dairəsi 50 məntəqəni əhatə edir. Dairə üzrə seçicilərin sayı 44.244 nəfərdir. Bunların 610 nəfəri ilk dəfə səs verənlərdir. Seçki bülletenlərinə 6 nəfər deputatlığa namizədin adı daxil edilmişdir. Namizədlərdən biri Yeni Azərbaycan Partiyasının təmsilçisidir. Namizədlərin beşi isə öz təşəbbüsü ilə seçkilərə qatılıb.

Qışın soyuğuna, sazağına baxmayaraq Bərdə şəhərinin sakinləri yüksək əhvali-ruhiyyə ilə seçki mənətəqələrinə yollanıb səsvermədə fəal iştirak etdilər.

Müsahibimiz şəhər sakini Fəqan İbrahimov təəssüratını bizimlə belə bölüşdü: "Heç bir təsir, hər hansı bir təzyiq olmadan öz iradəmi ifadə etdim. Şahidi olduğum siyasi mənzərə dövlətçilik baxımından qürurvericidir. Mən tarix müəllimiyəm. Yaşım da az deyil. 1990-cı illərdəki seçki prosesləri, siyasi toqquşmalar, tayfa qarşıdurmaları, xaos, anarxiya, ümidsizlik məngənəsində sıxılan adamların çıxılmaz vəziyyətini hələ də unutmamışam. Fikrimcə, dövlətimizin inkişafını təkcə təzə tikilən yaraşıqlı binalarla, abad küçə və meydanlarla, yeni salınan rahat yollarla, son illərdə inşa olunmuş çoxsaylı məktəb və xəstəxanalarla, idman kompleksləri ilə hesablamaq yanlış olar. Son illərin ən böyük uğurları sırasına, mən deyərdim ki, demokratik seçki ənənəsinin yaradılmasını da əlavə etmək lazımdır. Bu gün Bərdədəki seçki məntəqələrində olub dəqiq müşahidə aparsanız, mənimlə razılaşarsınız".

Bərdə rayonunun seçki məntəqələrində səsvermə qanunun tələblərinə uyğun ədalətli və şəffaf qaydada başa çatdı.













# SEÇKİLƏR AZAD, DEMOKRATİK VƏ ŞƏFFAF KEÇDİ





**ZƏNGİLAN**

1993-cü ilin oktyabrından məcburi köçkün həyatı yaşamağa məcbur olan zəngilanlılar 46 rayon və şəhərdə yaşayırlar. Hazırda rayon əhalisi 45 000 nəfərdən çoxdur.

125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin 18 saylı məntəqəsi Sumqayıtın İnşaatçılar qəsəbəsində yerləşən Zəngilan 18 saylı tam orta məktəbin binasında fəaliyyət göstərir. Məntəqə seçki komissiyasının sədri Səmiyəddin Sayılov bildirdi ki, 1392 seçicinin iştirak edəcəyi seçkini 15 nəfər yerli müşahidəçi izləyir.

Məntəqədə ilk dəfə səsverənlər 6, yaşlı nəslin nümayəndələri 30 nəfərdir. S.Sayılov bildirdi ki, zəngilanlıların seçici aktivliyi həmişə yüksək olub və bu gün də onlar məntəqəyə gələrək istədikləri namizədə səs verirlər.

Həmin dairənin 19 saylı məntəqəsi 23 saylı Zəngilan tam orta məktəbin binasında yerləşir. Səma Cavadzadə, Arzu Məmmədova, Zeynəb Məmmədli, Yeganə Mahmudova və digərləri seçkinin gedişindən razı qaldıqlarını bildirdilər. 14 nəfər müşahidəçinin izlədiyi məntəqədə qanun pozuntusuna yol verilməyib.

**OĞUZ**

Həyatında ilk dəfə səsvermədə iştirak edən Oğuz rayonunun Xalxalqışlaq kənd sakini Ceyhun İsmayılzadə Milli Məclisə seçkilər günündə ikiqat sevinc hissi yaşayıb.

Fevralın 9-da 18 yaşı tamam olan Ceyhun İsmayılzadə səs vermək üçün 117 saylı Oğuz-Qəbələ seçki dairəsinin Xalxalqışlaq kəndində yerləşən 3 saylı seçki məntəqəsinə gələndə sürprizlə qarşılaşıb. Məntəqə seçki komissiyasının sədri Araz Cəfərov gənc seçicini doğum günü münasibətilə təbrik edərək, ona Mərkəzi Seçki Komissiyası tərəfindən göndərilmiş "İlk dəfə səs verən seçici" vəsiqəsini təqdim edib.

Doğum gününün parlament seçkiləri gününə təsadüf etməsindən böyük qürur hissi keçirdiyini bildirən Ceyhun İsmayılzadə deyib: "Xoşbəxtəm ki, doğum günüm belə əlamətdar günə təsadüf edir. İlk dəfədir səs verirəm və bununla fəxr edirəm. Bu tarixi gün yaddaşımda xoş bir xatirə kimi əbədi qalacaq".

Qeyd edək ki, 117 saylı Oğuz-Qəbələ seçki dairəsi üzrə parlament seçkilərində ilk dəfə səs verən gənclərin sayı 64 nəfərdir.





**MASALLI**

Hər tərəf ağ örpəyə bürünmüşdü. Amma buna rəğmən, seçici fəallığı yüksək idi. 70 saylı Masallı DSK 36 saylı Qasımlı kənd məntəqəsi tam orta məktəbin binasında yerləşmişdir. Seçicilərin sayı 1247 nəfər olan məntəqədə ilk dəfə səs verənlərin sayı 5 nəfərdir.

Yaşı 60-ı keçmiş Rəzzaq Məmmədov dedi ki, mən bugünkü əmin-amanlığımızdan, ölkə rəhbərliyinin daxili və xarici siyasətindən çox razıyam: "Bütün xalq Prezidenti dəstəkləyir, onun dəstxətini bəyənir. Mən elə bunları nəzərə alıb ən layiqli hesab etdiyim namizədə səs verdim. Bundan şəffaf, azad seçim ola bilməz. Hər kəsə demokratik şəkildə öz seçimini etmək imkanı yaradılıb.

70 saylı Masallı şəhər DSK-nın sədri İlkin Hüseynov və 71 saylı Masallı kənd DSK-nın sədri Loğman Şahbazovdan aldığımız məlumata görə, bir sıra məntəqələrdə seçki prosesini yerli müşahidəçilərlə bərabər, beynəlxalq müşahidəçilər də izləmişlər.

**QAX**

Milli Məclisə seçkilər 112 saylı Qax seçki dairəsinin 58 seçki məntəqəsində keçirilib. Bu dairə üzrə 9 namizəd parlamentə vəsiqə almaq uğrunda mübarizə aparıb.

Seçki məntəqələrinin 10-da "exit-poll" təşkil olunub. "Rəy" Monitorinq Mərkəzi tərəfindən keçirilən "exit-poll" dairənin Qax şəhərində yerləşən 7, 56 və 57 saylı, həmçinin Cəlayer kəndindəki 9, Ağçay kəndindəki 12, Qum kəndindəki 23, Güllük kəndindəki 30, Ləkəli kəndindəki 36, Şotavar kəndindəki 38 və Marsan kəndindəki 43 saylı seçki məntəqələrini əhatə edirdi.

Qax şəhərindəki 56 saylı seçki məntəqəsində "exit-poll"da "Rəy" Monitorinq Mərkəzinin nümayəndəsi Ülvi Məmmədli seçicilərin fəallığının yüksək olduğunu, sorğuda həvəslə iştirak etdiklərini bildirib.

Səsvermənin gedişini 772 nəfər yerli, həmçinin beynəlxalq müşahidəçilər izləmişlər.

**XIZI**

44 saylı Sumqayıt-Xızı dairə seçki komissiyasının 32 saylı seçki məntəqəsi Sitalçay kəndindəki Nicat Allahverdiyev adına tam orta məktəbdə fəaliyyət göstərirdi. Məntəqə seçki komissiyasının sədri Xanımzadə Hətəmova bildirdi ki, səhər səsverməyə başlanandan seçicilərin fəallığı hiss olunur. Məntəqədə qeydə alınmış seçicilərin sayı 1156 nəfərdir.

32 saylı məntəqə seçki komissiyasının üzvü Gülnar Əbilova bildirdi ki, məntəqədə seçkilərin şəffaf keçməsi üçün bütün şərait yaradılıb. Dairənin 31 saylı məntəqəsində və Şorabad qəsəbə tam orta məktəbin binasında təşkil olunan məntəqədə də eyni vəziyyətin şahidi olduq.



**SİYƏZƏN**

54 saylı Şabran-Siyəzən seçki dairəsinin 70 məntəqəsindən 24-ü Siyəzənin payına düşür. 52315 seçicinin 21795 nəfəri Siyəzəndə yerləşən məntəqələrdə qeydə alınmışlar.

46 saylı seçki məntəqəsi Siyəzən rayon Cəfər Cabbarlı adına 1 saylı tam orta məktəbin binasında təşkil olunub. Məntəqə seçki komissiyasının sədri Nəcməddin Mürvətov bildirdi ki, 1497 nəfərin qeydə alındığı məntəqədə seçicilər şəffaf və demokratik şəkildə öz namizədlərinə səs verirlər.

N.Mürvətov onu da vurğuladı ki, seçkilərdə məntəqə üzrə ilk dəfə səs verənlərin sayı 5 nəfərdir. Yaşı 80-ni haqlamış Raya Məmmədova bildirdi ki, həmişə seçkilərdə iştirak etməyi vacib bilib. Sovet dönəmində kimin seçiləcəyini qabaqcadan hamı bilirdi. Bu gün isə tamamilə başqa cürdür. Bütün bunlar demokratiyanın nəticəsidir. İnşallah, gözü tərəzi olan xalq öz layiqli seçimini edər".

Ümumiyyətlə, 46 saylı seçki məntəqəsində yaşlı insanların (yaşı 80-ni adlamış) sayı 10 nəfərdir. Səmayə Aslanova, Gülxurə Bağırova və başqaları seçkidə fəallıqları ilə seçilirdi.

Seçkinin gedişini məntəqədə 11 nəfər müşahidəçi izləyirdi. Onlar seçki prosesindən razılıqlarını bildirdilər.

**AĞDAŞ**

Ölkəmizin hər yerində olduğu kimi, 90 saylı Ağdaş seçki dairəsində də Milli Məclisə seçkilərin mühüm mərhələsi olan səsvermədə şəffaflığın təmin olunmasına ciddi diqqət yetirilmişdir.

Dairə seçki komissiyasının sədri Nurəddin Nəsibov bununla bağlı demişdir ki, səsvermə fevralın 9-da səhər saat 8:00-dən başlamış, bu mühüm proses seçicilərin fəallığı şəraitində keçmişdir. Dairə üzrə 40 məntəqədə 9 nəfər parlamentə mandat almaq uğrunda mübarizə aparmışdır. Seçicilərin 106 nəfəri ilk dəfə, 3 nəfəri isə 100 yaşdan yuxarı səs verənlərdir.

Səsvermənin gedişini məntəqələrdə 563 müşahidəçi izləmişdir.

**QUBA**

52 saylı Quba Seçki Dairəsi üzrə seçicilərin sayı 46952 nəfərdir. Dairə üzrə seçki məntəqələri bütün texniki avadanlıqlarla təmin edilib. Rayon üzrə fəaliyyət göstərən 72 seçki məntəqəsinin 10-da kameralar quraşdırılıb. 7 kamera rayon mərkəzini, 3-ü isə Vəlvələ, Dağlı və Qəçrəş kəndlərindəki məntəqələri əhatə edir.

Dairə üzrə qeydə alınan müşahidəçilərin sayı 730 nəfərdir. Onlar respublikamızda fəaliyyət göstərən partiya nümayəndələri və bitərəflərdir. DSK-nın sədri Mübariz Abasov bildirdi ki, seçkidə ilk dəfə səs verən gənclərin sayı 258 nəfərdən çoxdur. İstər rayon mərkəzi, istərsə də kəndlərdə gənclər öz seçki fəallıqları ilə seçilirlər.

Dairə üzrə yaşı 80-dən yuxarı şəxslərin sayı 627 nəfərdir. 72 məntəqənin hər birində seçkinin şəffaf və demokratik keçirilməsi üçün hər bir şərait yaradılıb.

53 saylı Quba-Qusar seçki dairəsi 76 məntəqəni əhatə edir. 61 məntəqə Quba, 15-i isə Qusar ərazisinin sakinləridir. DSK-nın sədri Rahim Qarayev bildirdi ki, ilk dəfə səs verən 215 gəncimiz var.

Seçkinin gedişini 950 müşahidəçi izləyirdi. 14 namizədin qatıldığı seçkinin demokratik və şəffaf keçirilməsi üçün dairənin bütün məntəqələrində seçki qanunvericiliyinə uyğun şərait yaradılmışdı.

**ŞABRAN**

54 saylı Şabran-Siyəzən seçki dairəsinin 70 məntəqəsində 52315 nəfər seçici qeydə alınıb. Dairənin 1 saylı seçki məntəqəsi Şabran rayon 2 saylı tam orta məktəbin binasında fəaliyyət göstərir.

Yaşı 80-ni adlamış Zərurət Əliyev, Sübhan Rahimov, Rafiq Əsədullayev və digərləri seçkinin gedişindən razı qaldıqlarını bildirdilər. M.Osmanova, R.Daşdəmirova, E.Orucova səsvermədə ilk dəfə iştirak edirdilər. Tələbə olan bu qızlar gülə-gülə dedilər ki, şəffaf keçirilən seçkilərdə onların namizədləri qalib gələcək.

Onu da bildirək ki, veb-kameranın quraşdırıldığı məntəqədə seçki proseduru qayda pozuntusu olmadan aparılırdı.

DSK-nın 2 saylı məntəqəsində ilk dəfə səs verən gənclər - Məleykə Xudaverdiyeva, Elşad Fərhadov, Xəyal Tarıverdiyev, Cülşad Əliyeva da ölkəmizin gələcəyinə, inandıqları namizədə səs verdiklərini bildirdilər. Məntəqədə onların hər birinə gül dəstələri təqdim edildi.

Burada yaşı 80-dən yuxarı insanlara da qayğı ilə yanaşılırdı. Məntəqə üzrə onların sayı 34 nəfərdir. Çingiz və Şəfaqət Osmanovlar birlikdə səs verərək hamıya uğurlar dilədilər. Vüqar, Zülfiyyə və İnci Şükürovlar ailəliklə seçkidə iştirak edirdilər. Onların da hər biri ayrılıqda istədikləri namizədə səs verdilər.

Seçki günü seçkinin gedişini izləyəcək müşahidəçilər üçün də xüsusi yer ayrılmışdı. 16 müşahidəçi qanun pozuntusuna yol verilmədiyini bildirdi.

***"Azərbaycan"***

# Məcburi köçkünlər seçkilərdə fəallıq göstərdilər

Ölkəmizdə müstəqilliyin bərpasından sonra Milli Məclisə keçirilən seçkilər dövlətimizin və xalqımızın tarixinə, taleyinə mühüm hadisə kimi yazılıb. Azad, demokratik şəraitdə özünün seçmək və seçilmək hüquqlarından istifadə edən insanlar növbəti dəfə, fevralın 9-da yenidən seçki məntəqələrinə üz tutmuşdular. Budəfəki seçkilərdə ilk növbədə diqqəti çəkən məsələ seçicilərin əksəriyyətinin gənclərdən ibarət olmasıdır. Yüz minlərlə gənc ilk dəfə idi ki, ölkə vətəndaşı olduğunu öz səsi ilə təsdiqləyirdi. Bu əlamətdar tarixi günün uğurla başa çatması üçün ciddi hazırlıqdan, yaradılan şəraitdən isə, əlbəttə, çox şey asılı idi.

Seçkilərdə iştirak edənlər müxtəlif yaş qruplarını təmsil etdikləri kimi, həm də onların müəyyən hissəsi Ermənistanın təcavüzkar siyasəti nəticəsində yurd-yuvası işğala məruz qalan məcburi köçkün soydaşlarımızdır. Həmin kateqoriyaya daxil olan seçicilərin də bu siyasi kampaniyada iştirakını təmin etmək üçün zəruri şərait yaradılıb.

Bakı şəhəri və Abşeron rayonu ərazisində məcburi köçkünlər üçün salınan qəsəbələr və yeni yaşayış məhəllələri az deyil. Qaradağ rayonunun Müşfiqabad qəsəbəsindəki yeni məhəllədə isə Ağdam, Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı, Zəngilan rayonlarından olan məcburi köçkünlər üçün fəaliyyət göstərən bir neçə seçki məntəqəsi var.

118 saylı Ağdam şəhər seçki dairəsinin 46 saylı seçki məntəqəsində seçkilərə ciddi hazırlıq görüldüyü bir anlıqdan hiss olunurdu. Məntəqə seçki komissiyasının sədri Nəsibə Hüseynova bildirdi ki, ölkəmizin ictimai-siyasi həyatında mühüm əhəmiyyət kəsb edən seçkilərin keçirilməsi üçün burada hər cür şərait yaradılıb. Məntəqədə 18 yaşlı ilk dəfə səs verən Fatimə Hacıyeva və Orxan Ağakişiyev kimi gənclərimizə rast gəldik.









Seçki məntəqəsində səsverməni izləyən yerli müşahidəçilərin fikirləri də müxtəlif idi. Burada Yeni Azərbaycan, Müsavat partiyalarının nümayəndələri ilə yanaşı, öz təşəbbüsü ilə seçkilərin gedişini izləyən bitərəflər də az deyildi.

Müşfiqabad qəsəbəsindəki 83 saylı Ağcabədi-Füzuli seçki dairəsinin 4, 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsinin 7, həmçinin 125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin 28 saylı seçki məntəqələrində də seçicilərin səsvermədə fəallığının şahidinə çevrildik.

123 saylı Kəlbəcər dairə seçki komissiyasının sədri Adil Murtuzayevdən aldığımız məlumata əsasən, 51 min 785 kəlbəcərli seçici hüququna malikdir. Respublikanın 54 şəhər və rayonunun ayrı-ayrı yaşayış məntəqələrində məskunlaşmış kəlbəcərlilərin seçkilərdə iştirakı üçün 65 seçki məntəqəsi fəaliyyət göstərir. Həmin məntəqələrdən 12-si Bakı şəhərindədir.

Kəlbəcərlilərin səsvermədə iştirak etdiyi seçki məntəqələrindən biri Bakı şəhərinin Xətai rayonunda yerləşir. 123 saylı Kəlbəcər seçki dairəsinin 3 saylı məntəqə seçki komissiyasının sədri Füruzə İsmayılova bildirdi ki, 887 seçicinin səs verməsi üçün burada hər cür şərait yaradılıb: "Seçicilərin fəallığını təmin edən isə ölkədə yaradılan demokratik şəraitdir. Hər kəsin öz namizədinə səs verməsi üçün hərtərəfli imkan var. Günorta saatlarınadək seçicilərin əksəriyyəti səsvermədə iştirak edib".

62 saylı məntəqə isə Abşeron rayonunun Mehdiabad qəsəbəsindəki "Gənclər şəhərciyi"ndə fəaliyyət göstərir. Seçicilərin sərbəst şəkildə səs verməsi üçün burada da hərtərəfli şərait yaradılıb. Məntəqə seçki komissiyasının sədri Nurəddin Hüseynov xüsusi olaraq vurğuladı ki, ömrünün ixtiyar çağlarını yaşayan, şəhid atası Qədim Məmmədovun səsvermədə iştirakı müxtəlif siyasi partiyaların müşahidəçilərinin də marağına səbəb oldu. Bu, bir daha onu göstərir ki, ölkə əhalisi seçkilərdə maraqlıdır. Hər kəs öz namizədinə səs vermək marağı ilə məntəqələrə gəlir.

Abşeron rayonu ərazisindəki 17 saylı seçki məntəqəsində də seçicilər layiq bildikləri namizədə səs vermək üçün məntəqəyə gəlirdi. Onlar havanın bir qədər soyuq və saxtalı keçməsinin də fərqində deyildilər. Məntəqə seçki komissiyasının sədri Aidə Əhmədovanın sözlərinə görə, müstəqil dövlətimizin qanunvericilik orqanının yenidən formalaşması xalqın doğru-düzgün seçimindən asılıdır.

123 saylı Kəlbəcər seçki dairəsinin 15 saylı məntəqə seçki komissiyasının sədri İbrahim Sadıqov qeyd etdi ki, vətəndaşlarımızın siyasi yetkinliyinin təmin edilməsi istiqamətində vaxtında aparılan təbliğat və təşviqat kampaniyasına xüsusi diqqət ayrılması vacib şərtlərdəndir: "660 seçicinin səs verdiyi bu məntəqədə müxtəlif siyasi partiya bloklarının namizədləri, o cümlədən YAP, AXCP, BXCP-nin, eləcə də bitərəf müşahidəçilərin izlədiyi seçki tam qanunauyuğun şəkildə keçir. Bir yer uğrunda 8 namizədin mübarizə aparması ilk növbədə seçkilərin azad, demokratik keçirilməsi, vətəndaşların isə seçmək və seçilmək hüquqlarının təmini deməkdir".

123 saylı Kəlbəcər seçki dairəsinin 4 saylı seçki məntəqəsində gördüklərimiz isə əsas verir deyək ki, burada da seçicilərin səs verməsinin təmini üçün münbit şərait yaradılıb. 1913-cü ildə Kəlbəcər rayonunun Yuxarı Qaraçanlı kəndində dünyaya göz açan Xeyransa Baxşəliyevanın da seçki məntəqəsinə gələrək öz vətəndaşlıq borcunu yerinə yetirməsi haqlı olaraq hər kəsin marağına səbəb oldu. Məntəqə seçki komissiyasının sədri Feyruz Həsənovun bildirdiyinə görə, bu dünyagörmüş ağbirçək bütün seçkilərdə məntəqəyə gələrək səs verir.

Həbib Misirov, Sənan Sadıqzadə, Həşim, Aybəniz, Aynurə Nəcəfovlar, Gülbəniz Sadıqova, Əfruz, Kənan, Sənan Salmanovlar, Ələmdar Əmiraslanov və digərləri istədikləri namizədə səs vermələri üçün hər cür şərait yaradıldığını bildirdilər.

Baş çəkdiyimiz məntəqələrdə istər məntəqə seçki komissiyalarının üzvləri, istərsə də müşahidəçilər özlərinin vəzifə və vətəndaşlıq borclarını yerinə yetirirdilər. Buna görə də seçki məntəqələrinə gələnlərin sərbəst, azad və demokratik şəraitdə səs vermələri üçün hər cür şərait yaradıldığını görmək mümkün idi. Bu həm də bir vətəndaşlıq borcu idi: Milli Məclisdə inandığı, etibar etdiyi, səs verdiyi namizədi deputat görmək üçün...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# PARLAMENT SEÇKİLƏRİ XARİCİ MƏTBUATDA

Azərbaycanda keçirilən parlament seçkiləri Türkiyənin televiziya kanalları tərəfindən də işıqlandırılır.

Məşhur "TVnet" kanalı seçkilər haqqında məlumat yayıb.

Türkdilli tamaşaçılara seçicilərin, namizədlərin, yerli və beynəlxalq müşahidəçilərin sayı barədə məlumat verilib.

Bildirilib ki, parlament seçkilərində gənclər üstünlük təşkil edir. Bu da daha çox Azərbaycanda son vaxtlar gənclərin dövlət idarəçiliyində və digər sahələrdə irəli çəkilməsi ilə əlaqədardır.

Vurğulanıb ki, beynəlxalq təşkilatlar, eləcə də müxtəlif ölkələrin kütləvi informasiya vasitələri Azərbaycanda parlament seçkilərinə xüsusi maraq göstərirlər.

❖ ❖ ❖

Azərbaycanda keçirilən parlament seçkiləri Ukraynanın televiziya kanalları tərəfindən də işıqlandırılıb.

Məşhur "1+1", "Ukrayna" kanalları seçkilər haqqında məlumat yayıb.

Xüsusi reportajlarda tamaşaçılara seçicilərin, namizədlərin, yerli və beynəlxalq müşahidəçilərin sayı barədə məlumat verilib. Namizədlər arasında gənclərin üstünlük təşkil etdiyi vurğulanır, son vaxtlar Azərbaycanda gənclər üçün yaradılmış şəraitdən bəhs olunub.

Diqqətə çatdırılıb ki, Azərbaycanda keçirilən parlament seçkilərinə beynəlxalq təşkilatlar, həmçinin müxtəlif ölkələrin kütləvi informasiya vasitələri böyük maraq göstərirlər.

❖ ❖ ❖

Qazaxıstanın aparıcı yerli KİV Azərbaycanda keçirilən parlament seçkilərini diqqət mərkəzində saxlayır.

Ölkənin "inform.kz", "turkistan.today" internet saytlarında dərc olunan məqalələrdə Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və ailə üzvlərinin ölkəmizdə keçirilən parlament seçkilərində səs verdikləri, deputatlığa namizədlər üçün bərabər imkanların yaradıldığı, seçicilərin öz namizədlərinə sərbəst səs vermələri üçün bütün şəraitin təmin olunduğu bildirilir.

Digər yerli xəbər saytlarında qeyd olunur ki, Azərbaycan Mərkəzi Seçki Komissiyası seçkilərin demokratik və şəffaf şəkildə keçməsi üçün böyük işlər görüb.

❖ ❖ ❖

Türkiyənin aparıcı kütləvi informasiya vasitələri fevralın 9-da Azərbaycanda keçirilən Milli Məclisə seçkilərlə bağlı geniş materiallar yayırlar. Materiallarda Azərbaycan Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və ailə üzvlərinin səsvermədə iştirakı öz əksini tapır.

Anadolu və DHA xəbər agentlikləri, "Hurriyet" qəzeti, "TRT HABER", "A HBR" televiziya kanalları və s. nüfuzlu KİV türkdilli əhalini Azərbaycanda keçirilən seçkilər barədə davamlı məlumatlandırır.

Bildirilir ki, səsvermə prosesi qanunauyğun şəkildə davam edir.

Qeyd edək ki, qardaş ölkə mətbuatı parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi təşəbbüsünün irəli sürülməsi ilə başlayan seçki prosesi davamlı olaraq diqqətdə saxlayır.

❖ ❖ ❖

Azərbaycanda keçirilən parlament seçkiləri İtaliya mətbuatının da diqqətindədir.

Ölkənin aparıcı xəbər portalları seçkilərlə bağlı statistik məlumatların əks olunduğu, həmçinin son vaxtlar Azərbaycanda aparılan islahatlarla bağlı məlumatlar yayırlar.

Məlumatlarda seçkiləri çoxsaylı beynəlxalq müşahidəçilərin də izlədikləri, seçki məntəqələrində 1000 veb-kameranın quraşdırıldığı bildirilir.

Xəbərlərdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin rəhbəri Hikmət Hacıyevin ölkəmizdə aparılan islahatlarla bağlı fikirlərinə də yer verilib.

❖ ❖ ❖

Meksikanın ən çox oxunan ingilisdilli "Puls News Mexico" qəzetində Azərbaycanda keçirilən parlament seçkilərinə həsr olunmuş məqalə dərc edilib.







































Tereza Marqolisin müəllifi olduğu məqalədə Azərbaycan hökumətinin seçkilərin açıq və şəffaf keçirilməsi üçün həyata keçirdiyi tədbirlərin təqdir edildiyi, dünyanın müxtəlif ölkələrindən yüzlərlə beynəlxalq müşahidəçinin dəvət olunduğu bildirilir. Həmçinin müxtəlif ölkələrdən KİV nümayəndələrinin seçkiləri işıqlandırdığı qeyd olunur. Seçkilərdə müşahidəçi qismində Meksika Deputatlar Palatasının üzvü Aqustin Qarsiya Rubio və Tereza Marqolis də daxil olmaqla iki jurnalistin Meksikanı təmsil etdiyi diqqətə çatdırılır.

Məqalədə həmçinin Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun seçkilərə hazırlıq prosesi ilə bağlı fikirlərinə istinad edilir.

Seçkilərdə gənc namizədlərin üstünlük təşkil etməsini müsbət hal kimi qeyd edən müəllif Azərbaycanın Şərqdə qadınlara səsvermə hüququ verən və qızlar üçün məktəb açan ilk ölkə olduğunu da vurğulayır.

Diqqətə çatdırılır ki, seçkilərin şəffaflığını təmin etmək məqsədilə məntəqələrin 20 faizində yüksək texnologiyalı veb-kameralar quraşdırılıb və bu da nümunəvi addımdır.

Müəllif Azərbaycan xalqının ölkə rəhbərliyinə dəstək və inamının əsas səbəbini mürəkkəb coğrafi mövqeyə və neftin qiymətinin son illər aşağı düşməsinə baxmayaraq, ölkənin sürətlə inkişaf edən iqtisadiyyatını qoruyub saxlaya bilməsi, sabitliyə nail olunması, əhalinin rifahının ildən-ilə yaxşılaşması, cinayətkarlığın səviyyəsinin dünya üzrə ən aşağı səviyyələrdə olması və terror hallarının yaşanmaması ilə əlaqələndirir.

❖ ❖ ❖







Fransanın "Politiquematin" portalında "Azərbaycan - Qafqazın sabitliyinin özəyi" sərlövhəli məqalə dərc olunub.

Məqalədə ölkəmizin keşməkeşli tarixindən, müstəqilliyinin ilk illərindən üzləşdiyi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışılır. Qeyd olunur ki, Azərbaycan Qafqazda ilk dünyəvi və parlamentli respublikadır.

Məqalədə Azərbaycanda keçirilən parlament seçkilərinə də toxunulub. Vurğulanıb ki, seçkilər 57 beynəlxalq təşkilatı təmsil edən 861 müşahidəçi tərəfindən izlənilir.

Diqqətə çatdırılıb ki, dünya miqyasında seçki məntəqələrində ilk dəfə veb-kameralar məhz Azərbaycanda quraşdırılıb.

Müəllif hətta Azərbaycanda Fransadan 25 il əvvəl qadınlara səsvermə hüququnun verildiyini bildirib. Qeyd edib ki, budəfəki seçkilərdə 357 qadın deputatlığa namizədliyini irəli sürüb.

Yazıda müxtəlif beynəlxalq təşkilatların ölkəmizdə seçkilərin şəffaf keçirilməsi ilə bağlı təşkilati işlərin yüksək səviyyədə aparılması ilə bağlı fikirlərinə də yer verilib.

Parlament seçkilərinin beynəlxalq jurnalistlər tərəfindən də müşahidə edildiyi, bu seçkilərin ölkəmizdə müxtəlif sahələrdə aparılan islahatların tərkib hissəsi olduğu diqqətə çatdırılıb.

Müəllif Azərbaycanın beynəlxalq tərəfdaşlıq strategiyası yürütdüyünü də qeyd edib.

❖ ❖ ❖

Azərbaycanda keçirilən parlament seçkiləri Gürcüstan mətbuatının diqqət mərkəzində olub.

Gürcüstanın nüfuzlu kvira.ge, newsday.ge, apsny.ge, kavkasia.net, ipress.ge, 24news.ge, gaxa.ge xəbər portalları, eləcə də 1Tv.ge televiziya kanalı Azərbaycanda keçirilən seçkilər barədə silsilə materiallar yayıb.

Materiallarda seçkilərin ədalətli və şəffaf keçirildiyi, yerli və xarici KİV, eləcə də Gürcüstanın mətbuat nümayəndələri üçün hər cür şəraitin yaradıldığı qeyd olunub.

❖ ❖ ❖

Ukraynanın tanınmış kütləvi informasiya vasitələrində Azərbaycanda keçirilən parlament seçkiləri ilə bağlı məlumatlar dərc edilib.

UKRİNFORM, "İnterfaks-Ukrayna" informasiya agentliklərində, "Qolos-Ukrayna" qəzetində, "Butik-Media" nəşrində yayılan məlumatlarda Milli Məclisə seçkilərlə bağlı statistik rəqəmlər yer alıb, yaradılan şəraitdən bəhs olunub.

Məlumatlarda həmçinin Azərbaycanda növbədənkənar parlament seçkilərinin keçirilməsini zəruri edən amillərə, həyata keçirilən islahatlara da toxunulub.

**AZƏRTAC**

Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6975
Sifariş 430
Qiyməti 40 qəpik